Xalqın qəzeti!

# Xalq qəzeti

№ 38 (31007) 27 fevral 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Qarabağa sülhü, Xocalıya ədaləti biz özümüz gətirdik

## Azərbaycan Prezidenti İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.**

Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Memorial barədə məlumat verdi.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində “Xocalıya ədalət!” kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiya ziyarətçiləri “Faciənin siması” instalyasiyası ilə qarşılayır. Rəşad Ələkbərov və Azər Rüstəmovun müəllifləri olduqları instalyasiya 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırımının qurbanlarını - qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri canlandırır.

Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan və Türkiyə liderlərinin telefon danışığı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Xocalıya səfəri ilə bağlı videoçarx paylaşılıb



**Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Xocalıya səfəri ilə bağlı videoçarx paylaşılıb.**

**Paylaşımı təqdim edirik.**

## Güclü və ayıq olmalıyıq, gələcəyə inamla baxmalıyıq



Səhifə ⇨ 9

## Qazaxıstanın yeni idarəçilik modeli

*Orta Dəhliz coğrafiyasında türk xalqlarının aparıcı mövqeyi*



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev 2026-cı il martın 15-də ölkənin yeni Konstitusiyası üzrə respublika referendumunun keçirilməsi haqqında fərman imzalayıb. Səsvermənin nəticələri yeddi gün ərzində rəsmi şəkildə beynəlxalq ictimaiyyətə elan ediləcək.**

Astananın atdığı bu addım sıradan qanunvericilik yenilənməsindən daha böyük məna daşıyır. Sənəd bütövlükdə Mərkəzi Asiyanın gələcək taleyini fərqli istiqamətə yönləndirəcək. Ölkə rəhbərliyi illərlə formalaşmış superprezident sistemindən tamamilə imtina edərək nüfuzlu, yüksək səlahiyyətlərə malik qanunverici bazası olan müasir parlamentli prezident respublikası quruculuğuna qətiyyətli keçid edir. Seçilmiş siyasi transformasiya xətti cəmiyyətin bütün seqmentlərində idarəetməyə nəzarəti artırmaqla yanaşı, regionda bənzəri görülməmiş şəffaflıq mühiti formalaşdırır.

*(ardı 10-cu səhifədə)*

## Praqmatik siyasət və strateji maraqlar

*Azərbaycan–Almaniya münasibətləri ölkəmizi Avropaya yaxınlaşdırır*





**Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Almaniya Cənubi Qafqaz regionunu həm enerji təhlükəsizliyi, həm də geosiyasi sabitlik baxımından strateji ərazi kimi qiymətləndirib. Hazırda ikitərəfli münasibətlər diplomatik çərçivə ilə yanaşı, Avropa strukturları ilə əməkdaşlıq kontekstində geniş siyasi və institusional məzmun daşıyır. Rəsmi Berlinlə diplomatik münasibətlər 1992-ci ildə quruldu və ilkin mərhələdə əsasən siyasi tanınma, iqtisadi əlaqələrin və qarşılıqlı etimad mühitinin formalaşdırılması istiqamətində inkişaf etdi. Sonrakı dövrlərdə münasibətlər daha sistemli xarakter aldı, enerji, təhlükəsizlik və iqtisadi modernləşmə əsas istiqamətlərə çevrildi. Bu gün Almaniya Avropanın aparıcı iqtisadi və siyasi gücü kimi Azərbaycan üçün strateji tərəfdaşlardan biri hesab olunur.**

Məlumdur ki, yüksək səviyyəli siyasi dialoq münasibətlərin əsas dayağıdır. Prezident İlham Əliyev müxtəlif zamanlarda Almaniyaya rəsmi və işgüzar səfərlər edərək federal hökumət rəhbərliyi və biznes dairələri ilə danışıqlar aparıb.

*(ardı 10-cu səhifədə)*

## Avropa İttifaqı Gürcüstandan əl çəkmir



**Gürcüstan və Avropa İttifaqı (Aİ) arasındakı münasibətlər özünün ən mürəkkəb mərhələlərindən birini yaşayır. Uzun illər davam edən strateji tərəfdaşlıq və inteqrasiya prosesi diplomatik pasportlar üçün vizasız rejimin dayandırılması qərarı fonunda ciddi sınaq qarşısındadır. Martın 1-dən qüvvəyə minəcək qərar Aİ-yə üzv ölkələrin böyük əksəriyyətinin dəstəyi ilə qəbul edilib. Yalnız Macarıstan və Slovakiya bu təşəbbüsün əleyhinə çıxıblar.**

*(ardı 10-cu səhifədə)*

## Bakı Türkoloji Qurultayının tarixi dərsləri və gələcəyə yönəlik ideyaları



Səhifə ⇨ 11

# Azərbaycan Prezidenti İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılışında










*(əvvəli 1-ci səhifədə)*

XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada "Xocalı - qədim sivilizasiyanın izləri", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalını unutma!" adlı ekspozisiyalarda Xocalının tarixi, işğalın coğrafiyası, münaqişənin xronologiyası, beynəlxalq hüquq normalarının pozulması, bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim olunur.

İkinci ekspozisiya zalında Sərxan Hacıyevin "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, insanlıq əleyhinə yönəlmiş cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular, sükuta qərq olan uşaq gülüşləri süni intellektlə hazırlanan video vasitəsilə təqdim edilir.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, müxtəlif dillərdə hazırlanan nəşrlər və informasiya materialları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər və onun fəal iştirakı ilə bu sahədə həyata keçirilmiş tədbirlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük Qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyası ilə tamamlanır.

Memorialın növbəti bölməsində rəsmi tədbirlərin və anım mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulan akt zalı var.

Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törədib. Faciə zamanı 613 nəfər qətlə yetirilib. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insan olub. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib.

İşğaldan azad edilən Xocalıda ucaldılan Memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Xocalı qurbanlarının ruhları bu gün şaddır. Müzəffər Ali Baş Komandanın da dediyi kimi, onların qanı yerdə qalmadı, onların qisası Vətən müharibəsi zamanı döyüş meydanında alındı.

Sonra Prezident İlham Əliyev Memorialın xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.




# Prezident İlham Əliyevin çıxışı

– İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı.

Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi.

Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də, dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.

"Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Yenə də deyirəm, biz ədalət tələb edirdik. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, dünyanın aparıcı ölkələri bizim bu faciəmizə biganə yanaşırdılar. Yenə də bildirmək istəyirəm, Ermənistan dövlətinin törətdiyi bu qanlı cinayəti ört-basdır etməyə çalışırdılar. Biz isə ədalətə addım-addım irəliləyirdik. 20-yə yaxın ölkənin Xocalı soyqırımını rəsmən tanıması bir addım idi, Vətən müharibəsi və şanlı Zəfərimiz ikinci addım idi, Xocalı şəhərinin iki il yarım bundan əvvəl azad edilməsi isə son addımlardan biri idi. Nəhayət, axırıncı addım bu yaxınlarda hərbi cinayətkarlara qarşı Bakıda keçirilmiş məhkəmə prosesi idi. Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular.

Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik – Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi. İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək.

Bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı. Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda, ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu.

Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq.

Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həllinin hüquqi əsasını təşkil etmişdir. Biz bir çox ölkələrlə sıx ikitərəfli münasibətlər, bir çox ölkələrlə strateji tərəfdaşlıq münasibətləri qurduq. Bu da beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsi həqiqətlərini çatdırmaq üçün imkan yaratmışdır.

Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm Ordumuzun peşəkarlığını artırdıq, eyni zamanda, əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi. Düzdür, o vaxt Xocalı, Xankəndi və bəzi digər yaşayış məntəqələri işğaldan azad edilməmişdi, ancaq mən bilirdim və əminəm, Azərbaycan xalqı bilirdi ki, o gün uzaqda deyil.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılışında






*(əvvəli 2-ci səhifədə)*

2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi.

Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Çünki mən bunu iki il bundan əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Əfsuslar olsun ki, Vətən müharibəsi Ermənistan dövlətinə dərs olmadı. Halbuki 2020-ci ilin Zəfərindən sonra dəfələrlə müxtəlif yollarla Ermənistan rəhbərliyinə biz öz mövqeyimizi çatdırmışdıq – heç kimə güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı.

2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın.

*

Sonra çıxış edən **Nərgiz Mahmudova** dedi:

– Möhtərəm cənab Prezidentimiz.

Hörmətli tədbir iştirakçıları.

Sizi salamlayıram. Mən də o faciəni 9 yaşımda yaşamışam. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə qəddar ermənilər tərəfindən Xocalı faciəsi törədildi. Həmin vaxt mən ailəmizlə birlikdə evimizdə idik. Atışma baş verən zaman biz kəndin kənarında olduğumuza görə kəndin ortasına gəldik. Dörd bir tərəfdən mühasirəyə alınmışdıq. Biz yol tapa bilmirdik. Üz tutduq meşəyə. Qarqarçay var, oradan keçdik meşəyə, günlərlə meşədə ac-susuz, ayaqyalın, başıaçıq gəzdik, amma yol tapa bilmirdik.



Bir neçə gündən sonra orada atamın bacısı, qardaşımın həyat yoldaşı şəhid oldular. Sonra biz dumanlı, çiskinli havada bilmədən gedib erməni postunun üstünə çıxdıq. Bizi orada mühasirəyə aldılar. Erməni cəlladlar əllərində avtomat yaxınlaşdılar, əmr etdilər ki, əllərinizi qaldırın. Mən qorxudan əlimi qaldıra bilmədim. O gəldi, mənim əllərimi avtomatla qaldırdı. Atam onlara nə qədər yalvardı ki, bu qadınları buraxın getsin, məni aparın öldürün. Onlar ona baxmadılar. Bizi apardılar, tövləyə yığdılar.

Biz gördük ki, xocalılılardan orada əsirlər var, bizdən əvvəl də əsir götürüblər. Bizim ən ağır, ən pis günlərimiz elə həmin vaxtdan sonra başladı. Yəni orada olan əsirlərə, öz xocalılılarımıza olmazın işgəncələr verdilər, atamı gözümün qarşısında döyməkləri, dişlərini çəkməkləri – bu, doqquz yaşlı körpənin gözü qarşısında olub. Bu, günlərlə belə davam edəndən sonra biz dəyişdirildik, bizi Ağdama gətirdilər. Orada bizə ilkin tibbi yardım göstəriləndən sonra bizi Bakıya gətirdilər, üç aydan artıq xəstəxanada yatdıq. Donvurma nəticəsində ailə üzvümüzdən beş nəfərin ayağı kəsildi, ikinci qrup əlilik. Mənim atamla anamın ayağının yarası bu günə qədər də sağalmayıb.

Cənab Prezident, bizim burada olmağımızın əsl səbəbi Sizsiniz. Sizə və ailə üzvlərinizə öz dərin təşəkkürümü bildirirəm. Allah sizləri qorusun, Allah sizləri var eləsin. Allah şəhidlərimizə rəhmət eləsin. Diqqətiniz üçün çox sağ olun.

*



Çıxış edən **Anar Əbdülov** dedi:

– Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Hər birinizi doğma Xocalımdan qürurla salamlayıram.

Həmin gecə, həmin gün Xocalını tərk edərkən mənim də 9 yaşım var idi. Ailə üzvlərimizlə Xocalını tərk etdik və insanlar Ağdama doğru bir ümid işığı ilə yollandılar. Lakin insanlar qarşıda onları nələrin gözlədiyini bilmirdilər. Erməni cəlladlar Xocalı sakinlərinə amansız divan tutdular. Ağdamda olduğumuz müddətdə atam hələ də gəlməmişdi, 5 gün meşədə qalmışdı. Beş gündən sonra atam çox acınacaqlı bir vəziyyətdə gəldi. Atam həmin dövrdə Ağdamda olan Azərbaycan Milli Ordusunun əsgərləri tərəfindən tapılıb gətirilmişdi. Atam, anam və mən bir müddət Bərdədə, babamgildə qaldıqdan sonra Bakıya aparıldıq və orada məskunlaşdırıldıq. Bundan sonra bizim ağır, məşəqqətli məcburi köçkünlük həyatımız başladı.

Həmin dövrlərdə təbii ki, ozamankı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində Xocalı soyqırımına layiqli qiymət verilməmişdi. Təhsildən kənar qalmışdıq. Bakıda Xocalı 2 saylı tam orta məktəbi çətinliklərlə fəaliyyət göstərməyə başladı. Orada təhsilimi davam etdirdim, başa vurdum, ali məktəbə qəbul oldum və oxuduğum məktəbə yenidən müəllim kimi qayıdıb fəaliyyətimi davam etdirdim. Həmin ağır illərdə bütün Xocalı sakinləri kimi, bizim ailəmiz də məşəqqətli günlər yaşayırdı və həmin dövrdəki hakim dairələr Xocalı soyqırımına layiq olan qiyməti vermirdi. Lakin məhz ulu öndərimiz Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra 1994-cü ildə Xocalı soyqırımına layiqli siyasi qiyməti verdi. Bundan sonra biz dövlətimizin diqqət və qayğısını öz üzərimizdə hiss etməyə başladıq. Məhz həmin dövrdən sonra Xocalı soyqırımı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Leyla xanımın başçılığı altında bütün dünya ölkələrinə tanıdılmağa başladı və bu da bizi çox sevindirirdi ki, artıq Xocalı həqiqətləri dünya dövlətləri tərəfindən tanınmağa başlayıb. Sevindirici haldır ki, bu gün də dünyanın bir çox ölkələri Xocalı soyqırımını, Xocalı həqiqətlərini tanımaqdadır.

Cənab Prezident, Sizin fəaliyyətiniz nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda bu gün canlanma baş verir. Bu gün azad olunmuş torpaqlara insanlar "Böyük Qayıdış" Proqramı əsasında qayıdırlar və biz də öz doğma Xocalımıza qayıtmışıq. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, mən bu torpaqlara atamla dönməyi arzu edirdim, lakin bu, qismət olmadı. Təəssüf ki, atamın timsalında Xocalı, Vətən həsrəti ilə dünyasını dəyişmiş bir çox insanlar bu torpaqlara qayıda bilmədilər. Lakin buna baxmayaraq, biz buradayıq, biz qayıtmışıq, biz dünyasını dəyişmiş həmin insanların yurdlarına, ata yurdumuza qayıtmışıq və onların sönmüş ocaqlarını alovlandırmaqdayıq. Mən də Sizin "Böyük Qayıdış" Proqramınız əsasında 2025-ci ilin aprel ayında doğma yurduma – Xocalıma qayıtdım və öz sevimli peşəmi - müəllimlik sənətimi burada, öz doğma məktəbimdə yenidən davam etdirirəm.

Biz xocalılılar Sizə böyük minnətdarlığımızı bildiririk. Bu hissləri, bu qüruru bizə yaşatdığınız üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Müqəddəs Ramazan ayında Uca Yaradandan Sizə ailə üzvlərinizlə birlikdə uzun ömür, cansağlığı arzulayıram. Diqqətiniz üçün təşəkkür edirəm.

*

Milli Qəhrəman Natiq Qasımovun bacısı **Kəmalə Heydərova** dedi:

–Əziz Prezidentimiz, hörmətli tədbir iştirakçıları. Hamınızı ürəkdən salamlayıram - ailəmiz adından, öz adımdan və şəhid ailələri adından. Xocalı Soyqırımı Memorialının açılışında iştirak etdiyim üçün çox sevinirəm, qürur hissi duyuram. Çox sağ olun ki, dəvət etmisiniz, bu sevinci bizə yaşadırsınız.

Mən Xocalı torpağına ayaq qoyanda keçirdiyim hissləri söyləmək mümkün deyil. Çünki bu torpaqda mənim qardaşım Natiq Qasımov döyüşüb. O, Rusiyada hərbi xidmətdə olanda erməni vəhşiləri burada azərbaycanlılara zülm edirdilər. O, əsgərlikdən gələndən sonra dayanmadı, gəldi Xocalıya. Onun qəhrəmanlığı haqqında heç nə danışmayacağam, hamı bilir.

Mən Sizə çox təşəkkür edirəm, əziz Prezidentimiz, mənim qardaşıma çox dəyər verdiniz. Ən gözəl adı – "Milli Qəhrəman" adını verdiniz. Onda anam sağ idi. İnanın ki, biz heç bilmirdik, qonşu zəng elədi ki, Natiqə "Milli Qəhrəman" adı verilib. Onun əməyi itmədi. Biz sevinirik ki, belə qəhrəmanlarımızın sayı çoxdur, şükürlər olsun. Heç bir dövlətdə, ölkədə elə bir şey yoxdur ki, 44 günlük müharibədə qalib olsun. Bu, Sizin şücaətiniz sayəsində, şəhidlərimiz, qazilərimiz, veteranlarımız sayəsində oldu.

Bir də onu demək istəyirəm ki, hansı bir ölkədə elə bir şey varmı ki, müharibə olanda həmin ölkənin cavan oğlanları növbəyə dursun. Bax, Azərbaycan elə oldu. Bu, Sizin səmimi çıxışınız əsasında oldu. Mənim oğlumun hərbi xidmət üçün yaşı çox idi, düşmürdü, özü getdi, dedi ki, dayımın qisasını alacağam. Hazırda veterandır. Çox sağ olun, Sizə çox təşəkkür edirəm.

Adı kimi mehriban, əziz Mehriban xanımımız, Birinci vitse-prezidentimiz, televizorda izləyirik, Siz şəhid ailələrini həmişə yad edirsiniz, onların balalarına dayaq olursunuz, çox sağ olun.

Gözəl qızım Leyla xanım ayın əvvəlində Gəncə səfərinə gələndə bizim qonağımız oldu. Biz çox sevindik, ailəmiz çox sevindi. İnanın ki, sevincimizin həddi-hüdudu yox idi. Biz Leyla xanımdan çox xahiş etdik ki, bizim sevincimizi, təşəkkürümüzü Prezidentimizə çatdırsın. Amma Leyla xanım mənə dedi ki, biz sizi görüşdürərik, özünüz təşəkkür edərsiniz. Bu sevinci bizə yaşatdınız, çox sağ olun, Leyla xanım, çox təşəkkür edirəm, var olasınız.

Mən həmişə inanırdım, bilirdim ki, torpaqlarımızın hamısı Sizin sayənizdə azad ediləcək. Amma Xankəndinin, illər öncə verilmiş bir torpağın azad edildiyini eşidəndə daha çox sevindim. 44 günlük müharibədə uşaqlarımız Prezidentə qəhrəmancasına dəstək oldu, əziz Prezidentimiz qalib oldu. Heç bir yerdə belə şey yoxdur.

Biz buraya dünən gəlmişik. İki il bundan qabaq da gəlmişdik, Natiqin döyüşdüyü kilsəyə getmişdik. İki il ərzində gör nə gözəl binalar tikilib, dünəndən gəzirik. Çox sağ olun, təşəkkür edirik. Bu sevinci bizə, dövlətimizə, millətimizə, şəhid ailələrinə yaşatdınız.

Xocalılılarla səmimi söhbət edirik, Allah razı olsun Sizdən, çox sağ olun. Necə təşəkkür edim ki, mənim qardaşıma bu cür dəyər verdiniz. Bir dənə də xahişim var ki, mənim qardaşımın da, - bilirəm bunu üçün çalışırsınız, - nəşi tapılsın, biz də şəhid ailələri kimi ziyarətə gedək. 30 ildən çox vaxt keçib, bizim ziyarət etməyə yerimiz yoxdur. Təkcə onu arzulayırıq, ayrı bir təmənnamız yoxdur.

Çox sağ olun, hamınıza təşəkkür edirəm. Öpürəm sizi Leyla xanım, Allah Sizdən razı olsun, var olasınız. Çox təşəkkür edirəm.

*

Çıxışlardan sonra xatirə şəkilləri çəkdirildi.

*

**Qadın sakin:** Bizə bu sevinci yaşatdınız, qürur duyuruq Sizinlə. Cənab Prezident, razı olarsınızmı Sizin boynunuzu qucaqlayıb, üzünüzdən öpüm. Ona görə ki, 2011-ci ildə Siz mənim evimdə çıxış etmisiniz. Siz orada mənə söz verdiniz ki, vaxt gələcək torpaqlarımız alınacaq, sizə bundan da gözəl evlər tikiləcək. Şükür, Allah Sizi qorusun. Allah sənin balalarını, ailəni qorusun. Allah Sizi mərdimazarlardan, düşmənlərdən qorusun. Sizinlə fəxr edirəm.

**Digər qadın sakin:** Xocalını istəməyərəkdən tərk edənlər - biz xocalılılar həmişə solğun çiçəyə bənzəyirdik. Amma Sizin sayənizdə, Ordumuzun gücü, şəhidlərimizin qanları, canları bahasına, gözəl Qarabağımızın gözəl guşələrindən olan Xocalımız alındı. Biz buraya ayaq basanda mən hiss etdim ki, həmin solmuş çiçəklərimiz artıq canlanıb. Bu gün Sizə, ailənizə minnətdarıq. Bir şəhid gəlini kimi, Xocalı faciəsinin canlı şahidi kimi həmişə Sizə minnətdarıq, dəstəyik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın. Sağ olun.

**Sakin:** Sizə minnətdarıq. Bizə göstərdiyiniz diqqətə görə şəhid ailəsi kimi öz təşəkkürümüzü bildiririk. Allah-taala Sizi qorusun. Hər zaman var olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Cansağlığı arzulayıram. Sağ olun.

**Sakin:** Şəhid bacısı kimi, şəhid övladı kimi Sizə öz təşəkkürümü bildirirəm. Bizə bu qüruru yaşatdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Şəhid ailəsi olaraq Sizə təşəkkür edirəm.

***(ardı 4-cü səhifədə)***

# Azərbaycan Prezidenti İlham Əliyev Xocalı Soyqırımı Memorialının açılışında








*(əvvəli 3-cü səhifədə)*

**Prezident İlham Əliyev:** Necə yaşayırsınız burada? Hər şey yaxşıdır?

**Sakin:** Allah nəsib etsin Sizi evimizdə qonaq görək.

**Prezident İlham Əliyev:** İnşallah.

**Sakin:** Sağ olun, var olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Xoş gördük Sizi. Mən Xocalıdan Milli Qəhrəman bacısıyam. Sizin atanız Ulu Öndər mənə qardaşımın Milli Qəhrəman vəsiqəsini vermişdi. Əllərindən öpürəm. Sizi də öpürük, bağrımıza basırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Xocalılılar adından çox təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Çox sağ olun, var olasınız.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sağ olun.

**Sakin:** Sizinlə fəxr edirəm. Sağ olun, var olun. Həmişə arxanızdayıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Mən şəxsən Prezidentimlə görüşdüm, arzuma çatdım. Sizin bir dahiyanə sözünüz var: "Atamın vəsiyyətini yerinə yetirdim". Öpürəm Sizi, var olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Oğlum da 44 günlük müharibədə Vətən uğrunda, Sizin uğrunuzda, xalqımın uğrunda şəhid oldu.



**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Sakin:** Allah Sizi qorusun, göydə, yerdə - hər yerdə qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Deputat Elman Məmmədov:** Cənab Prezident gözəl ev tikilib. Bu gecə orada yatmışam.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Elman Məmmədov:** Siz dediniz ki, Elman, bu ev tikiləcək. Gəlib burada çay içəcəyik. Tikilib.

**Qadın sakin:** Allah Sizi qorusun, Sizə qurban olum. Yaxşı ki, Siz varsınız. Qaralan ocağımızı alovlandırdınız, sönən çırağımızı yandırdınız. Sizə minnətdarıq. Dualarımız Sizinlədir.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Qəbirlərimiz tapdaq altında idi, onu ziyarətə gedirik. "Quran" oxutduruq, Sizə dua edirik. Mənim kimi anaların duası həmişə Sizin, ailənizin üstünüzdə olsun.



**Prezident İlham Əliyev:** Sağ olun. Hava da gözəldir.

**Qadın sakin:** Bəli, biz bu gün sevinirik, cənab Prezident.

**Prezident İlham Əliyev:** Mən iki il əvvəl – fevralın 26-da gəlmişdim. Soyuq idi onda, təməlini qoyanda... Amma indi görün elə bil ki, yaz havasıdır.

**Qadın sakin:** Mən buradan 20 yaşımda çıxdım, yeni ailə qurmuş gənclərdən idim. Bu gün mən 3 oğul, 2 gəlin, 4 nəvə ilə qayıtmışam. Çox sevinirəm.

**Prezident İlham Əliyev:** Şərait yaxşıdır?

**Qadın sakin:** Çox gözəldir, Sizin sayənizdə, cənab Prezident. Ailənizə minnətdarıq, Sizə minnətdarıq. Biz xocalılılar adından, ailəm adından Sizə minnətdarıq. Biz xocalılıların üzərində Sizin əziyyətiniz danılmazdır.

**Prezident İlham Əliyev:** Mənim borcum idi.

**Qadın sakin:** Artıqlaması ilə yerinə yetirildi.

**Digər qadın sakin:** Ulu Öndərimizin davamçısısınız.

**Qadın sakin:** Bəli, davamçısı. Allah Sizə həmişə yar olsun. Xocalılıların duasını aldınız. Biz minnətdarıq. Çox xoş oldu ki, Sizinlə belə qarşılaşdıq. Bir üzümüz gülür, bir üzümüz kədərlidir.

**Prezident İlham Əliyev:** Sağ olun, salamat qalın. Cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun.

**Qadın sakin:** Bu torpaqlardan top-tüfəng səsi yox, həmişə Zəfər paradının səsləri yayılsın.

**Prezident İlham Əliyev:** Bəli, inşallah, elə də olacaq.

**Sakinlər:** Çox sağ olun.

***AZƏRTAC***



# İqtisadi Şuranın iclası



**Fevralın 26-da İqtisadi Şuranın iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup"u tərəfindən hazırlanan "Məhkəmə və hüquq" sahəsinə və "Dövlət satınalma prosedurları" sahəsinə dair sahibkarların qaldırdığı aktual məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, İşçi Qrupun rəhbəri Natiq Əmirovun və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədovun məruzələri dinlənilib.

İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişiklikləri hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

***XQ***

# Dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər

**Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar fevralın 26-da Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.**

Dövlət və hökumət rəsmiləri soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının əziz xatirələrini ehtiramla anıblar.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan edib. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

***XQ***






# Azərbaycan–İndoneziya əməkdaşlığı müzakirəsi

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və İndoneziyanın səfiri Berlian Helmi görüşdə ikitərəfli əməkdaşlığın gücləndirilməsi strategiyasını müzakirə ediblər.**

Bu barədə İndoneziyanın Azərbaycandakı səfirliyi "Instagram" sosial şəbəkəsində məlumat yayıb.

"Görüşdə İndoneziya və Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi strategiyası, əməkdaşlıq mexanizmləri, eləcə də perspektivli birgə layihələr sahəsində təkliflər müzakirə olunub", – məlumatda bildirilib.

***XQ***



# Efiopiyanın Baş naziri Azərbaycana rəsmi səfərə gəlib



**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli fevralın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

***XQ***

# DTX əməkdaşları soyqırımı qurbanlarını anıblar

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları faciə qurbanlarının xatirəsinə ucaldılmış “Ana harayı” abidəsini ziyarət ediblər.**

DTX-dən bildirilib ki, abidənin önünə gül dəstələri qoyulub, soyqırımı zamanı həlak olanların əziz xatirəsi dərin ehtiramla yad edilib.

***XQ***



# Prokurorluğun kollektivinin Xocalı şəhidlərinə ehtiramı

**Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və prokurorluq orqanlarının əməkdaşları Bakının Xətai rayonunda ucaldılmış “Ana harayı” abidəsini ziyarət ediblər.**

Ziyarət zamanı abidənin önünə gül dəstələri düzülüb, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi dərin ehtiramla yad edilib.

***XQ***



## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin mart ayında vətəndaşların qəbulu

# CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 2 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 3 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 4 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 5 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 6 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 31 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 10 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 11 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 12 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 13 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 16 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 17 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 18 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 19 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 31 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 6 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.**

# Xarici diplomatların soyqırımı həmrəyliyi




**Almaniya, Yaponiya, Ukrayna və Niderlandın Azərbaycandakı diplomatik nümayəndəlikləri və Avropa İttifaqınn Azərbaycandakı səfiri Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar paylaşım ediblər. Diplomatik missiyalar özlərinin sosial şəbəkələrdəki paylaşımları ilə xalqımızla həmrəy olduqlarını nümayiş etdiriblər. Paylaşımlardan qısa seçmələri oxucuların diqqətinə çatdırırıq.**

* Almaniyanın Azərbaycandakı səfirliyinin paylaşımında qeyd edilib: “Biz 34 il əvvəl Xocalıda həlak olanların xatirəsini hörmətlə yad edirik”.

* Yaponiya səfirliyindən bildirilib: “Bu gün Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar qurbanların xatirəsini yad edirik. Yaponiya hökuməti bütün soyqırımlara qarşı çıxır!”.

* Ukraynanın Azərbaycandakı səfiri Yuriy Husyev Xocalı soyqırımının ildönümü ilə bağlı “Facebook” səhifəsində bunları bölüşüb: “Bu faciəvi gündə Xocalıdakı günahsız qurbanların xatirəsini yad edir, qarşılarında baş əyib, yas saxlayırıq”.

* Niderland səfirliyinin paylaşımında belə yazılıb: “Bu gün biz Azərbaycan xalqı ilə birlikdə 1992-ci ildə Xocalıda həlak olan bütün insanların xatirəsini anırıq”.

* Avropa İttifaqının Azərbaycandakı səfiri Mariyana Kuyundziçin sosial şəbəkədəki paylaşımında bildirilib: “Aİ-nin Azərbaycandakı Nümayəndəliyi Xocalı faciəsi zamanı həlak olmuş günahsız qurbanların - qadınların, kişilərin, uşaqların və yaşlıların xatirəsini yad edir. Nümayəndəlik qəlbdən başsağlığı verir və dayanıqlı sülhün bərqərar olunmasının vacibliyini vurğulayır”.

***XQ***

*Xocalı soyqırımı-34*

# ...Yaddan çıxmaz Xocalı



**1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə xalqımıza qarşı törədilmiş, insanlıq adına sığmayan cinayət - Xocalı soyqırımı tarixin yaddaşa həkk olundu. O müdhiş gecədə Xocalı üç istiqamətdən aramsız hücuma məruz qaldı. Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeçiliyində olan silahlı dəstələr, erməni hərbi birləşmələri, muzdlu döyüşçülər və keçmiş SSRİ ordusuna məxsus 366-cı motoatıcı alayın tank və zirehli texnikası şəhərə doğru irəlilədi. Güclü artilleriya atəşi ilə Xocalı şəhəri yerlə-yeksan edildi.**

Artıq Xocalı düşməndən azad olunub. Bir vaxtlar isti ocağından, el-obasından ayrı düşən insanlar indi doğma torpaqlarına qayıdırlar. Vaxtilə düşmən əsarətində olan tarixi yurd yerlərimizdə üçrəngli bayrağımız qürurla dalğalanır. Lakin xalqımız başına gətirilən müsibətləri unutmur, hər il Xocalı qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Fevralın 26-da "Ana harayı" abidəsinin qarşısında böyük izdiham vardı. Yaşından, mövqeyindən asılı olmayaraq hər kəs bu abidəni ziyarət etməklə o dəhşətli faciəni unutmadığımızı, günahsız insanların xatirəsini hər zaman uca tutduğumuzu bütün dünyaya nümayiş etdirirdi. Abidəni ziyarət edənlər arasında dövlət rəsmiləri, idarə və müəssisə rəhbərləri, məktəblilər, tələbələr və ictimaiyyət nümayəndələri də var idi.



**Xarici işlər naziri Ceyhun Bayramov Xocalıdan öncə bir sıra yaşayış məntəqələrimizdə də oxşar qətliam və kütləvi qırğınların törədildiyini bildirdi:**

– Bu hadisələr həmin dövrdə məqsədli şəkildə həyata keçirilən, etnik nifrətə söykənən siyasətin tərkib hissəsi idi. Xocalı faciəsi isə kütləvi terror aktı kimi tarixə düşüb. Belə ki, bir gecədə əksəriyyəti mülki şəxs olmaqla 613 günahsız insan qətlə yetirilib.

Ərazi bütövlüyümüzün bərpası, tarixi ədalətin təmin edilməsi yolunda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun nümayiş etdirdiyi qətiyyət bütün dünyaya bəllidir. Bu gün müzakirə mövzusu olan sülh prosesində də təşəbbüs və liderlik məhz Azərbaycan dövlətinə məxsusdur. Hazırda bu istiqamətdə ardıcıl və ciddi addımlar atılır, artıq mühüm nəticələr əldə olunub. Bununla yanaşı, tariximizi unutmaq olmaz. Azərbaycan xalqı hər zaman olduğu kimi, bu gün də şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir.

**Möhübbət KƏRİMOV,**
**Xocalı sakini:**



– Artıq 30 ildən çoxdur ki, Bakıda məskunlaşmışam, burada yeni həyat qurmuşam. Amma nə qədər vaxt keçsə də, mənim üçün "ev" anlayışı hələ də Xocalıdadır. 1992-ci ilin o qanlı fevral gecəsində doğma şəhərimizi tərk etməyə məcbur olan minlərlə sakindən biri də mən idim. O günlər həyatımızın ən ağır və unudulmaz günləri idi.

Xocalıdan çıxanda sanki ruhum orada qaldı.Biz orada qurduğumuz həyatı, keçmişimizi və xatirələrimizi qoyub gəldik. Yolda çəkdiyimiz əzablar, insanların çarəsizliyi yaddaşımdan silinmir. Biz Xocalıda çox itki verdik, çox əzablar çəkdik.

İndi Bakıda olsam da, gözüm hər an yoldadır. Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunub. 30 il əvvəl min bir ağrı-acı ilə çıxdığımız o torpaqlara indi həyat qayıdır. Mən də Xocalıya qayıdacağım günü gözləyirəm. Ən böyük arzum odur ki, gedib öz yurdumda yaşayım. Mənim üçün yarımçıq qalan həyat yalnız o gün yenidən başlayacaq.

**Əsgər ƏLİMİRZƏOĞLU,**
**Qarabağ müharibəsi iştirakçısı, tankçı:**



– Mənim üçün müharibə təkcə səngər, texnika və tankın lüləsindən görünən hədəflər deyildi. Mən həm də xalqımızın üzləşdiyi o böyük faciələrin canlı şahidi olmuşam. 1990-cı illərin əvvəllərində Qarabağ müharibəsinin ən ağır günlərini yaşayırdıq. Xüsusilə Xocalı, Laçın, Füzuli və Ağdam istiqamətlərində keçdiyimiz döyüş yolları yaddaşımda silinməz izlər qoyub.

O vaxt döyüşlər bizim üçün həm də sınağ idi. Bütün çətinliklərə, təminatın zəifliyinə baxmayaraq, torpaqlarımız uğrunda vuruşurduq. Qarabağ qazisi kimi deyə bilərəm ki, o zaman ayaqyalın, başıaçıq, ac-susuz olsaq belə, xalqımızın yolunda canımızdan keçməyə hazır idik. Çünki gördüyümüz o haqsızlıqlar bizi daha da gücləndirdi.

İllər keçsə də, mənim üçün bu mübarizə bitməmişdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayanda yenidən ön cəbhəyə qayıtdım. Bu, yarımçıq qalan işimizi tamamlamaq fürsəti idi. Bizim polad iradəmiz düşməni geri oturtdu. Allah Ali Baş Komandanımıza can sağlığı versin. O, bizə bu qələbəni yaşatdı. Bu gün Xocalının yenidən dirçəldiyini, şəhid qanı ilə suvarılan torpaqların nəfəs aldığını görmək bizim ən böyük mükafatımızdır. Xocalı milli qürurumuzun və böyük qayıdışımızın simvoludur.

**İradə QARAGÖZOVA,**
**308 saylı məktəbin müəllimi:**



– Müəllimin ən böyük missiyalarından biri tariximizi, xüsusilə də xalqımızın yaşadığı acı həqiqətləri gənc nəslə düzgün və məsuliyyətlə çatdırmaqdır. Məhz bu səbəbdən hər il şagirdlərimizə Xocalı dəhşətlərini danışır, onlarda qan yaddaşı formalaşdırmağa çalışırıq.

Azərbaycan xalqının başına gətirilən faciələr bu günümüzü və gələcəyimizi dərk etmək üçün dərsdir. Biz müəllimlər bu faciələri gənc nəslə anlatmaqla onların məsuliyyətli və vətənpərvər vətəndaşlar kimi formalaşmasına çalışırıq. Məqsədimiz odur ki, şagirdlərimiz xalqın yaşadığı ağrı- acını dərk etsinlər, bu həqiqətləri özlərindən sonrakı nəsillərə ötürsünlər. Hər il məktəblərdə keçirilən anım tədbirləri bu missiyanın ayrılmaz hissəsidir.

Şəhidlərimizin xatirəsini daim əziz tutmaq, onları unutdurmamaq müəllimlərin üzərinə düşən mənəvi borcdur. Bu borcu yerinə yetirərək biz yalnız keçmişi qorumur, həm də vətənpərvər Azərbaycan vətəndaşları yetişdiririk.

**Aybəniz İRZAYEVA,**
**şəhər sakini:**



– İllər əvvəl Xocalıda azərbaycanlılara qarşı misli görünməmiş soyqırımı törədildi,minlərlə həmvətənimiz ev-eşiyindən didərgin salındı, ocaqlar söndü, ailələr parçalandı. Körpələr ata-anasız, valideynlər övladsız qaldı. İnsanlıq adına sığmayan bu cinayət bir gecədə minlərlə taleyi alt-üst etdi.

34 il keçib, biz bu gün də Xocalı faciəsinin qurbanlarını yad edərkən göz yaşlarımızı saxlaya bilmirik. Lakin zaman ədalətli hökmünü verdi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə rəşadətli ordumuz Xocalını işğaldan azad etdi. Şəhidlərimizin qanı yerdə qalmadı.

Bu gün sonsuz sevinc və qürur hissi yaşayırıq. Çünki Xocalıya qayıdış başlayıb. Doğma torpaqlara həyat yenidən qayıdır, dağıdılmış evlərin yerində ümidlər boy atır. Xocalı yenidən dirçəlir, nəfəs alır, gələcəyə doğru addımlayır. Bu mənzərə hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Torpaqlarımızın yenidən birləşməsi, işğal altında qalan yurd yerlərimizin azad olunması milli birliyin və gücün təcəssümüdür.

**Talıb ƏLİYEV,**
**məktəbli:**

– Xocalı faciəsi haqqında ilk dəfə ailəmdən məlumat almışam. Müəllimimiz dərsdə danışanda isə Xocalı faciəsinin xalqımızın yaşadığı böyük ağrı olduğunu başa düşdüm.

Xocalıda baş verənlər haqqında oxuduqca və dinlədikcə ürəyim sıxılır. Orada öldürülən uşaqların bəziləri mənim kimi məktəbli idi. Onların da arzuları vardı, böyümək, oxumaq, valideynlərinin yanında olmaq istəyirdilər. Amma bir gecənin içində bu arzular yarımçıq qaldı. Körpələr valideynsiz, analar balasız qaldı.



Hər il fevral ayında məktəbimizdə Xocalı şəhidlərini yad edirik, şeirlər oxuyur, şəkillərə baxırıq. O anlarda içimdə həm kədər, həm də qürur hissi olur. Kədərlənirəm, çünki günahsız insanlar öldürülüb, qürur duyuram ki, onlar Vətən üçün canlarından keçiblər.

Bizə deyirlər ki, Xocalını unutmaq olmaz. Mən də düşünürəm ki, unutsaq, həmin ağrı yenidən təkrarlana bilər. Xocalı bizim yaddaşımız, tariximizdir. Mən istəyirəm ki, Xocalı bir daha ağlamasın, orada yalnız uşaqların gülüşü eşidilsin.

Xocalı şəhidlərini unutmayacağıq. Onlar bizim qəlbimizdə yaşayır və yaşayacaqlar.

**Aişə MAHMUDOVA,**
**məktəbli:**

– Xocalı haqqında danışanda müəllimimizin səsi dəyişir, sinifdə sükut yaranır. O an anlayıram ki, bu tarix göz yaşları ilə yazılmış bir həqiqətdir. Mən Xocalıda öldürülən uşaqları düşünürəm. Onlar da səhər dərsə tələsmək, dəftərlərini itirmək, gələcək üçün xəyallar qurmaq istəyirdilər. Amma onların sabahı açılmadı.

Bu gün Xocalının azad olması mənə ümid verir. Deməli, ədalət hər zaman bərqərar olur, torpaq öz sahiblərinə geri qayıdır. Mən istəyirəm ki, Xocalı faciəsi yalnız dərsliklərdə qalsın, gələcəkdə ona bənzər hadisələr bir daha yaşanmasın.

Söz verirəm ki, Xocalını unutmayacam. Unutmayacağam ki, bir daha heç bir uşaq gecənin bir yarısı qorxu ilə oyanmasın, heç bir ana övladının yolunu gözləməsin.

Bu gün doğma sakinlərini ana ağuşu tək qoynuna alan Xocalıya həyat bütün ehtişamı ilə yenidən qayıdır. Xocalı artıq tarixin yaddaşında bir faciə, ağrının adı deyil, sarsılmaz iradənin, "Böyük Qayıdış"ın və milli dirçəlişin əzəmətli abidəsinə çevrilib. Şəhid, günahsız insan qanları ilə suvarılan bu torpaqlar indi yenidən nəfəs alır.

***Hazırladılar:***
***Ləman TƏHMƏZ,***
***Tacir SADIQOV,***
***Rauf İBRAHİMOV (fotolar)***
***XQ***

# Milli Məclisin Xocalı soyqırımı ilə bağlı xarici parlamentlərə müraciəti

**Milli Məclis tərəfindən Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar xarici ölkələrin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlanıb.**

Müraciətlərdə Ermənistanın Azərbaycan Respublikasının ərazilərini işğalı zamanı törətdiyi Xocalı soyqırımının 34-cü ildönümünü Azərbaycan xalqının bu il də dərin hüznlə yad etdiyi qeyd olunaraq, Xocalının dinc sakinlərinə qarşı törədilmiş bu amansız qətliamın XX əsrdə bəşəriyyətə qarşı həyata keçirilmiş ən ağır və dəhşətli cinayətlərdən biri kimi tarixə düşdüyü vurğulanır.



Bildirilir ki, bu soyqırımı zamanı etnik mənsubiyyətlərinə görə 63-ü uşaq, 106-sı qadın və 70-i qoca olmaqla, 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Qurbanlara qarşı misilsiz qəddarlıqlar törədilib. Meyitlər təhqir edilib, bəzi qurbanlar diri-diri yandırılıb.

Müraciətlərdə deyilir ki, Xocalı soyqırımı beynəlxalq humanitar hüququn, insan hüquqlarının, habelə soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın kobud şəkildə pozulmasıdır.

Qeyd olunur ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası dövlətimizin və xalqımızın birlik və həmrəyliyini təcəssüm etdirir. Bu gün Xocalı da daxil olmaqla bütün azad edilmiş ərazilərə həyat yenidən qayıdıb. Öz doğma torpaqlarında sülh və təhlükəsizlik şəraitində yaşayan xalqımız Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədi yaşadacaq.

Həmçinin məhz Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanla sülh prosesinin başlanması və irəlilədilməsi istiqamətində ilk təşəbbüsü irəli sürdüyü, bu prosesin ötən ilin avqustunda ABŞ-ın Vaşinqton şəhərində "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması ilə nəticələndiyi də diqqətə çatdırılır.

Bildirilir ki, bu gün iki ölkə arasında formalaşmış faktiki sülh mühiti Azərbaycanın Ermənistana yük daşınmasına tətbiq etdiyi bütün məhdudiyyətləri aradan qaldırması, neft məhsullarının ixracını təmin etməsi, eləcə də parlament üzvləri və vətəndaş cəmiyyəti nümayəndələri arasında qarşılıqlı dialoq və təmasların genişləndirilməsi kimi bir sıra etimad quruculuğu tədbirləri ilə daha da möhkəmləndirilir.

Müraciətlərdə beynəlxalq əməkdaşlığın, xüsusən də parlamentlərarası dialoqun gücünü nəzərə alaraq, Xocalı soyqırımı barədə məlumatlılığın artırılması və onun beynəlxalq səviyyədə tanınması, eləcə də təqsirkarların məsuliyyətə cəlb edilməsi istiqamətində səylərin davam etdirildiyi, bu faciənin anılmasının təkcə qurbanların xatirəsini yad etmək deyil, həm də gələcəkdə bəşəriyyətə qarşı bu cür cinayətlərin qarşısının alınmasına çağırış olduğu vurğulanır.

# YAP nümayəndələri soyqırımı abidəsini ziyarət ediblər




**Fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**

Abidənin önünə əklil və gül dəstələri qoyulub, soyqırımı qurbanlarının əziz xatirəsi ehtiramla yad edilib.

***XQ***

# Poeziyamızın Xocalı harayı



**Azərbaycan poeziyasında xalqımızın ağır sınaqlara çəkildiyi tarixi hadisələr bədii boyalarla əks etdirilib. Bu baxımdan 34-cü ildönümünü qeyd etdiyimiz Xocalı faciəsi də istisna deyil. Ötən illərdə bir sıra yazarımız bu qanlı faciəyə çoxsaylı şeir, poema, hekayə, esse həsr edib. Xalq şairi Vahid Əziz də həmin hadisələri bəşər övladı üçün görk olsun deyə, özünəməxsus şəkildə qələmə alıb. Onun Vətən müharibəsi ərəfəsində yazdığı və tezliklə qisasın döyüş meydanında alınacağına inamını bildirən "Xocalı" adlı şeirini oxuculara təqdim edirik.**

## XOCALI

Gözlər yolda, ruhlar durna köçündə,
Torpağımın sinə dağı – Xocalı.
Viran qalıb bir gecənin içində,
Dönüb oldu qan çanağı – Xocalı.

Yaraların indiyədək göynədir,
Qaysaqları həm təzə, həm köhnədir.
Körpələrin cavanlığı görmədi,
Cavanların – qocalığı, Xocalı.

Gerçəyindən xəbər ala bilmədik,
Dar günündə sipər ola bilmədik.
İndiyədək sızıltıyla dinlərik
Gec yetişən səs-sorağı, Xocalı.

Zaman keçir, vaxt qovğanı bitirmir,
Qudurmuşu haqq yoluna gətirmir.
Götürmədi, düşmən gözü götürmür
Yurdumdakı xoş növrağı, Xocalı.

Az qalıbdır – sevinərik şəstinə,
Çox ağladıq ocağında tüstünə.
Kölgəsini salacaqdır üstünə
Vətənimin öz bayrağı, Xocalı.

***Vahid ƏZİZ,***
***Xalq şairi***

**26 iyun 2020-ci il.**

*Xocalı soyqırımı – 34*

# Dünya susmasın gərək!

**Xocalı soyqırımının bir daha təkrarlanmaması üçün o, heç vaxt unudulmamalıdır. Azərbaycanda olduğu kimi, soydaşlarımızın yaşadığı xarici ölkələrdə də “Xocalıya ədalət” kampaniyası indi və gələcəkdə mütəmadi şəkildə davam etdirilməlidir. Əminik ki, beynəlxalq ictimaiyyət, sivil dünya xalqımızın haqq səsini mütləq eşidəcək və erməni vandalların XXI əsrdə insanlığa qarşı törətdiyi cinayətin əsl qiymətini verəcək, əlləri xocalıların qanına bulaşmış canilər ədalət mühakiməsinə cəlb olunacaqlar.**



### Türkiyə

**Türkiyənin İzmir şəhərində “34-cü ilində hər yönü ilə Xocalı və Azərbaycan–Ermənistan münasibətləri” mövzusunda panel iclas keçirilib.**

Tədbir İzmir Azərbaycan Dərnəyinin təşəbbüsü ilə Türkiyənin Ege Universitetində təşkil edilib. Mərasimdə çıxış edən dərnəyin sədri Pərviz Altay, Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun müdiri professor Abdullah Temsizkan, Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Cavid İsmayıl Xocalı soyqırımı barədə danışıb, bəşəri ədalət naminə bu faciənin dünyada tanınmasının vacibliyini vurğulayıblar.

Ali təhsil müəssisəsinin professoru Vəfa Kurbanın moderatorluğu ilə keçirilən iclasda Manisa Calal Bayar Universitetinin professorları Umut Kedikli və Zafer Atarın mövzu ilə bağlı məruzələri dinlənilib.

### Qazaxıstan

**Xocalı faciəsinin qurbanları Astanada da yad edilib. Azərbaycanın Qazaxıstandakı səfirliyində burada yaşayan Azərbaycan icmasının, ekspertlərin, həmçinin bu ölkədə təhsil alan azərbaycanlı tələbələrin iştirakı ilə Xocalı soyqırımının 34-cü ildönümünə həsr edilən anım mərasimi düzənlənib.**

Tədbirdə çıxış edən Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Xocalıda törədilən vandalizm aktı barədə ətraflı məlumat verib. Bildirib ki, Xocalı hadisəsi Ermənistanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifələrindən biridir.



Vurğulanıb ki, Heydər Əliyev Fondu tərəfindən başladılan “Xocalıya ədalət” beynəlxalq kampaniyası isə bu istiqamətdə maarifləndirmə və təbliğat işini əhəmiyyətli dərəcədə gücləndirib. Bunun nəticəsində bir çox ölkələrin parlamentləri, ABŞ-ın 20-dən çox ştatının qanunverici və icra orqanı, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsi Xocalı faciəsini kütləvi qətl aktı kimi pisləyib. Səfir xatırladıb ki, Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Qələbə, eləcə də 2023-cü ilin sentyabrında keçirilən 23 saatlıq antiterror tədbirləri ilə ərazi bütövlüyünü, suverenliyin və tarixi ədaləti bərpa etdi: “Bu gün biz Xocalı faciəsini tamamilə fərqli hiss və duyğularla yad edirik. Xocalı artıq bizimlədir. Biz əbədi olaraq ata-baba torpaqlarımıza qayıtdıq”.

### Belçika

**Lüksemburq-Azərbaycan Dostluq Assosiasiyası (LuxAz) tərəfindən Belçika paytaxtında Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.**

Tədbirdə Azərbaycanın Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin əməkdaşları, diaspor nümayəndələri, eləcə də Lüksemburqda yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər. Tədbir Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayıb.



LuxAz-ın sədri Seymur Əhmədov Xocalı faciəsinin Azərbaycan xalqının yaddaşında dərin iz buraxdığını vurğulayaraq tarixi ədalətin gec-tez bərpa olunacağına əminliyini bildirib. O, həmçinin gələcək nəsillərə sülh və insan həyatının dəyərinin aşılanmasının vacibliyini vurğulayıb. Azərbaycanın Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin 1-ci katibi Emin Rüstəmov isə çıxışında Xocalı qurbanlarının daim ehtiramla anılmasının, bu soyqırımı aktının qan yaddaşımıza həmişəlik həkk edilməsinin vacibliyini vurğulayıb, beynəlxalq platformalarda “Xocalıya ədalət!” kampaniyalarının böyük əhəmiyyətindən bəhs edib.

### Bosniya və Hersoqovina



**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Əvvəlcə Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən paytaxt Sarayevodan 40 kilometr məsafədə yerləşən və qədim tarixə malik Fonitsa şəhərindəki XVII əsrə aid türk məscidində 100 nəfərlik iftar süfrəsi açılıb. Səfirlikdən bildirilib ki, builki Ramazan bayramı Xocalı soyqırımının ildönümünə təsadüf etdiyi üçün iftar məclisi məhz Xocalı şəhidlərinin xatirəsinə həsr olunub.**

Fevralın 26-da Sarayevonun mərkəzində yerləşən Azərbaycan–Bosniya Dostluq parkında “Xocalı və Serebrenitsa anaları” abidəsi ziyarət edilib və önünə əklillər qoyulub. Mərasimdə Azərbaycanın Bosniya və Herseqovinadakı səfirliyi ilə yanaşı, qardaş Türkiyənin səfirliyinin əməkdaşları da tam tərkibdə iştirak ediblər. Mərasimə, həmçinin bu ölkədə fəaliyyət göstərən Azərbaycan və Türkiyə icmasının nümayəndələri qatılıblar.

### Rusiya

**Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri, politoloq Tatyana Poloskova Xocalı faciəsi ilə bağlı yerli mediaya açıqlama verib.**



Onun sözlərinə görə, Xocalıda baş verənlər, sadəcə, kütləvi qırğın deyil, etnik mənsubiyyətə görə həyata keçirilmiş məqsədli məhvetmə aktıdır: “Qadınlara, uşaqlara rəhm edilmədən kütləvi qırğın törədilib, yüzlərlə insan əsir götürülüb, onların bir qisminin taleyi bu günədək məlum deyil. İnsanlar yalnız azərbaycanlı olduqları üçün məhv ediliblər. Bu isə soyqırımı anlayışına tam uyğun gəlir”. T.Poloskova qeyd edib ki, bu günədək Xocalı faciəsinə lazımi beynəlxalq hüquqi-siyasi qiymətin verilməməsinin bir neçə səbəbi var. Onun fikrincə, beynəlxalq hüquq hazırda ciddi böhran mərhələsindən keçir və bir çox hallarda məcburedici mexanizmə malik deyil: “Əksər dövlətlərdə daxili hüquq beynəlxalq hüquqdan üstün tutulur. Digər tərəfdən, beynəlxalq hüquq son illər ciddi böhran yaşayır və bir çox müddəaların yenidən baxılmasına ehtiyac var”.

T.Poloskova onu da vurğulayıb ki, beynəlxalq təşkilatların məsələyə diqqət yetirməsi üçün ciddi və sistemli təzyiq mexanizmləri formalaşdırılmalıdır: “Beynəlxalq təşkilatların özü-özünə reaksiya verməsini gözləmək sadəlövhlükdür. Təzyiq göstərilməlidir. Güclü beynəlxalq informasiya kampaniyasına ehtiyac var”.

### Belarus



**Minsk şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsi böyük ehtiramla yad edilib.**

Bununla əlaqədar Belarusun paytaxtında Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş tədbir barədə Belarusun Azərbaycandakı səfirliyinin "X" sosial şəbəkəsindəki səhifəsində məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, Xocalı faciəsinin qurbanlarını anım mərasimində bu ölkədəki Azərbaycan diasporunun, diplomatik korpusun, KİV-in nümayəndələri, eləcə də azərbaycanlı tələbələr iştirak ediblər.

*Hazırladı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Əsrin qan yaddaşı

**Fevralın 26-da Prezident Kitabxanasının Oxu zalında Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş “Xocalı-34: Milli yaddaşın sarsılmazlıq simvolu” adlı anım mərasimi keçirildi.**

Məclisi giriş sözü ilə açan Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova Xocalı soyqırımının bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğuladı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu qanlı hadisələrə ilk dəfə siyasi-hüquqi qiymət verildiyini və “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində aparılan işlərin bu gün də mühüm nəticələrini diqqətə çatdırdı.



O bildirdi ki, 500 mindən artıq zəngin kitab fonduna malik Prezident Kitabxanasında müəllim və tələbə heyətinin bir araya gəlməsi təsadüfi xarakter daşımır. Buradakı gənclər o dəhşətli gecənin canlı şahidi olmasalar da, tariximizin bu qanlı səhifəsini öyrənmək və həqiqəti dünyaya çatdırmaq onların vətəndaşlıq borcudur.

**Professor XQ-yə açıqlamasında söylədi ki, uzaq Fransada yaşamasına rəğmən qəlbi daim Azərbaycanla döyünən dünyaşöhrətli fotoqraf Reza Deqati xalqımızın fəryadına ilk səs verənlərdən biri idi:**

– O dəhşətli gecədə yüzlərlə insan əsir götürüldü. Onların geri qaytarılması üçün aparılan danışıqlarda Azərbaycan tərəfi ağır şərtlərlə üz-üzə qalırdı. Hətta əsirləri xilas etmək naminə qarşı tərəfə yanacaq vermək məcburiyyəti yaranırdı. Bu, tarixin ən acı paradoksu idi: azadlıq üçün verilən yanacaq, sonradan hərbi texnikalara doldurularaq yenidən soydaşlarımızın qanını axıdırdı.

Əsirlərin dəyişdirilməsi prosesində iştirak edən Reza Deqatiyə təhlükəsizlik səbəbindən Azərbaycan dilini bildiyini gizli saxlaması tövsiyə olunmuşdu. O, danışıqlar boyu yalnız fars dilində ünsiyyət qururdu. Həmin görüşlərdə Fransada yaşamış və Birinci Qarabağ müharibəsində muzdlu kimi iştirak etmiş erməni əsilli əsgərin ifadələri hər kəsin qəlbində qaysaq bağlamayan yara açmışdı. O cibindən qaşıq çıxararaq istehza ilə demişdi ki, bütün erməni əsgərləri həmişə cibində qaşıqla gəzir ki, əsirlərin gözlərini oysunlar. Bu ağlasığmaz faktlar müharibənin əsir və girovlarla davranışda da ağır humanitar pozuntulara səbəb olunduğunu göstərir.

Təqdim olunan fotolardan birində Qaratel adlı qadının təsviri var. O, illərlə itkin düşən oğlunu axtarmış, nəhayət tapdıqda isə onun ağır işgəncələrə məruz qaldığını görmüşdür. Bu səhnə müharibənin ailələr də buraxdığı sağalmaz izlərin sübutudur. Biz bu vəhşiliklə üzləşmiş xalqın nümayəndələriyik. Lakin eyni zamanda, mübarizə apararaq ərazi bütövlüyünü bərpa etmiş qalib dövlətik.

**Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa XQ-yə açıqlamasında vurğuladı ki, erməni silahlı dəstələri 1918-1920-ci illərdə də Xocalıda soyqırımı törətmişdilər.**



– Tarixdən bəllidir ki, ermənilərin müdafiəsizə, qocaya, qadına, uşağa heç vaxt rəhmi gəlməyib. O müdhiş fevral gecəsində Xankəndidə qalan keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının canlı qüvvəsindən və texnikasından istifadə edən ermənilər özlərini çox güclü sayırdılar. Ermənistan rəhbərliyi də Xocalı soyqırımının törədilməsində ermənilərin təqsirkar olmadığını, cinayətin baiskarının yalnız ruslar olduğunu iddia edir. Budur, özünü dünyaya “yazıq”, “məzlum”, “soyqırımına məruz qoyulan xalq” kimi təqdim edən ermənilərin iç üzü.

Əsl adı Hovannes Ter-Martirosyan olan, lakin əsərlərini “A-Do” imzası ilə çap etdirən erməni müəllifinin 1907-ci ildə İrəvanda erməni dilində çap edilən irihəcmli “Qafqazda erməni-türk toqquşmaları” əsərində ermənilərin törətdikləri vəhşiliklər barədə kifayət qədər fakt yer almışdır. Ermənilər 1992-ci ildə Xocalıda törətdikləri soyqırımının analoqunu XX




əsrin əvvəllərində – 1905-ci il avqustun 23-də də törətmişdilər. A-Do yazır ki, erməni silahlı dəstələrinin Xocalıya hücumu zamanı kənd əhalisinin bir qismi qaçaraq canını qurtarmış, bir qismini də ermənilər öldürmüşdülər. Müəllif qeyd edir ki, Xocalını ələ keçirən ermənilər əvvəlcə evləri talamış, sonra isə od vurub yandırmışdılar ki, bir də əhali geri qayıda bilməsin.

1918-ci ildə öncə Xalq Cümhuriyyətinin Ordusu və Nuru paşanın komandanlığında Azərbaycana köməyə gələn Qafqaz İslam Ordusu erməni silahlı dəstələrinin tərksilah etmişdilər. 1920-ci ildə Qarabağda yenidən baş qaldıran erməni separatizmini general Həbib bəy Səlimovun komadanlığında Azərbaycan Ordusu darmadağın etdi və ermənilər təslim oldular. Bundan sonra xocalılılar doğma yer-yurdlarına qayıda bildilər. O vaxtlar erməni havadarları hansı missiyanı yerinə yetirirdilərsə, 1991-1994-cü ilərdə də həmin missiyanı yerinə yetirdilər. Mahiyyət və niyyət eyni idi.

Mərasim ədəbi-bədii kompozisiyalarla davam etdirildi və bütün iştirakçılarda dərin təəssürat yaratdı.

**“Gözün aydın, Azərbaycan” şeirini səsləndirib hər kəsi göz yaşlarına boğan, 187 nömrəli orta məktəbin 8-ci sinif şagirdi Yusif Allahverdiyev söylədi ki, Xocalı faciəsini kinolardan, böyüklərin danışdıqlarından öyrənsə də, orada nələrin baş verdiyini qəlbən hiss edir:**



– Məktəbdə müəllimlərimiz bizə bu haqda həm tarix, həm də ədəbiyyat dərslərində geniş məlumat verirlər. Tarix dərsində dəqiq faktları öyrənsək də, ədəbiyyat dərsində öyrəndiyimiz və şeirlər bu hissləri ifadə etməyə imkan verir. Bu şeiri mənə bədii rəhbərim Reyhanə Kərimova öyrədib. Gələcəkdə mühəndis olmaq istəsəm də, vətənimin ağrılarını və zəfərini hər zaman uca tutacağam.

**Bakı şəhəri 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru Lalə Qəti bildirdi ki, təhsil prosesində uşaqlarda vətənpərvərlik və milli qürur hissi formalaşdırılması prioritetdir:**



– Bu gün Prezident Kitabxanasında keçirilən tədbir hər birimiz üçün çox təsirli və qürurverici oldu. Fəxr edirəm ki, uşaqlarımız şeir, mahnıları və rəqs kompozisiyaları ilə səhnədə yüksək səviyyədə çıxış etdilər.

Qeyd etmək istəyirəm ki, bu uğur təsadüfi deyil. Bu, aylardır və illərdir davam edən zəhmətin nəticəsidir. Mərkəzimizdə keçirilən dərs və məşğələlərdə uşaqlara vətənpərvərlik ruhu aşılanır, onlarda Vətənə sevgi və milli qürur hissi formalaşdırılır. Buna görə də bu gün onlar səhnədə çıxış edərkən sözləri sadəcə oxumurdular, onu ürəkləri ilə yaşayırdılar. Vokal, teatr və milli rəqs dərnəklərimizdə uşaqlarla Vətənimiz, Qarabağımız və milli-mənəvi dəyərlərimiz haqqında mütəmadi söhbətlər aparılır. Hesab edirəm ki, gənclərimizin də milli kimlik şüuru kifayət qədər formalaşır, lakin bu istiqamətdə işlər davamlı və məqsədyönlü şəkildə aparılmalıdır.

Daha sonra işğaldan azad edilmiş yurd yerlərimizə, “Xocalıya qayıdış”ı əks etdirən videoçarx təqdim olundu. Tədbir iştirakçıları nümayiş olunan sərgi və kompozisiyalar vasitəsilə bir daha tariximizin bu qanlı səhifəsini ehtiramla yad etdilər.

***Fidan ƏLİYEVA***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Paytaxtda Xocalı soyqırımının ildönümü ehtiramla yad edildi

**Ötən əsrin faciəsi adlandırılan Xocalı qətliamının 34 illiyi paytaxtın bütün dövlət qurumlarında, şirkətlərdə, elm-təhsil və mədəniyyət müəssisələrində müxtəlif səpkili mərasimlərlə qeyd olunub. Xatırlanıb ki, 1992-ci ildə, Qarabağ müharibəsinin ilk dövründə Xankəndi yaxınlığında yerləşən Xocalı sakinləri erməni və rus hərbçilərinin hücumları nəticəsində kütləvi soyqırımına məruz qalıblar, şəhər yer üzündən silinib.**

## Konstitusiya Məhkəməsi



**"Xocalı faciəsi zamanı insanlara qarşı xüsusi qəddarlıq nümayiş etdirilərək, beynəlxalq humanitar hüququn fundamental prinsipləri kobud şəkildə pozulub". Bu fikirlər Konstitusiya Məhkəməsində təşkil olunan anım tədbirində konkret faktlarla əsaslandırılıb.**

Sədr Fərhad Abdullayev Ulu öndərin o zaman göstərdiyi prinsipial mövqeyin Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ardıcıl dövlət siyasətinin əsasını təşkil etdiyini bildirib. Tədbirdə, həmçinin qeyd edilib ki, Prezident İlham Əliyev tərəfindən Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması, bu cinayətin törədilməsində məsuliyyət daşıyan şəxslərin ifşa olunması, tarixi ədalətin bərpası üzrə ardıcıl və məqsədyönlü fəaliyyət həyata keçirilib. Dövlətimizin uğurlu xarici siyasəti sayəsində bir sıra ölkələr və beynəlxalq təşkilatlar, həmçinin Amerikanın bir çox ştatları Xocalı hadisələrini soyqırımı kimi tanıyır.

Mərasimdə vurğulanıb ki, Xocalı soyqırımı tarixi yaddaş olmaqla yanaşı, gələcək nəsillər üçün hüquqi və mənəvi dərsdir. Bu dərs sülhün, qarşılıqlı hörmətin və beynəlxalq hüququn aliliyinin qorunmasının nə qədər zəruri olduğunu bir daha təsdiq edir.

## Dövlət Sərhəd Xidməti



**Vətənin müdafiəsinin öncül strukturlarından olan Dövlət Sərhəd Xidmətinin rəhbərliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar "Ana harayı" abidəsini ziyarət edib, həmçinin tabe qurumlarda və hərbi hissələrdə silsilə mərasimlər keçirilib.**

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildiyi, 1994-cü ildə məhz Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən fevralın 26-nın Xocalı soyqırımı günü kimi elan edildiyi şəxsi heyətin diqqətinə çatdırılıb.

Bildirilib ki, Ulu öndərin və Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ardıcıl və qətiyyətli siyasəti nəticəsində faciənin beynəlxalq səviyyədə tanınması istiqamətində mühüm işlər görülüb. 44 günlük Vətən müharibəsində şanlı Qələbə qazanılıb, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Xocalı soyqırımı qurbanlarının qisası döyüş meydanında alınaraq tarixi ədalət öz yerini tapıb.

Anım mərasimi çərçivəsində Xocalı soyqırımına həsr olunmuş foto və kitab sərgiləri, faciə şahidlərinin çıxışları əsasında hazırlanmış "Danışır Xocalı" adlı sənədli film nümayiş etdirilib.

## Energetika Nazirliyi



**Faciənin 34-cü ildönümü ilə əlaqədar İqtisadiyyat Nazirliyinin rəhbərliyi Xocalı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər.**

Nazirlikdə keçirilən anım mərasimi "Əsrin faciəsi" haqqında videoçarxın nümayişi ilə başlanıb. Energetika nazirinin müavini Samir Vəliyev mərasimdəki çıxışında 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri tərəfindən törədilmiş cinayətlərdən, uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla dinc əhaliyə qarşı həyata keçirilmiş vəhşiliklərdən və qətllərdən bəhs edib. Faciənin bağışlanmaz cinayət olduğu xüsusi vurğulanıb. Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün atılan addımlar qeyd edilib. Hadisələrin canlı şahidinin - şəhid övladı olan nazirlik əməkdaşının Xocalı faciəsi və Qarabağ müharibəsi ilə bağlı çıxışı dinlənilib.

## Nəsimi rayonu



**"Bu gün Xocalıda ucalan üçrəngli bayrağımız tarixi ədalətin bərpasının rəmzidir". Respublikamızın hər yerində olduğu kimi, Bakı şəhərinin Nəsimi rayonunda keçirilən anım mərasimində də bu fikir bütün çıxışlarda qırmızı xətt kimi keçib.**

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Tahir Budaqov Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verib. Bildirilib ki, faciənin beynəlxalq miqyasda tanıdılması istiqamətində ulu öndər Heydər Əliyevin mühüm xidmətləri olub. Məhz onun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ilk dəfə bu məsələyə siyasi qiymət verilib və faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli işlərə başlanılıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Xocalı faciəsinin ildönümü hər il həm respublikamızda, həm də ölkə hüdudlarından kənarda geniş şəkildə qeyd olunur.

Xüsusi vurğulanıb ki, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi dövlətimizin və xalqımızın iftixar mənbəyinə çevrilib. Bu müharibədə Azərbaycan xalqı milli həmrəyliyini və gücünü bütün dünyaya nümayiş etdirərək 30 ildən artıq işğal altında olan torpaqlarını azad etdi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Hazırkı reallıqlar Xocalıya qayıdış üçün hərtərəfli şərait yaradıb. "Böyük Qayıdış" proqramı çərçivəsində Xocalı şəhərinin bərpası, yaşayış evlərinin və infrastrukturun yenidən qurulması istiqamətində işlər davam etdirilir.

Tədbirdə çıxış edən Xocalı sakinləri Sahibə Şahmuradova, Tacəddin Səfərov və Məlahət Məmmədova onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Səbail rayonu



**Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Səbail Rayon İcra Hakimiyyətində keçirilən anım tədbiri şəhidlərin ruhuna böyük ehtiramın ifadəsi olub.**

Mərasimdə icra başçısının müavini – Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri Kəmalə Həşimova, RİHBA-nın əməkdaşları iştirak ediblər.

Əvvəlcə Xocalı faciəsi qurbanlarının və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Ardınca Xocalı soyqırımı ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbir zamanı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin dinc əhaliyə divan tutduğu, uşaq, qadın və qocalara rəhm etmədikləri, Xocalıda misli görünməmiş qətliam törətdikləri bildirilərək faciənin xalqımızı dərindən yaraladığı, ancaq xalqın milli iradəsini, azadlıq eşqini sarsıda bilmədiyi diqqətə çatdırılıb. Vətən müharibəsində Azərbaycan Ordusunun 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdığı diqqətə çatdırılıb, 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuzun, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə bütün şəhidlərimizin, o cümlədən Xocalı faciəsi qurbanlarının qisasının alındığı və şəhidlərimizin qanının yerdə qalmadığı qeyd edilib.

## Nərimanov rayonu

**Bakı Şəhər Gənclər və İdman İdarəsinin Nərimanov rayonu üzrə gənclər və idman sektorunda 26 fevral - Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar anım tədbirində YAP Nərimanov rayon təşkilatının rəhbərləri, Ağsaqqallar Şurasının üzvləri və ictimai fəallar da iştirak ediblər.**



Xocalı faciəsini özündə əks etdirən videoçarx izlənildikdən sonra çıxışlar olub. Soyqırımının acı nəticələrindən, dünya arenasında Xocalı soyqırımının tanınmasından, ümummilli lider Heydər Əliyev və cənab İlham Əliyevin yürütdüyü siyasətdən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş irimiqyaslı tədbirlərdən danışılıb. Azərbaycan xalqının faciə qurbanlarının əziz xatirəsini daim yad edəcəyi, unutmayacağı vurğulanıb. Rayonda həmçinin Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası təşkil edilib. Ərazi yararsız tullantılardan təmizləyərək burada Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 ədəd yeni ağac əkilib.

## Bakı Dövlət Universiteti



**BDU-da təşkil olunan anım mərasimində rektor Elçin Babayev Xocalı faciəsinin XX əsrin sonlarında insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu deyib.**

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, həmçinin bu faciəyə obyektiv qiymət verilməsi istiqamətində ölkə rəhbərliyinin, həmçinin Heydər Əliyev Fondunun fəaliyyətindən söz açan rektor Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının bu soyqırımının təkcə xalqımıza deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirdiyini qeyd edib.

Mərasimdə Milli Məclisin üzvü, Əməkdar jurnalist Sevil Mikayılova, Milli Məclisin və Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Tural Gəncəliyev, BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri Turqay Hüseynov və Tarix fakültəsinin əslən Xocalıdan olan IV kurs tələbəsi Aysel Quliyeva Azərbaycan tarixinin qanlı səhifələrindən olan Xocalı soyqırımının qurbanlarının unudulmayacağını, artıq Böyük Qayıdışın başladığı Xocalının günbəgün daha da gözəlləşəcəyini, inkişaf edəcəyini bildiriblər.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib.

## Bakı Mühəndislik Universiteti



**BMU-da faciənin 34-cü ildönümü ilə əlaqədar tələbələr üçün silsilə açıq dərslər təşkil olunub.**

Ümumi fənlər kafedrasının müdiri Hümeyrə Mustafayeva, professor Abbas Seyidov, dosent Xaqan Balayev, baş müəllim Elnur Nəciyev və müəllim Ramiz Nəcəflinin keçirdikləri açıq dərslərdə Xocalı faciəsinin tarixi-siyasi mahiyyəti, başvermə səbəbləri və ağır nəticələri faktlar əsasında geniş təhlil edilib.

Xocalı soyqırımının Azərbaycan xalqının tarixi yaddaşında sağalmaz izlər buraxdığını və bu faciənin siyasi-hüquqi qiymətinin beynəlxalq miqyasda tanıdılması istiqamətində ardıcıl fəaliyyətin vacibliyini vurğulayan müəllimlər tarixi həqiqətlərin saxtalaşdırılmasına qarşı elmi arqumentlərlə mübarizə aparmağı, faktlara əsaslanan mövqe ortaya qoymağı xüsusilə gənc nəslin üzərinə düşən mühüm vəzifə kimi önə çəkiblər. Qeyd olunub ki, milli yaddaşın qorunması, şəhidlərin xatirəsinin əziz tutulması və dövlətçilik şüurunun möhkəmləndirilməsi ali təhsil müəssisələrinin prioritet istiqamətlərindən biridir.

Sonra tələbələrin Xocalı hadisələri ilə bağlı hazırladıqları təqdimatlar dinlənilib. Gənclərin vətənpərvərlik ruhunda formalaşmasına, tarixi proseslərə obyektiv yanaşma bacarıqlarının inkişafına xidmət edən açıq dərslər zamanı tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb və müzakirələr aparılıb.

## Bakı Şəhəri üzrə Təhsil İdarəsi



**İdarənin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində Xocalı faciəsinin növbəti ildönümünə silsilə tədbirlərlə yadda qalıb.**

Mərasimlərdə soyqırımı haqqında məlumat verilib, Xocalı faciəsinin Azərbaycanın ictimai-siyasi fikir tarixində əsas yerlərdən birini tutduğu, onun dünyaya tanıdılmasının dövlətimizin daim diqqət mərkəzində olduğu bildirilib. Azərbaycanın ərazi bütövlüyünün və ölkəmizin suverenliyinin tam bərpa edilməsi ilə bütün şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının qanlarının yerdə qalmadığı, Xocalı sakinlərinin artıq öz evlərinə qayıtdığı, Qarabağda gedən quruculuq işlərinin sürətlə davam etdirildiyi şagirdlərin nəzərinə çatdırılıb.

Təhsil müəssisələrinin müəllim və şagird kollektivləri Xocalı soyqırımı abidəsini də ziyarət ediblər.

## Milli İncəsənət Muzeyi



**Azərbaycan Milli İncəsənət Muzeyində Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı təsviri sənətdə" adlı mühazirə dinlənilib.**

Muzeyin şöbə müdiri, sənətşünas Əsəd Quliyevin təqdim etdiyi mühazirədə Xocalı soyqırımının Azərbaycan təsviri sənətində əks olunmasından, mövzuya fərqli bədii yanaşmalardan geniş danışılıb. Nətic qeyd edib ki, muzeyin kolleksiyasında qorunan çoxsaylı rəngkarlıq və qrafika nümunələri tarixi faciənin bədii salnaməsi kimi xüsusi əhəmiyyət daşıyır.

Mərasimdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Yasamal rayon təşkilatının sədri, ehtiyatda olan polkovnik Bəhram Şeydayev çıxış edərək Xocalı həqiqətlərinin təbliğinin vacibliyini vurğulayıb, faciə qurbanlarının xatirəsini yaşadılmasının hər bir vətəndaşın mənəvi borcu olduğunu bildirib.

## Ümumölkə sükut dəqiqəsi



**Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Həmin anda küçələrdə nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayanıb.

Xocalı soyqırımının ildönümü ilə əlaqədar ölkənin paytaxtında, şəhər və rayonlarında, kənd və qəsəbələrində, xaricdəki diplomatik nümayəndəliklərdə Azərbaycanın Dövlət Bayrağı endirilib.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

# Prezident İlham Əliyevin Xocalı manifestindəki 6 məqam

## *Yaxud müstəqil Azərbaycan naminə əzm və qətiyyət çağırışı*



**Prezident İlham Əliyev fevralın 26-da Xocalı Soyqırımı Memorialının açılışı zamanı Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bir sıra məqamlara toxundu. Yazımızda həmin məqamları qruplaşdıracaq, dövlətimizin başçısının düşüncələrinin siyasi və mənəvi strukturu üzərində dayanacaq, həmçinin yekun nəticəyə gələcəyik.**

Birincisi, dövlətimizin başçısı fikirləri ilə 34 il əvvəl yaşanmış vəhşətin qan yaddaşımız olduğunu yada saldı. Ölkəmizin liderinin “Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır” mesajı Azərbaycanın dəhşətli cinayətə görə müqəssirləri məsuliyyətə cəlb etmək prinsipiallığının növbəti dəfə vurğulanmasıdır.

İkincisi, Xocalı dəhşəti dünya ictimaiyyətinin diqqətinə çatdırılmalı, mövcud istiqamətdəki fəaliyyət, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlanmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası sistemliliyini və ardıcıllığını saxlamalı, bütün bu vəzifələrin icrası müstəqil Azərbaycan Respublikasının, habelə cəmiyyətimizin qarşısında dayanan yüksək prioritetlik dərəcəsini qorumalıdır: “Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir”.

Üçüncüsü, Azərbaycan Xocalının qisasını döyüş meydanında alıb. Bu, həm də ilahi ədalətin təntənəsidir. Prezident İlham Əliyev Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsinin Silahlı Qüvvələrimiz tərəfindən məhv edildiyini, bir hissəsinin, xüsusilə separatçıların liderləri sayılan ünsürlərin Azərbaycanın ədalət mühakiməsi qarşısına çıxarıldığını əbəs yerə vurğulamır. Bu, Ermənistandakı revanşist qüvvələrə mesajdır: “Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir”.

Dördüncüsü, Prezident İlham Əliyev Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında gerçəkləşdirdiyi lokal xarakterli antiterror əməliyyatını əbəs yerə xatırlatmır. Məlumdur ki, məhz həmin əməliyyat nəticəsində Qarabağdakı xunta rejimi məhv edildi, işğalçılar ərazilərimizdən qovuldular, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bütün bunlarda da Xocalıya ədalət payının mövcudluğu ayrıca qeyd edilməlidir: “Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi”.

Beşincisi, Memorial Kompleksin məhz Xocalıda açılışı ədalətin təntənəsidir. “Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır”, - deyən Prezident İlham Əliyev keçmişə ekskurs mahiyyəti daşıyan düşüncələri ilə eyni zamanda, müqavimət formalaşdırır, tarixi yaddaşımızı cilalayır və ən başlıcası unutqan olmamaq çağırışı səsləndirir: “Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam”.

Nəhayət, altıncısı, Prezident İlham Əliyev bildirdiyi fikirlərlə tarixin acı dərslərindən nəticə çıxarılmasının vacibliyini yenidən vurğulayaraq, müstəqil, suveren Azərbaycan qarşısında yaşam formulu müəyyənləşdirir. Bu formulda 34 il əvvəlin dünənki günündə baş vermiş Xocalı dəhşətinin bir daha təkrarlanmaması naminə həm son dərəcə ciddi immunitet payı var, həm də torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının müqəddəs ruhlarına ehtiram: “Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın”.

Sonda onu da bildirək ki, Prezident İlham Əliyev hər il fevralın 26-da Xocalı dəhşətini yada salır. Hesab edirik ki, dövlətimizin başçısının hər fikri, eyni zamanda, Azərbaycan dövlətinin strateji kursunun vurğulanmasıdır. Axı Xocalı soyqırımı bizi yalnız üzüntü və sarsıntıya qərq etmədi, eyni zamanda, gələcək gün uğrunda mübarizəyə səslədi. Nəzərə alaq ki, yaşadığımız qlobal dünyada və bu dünyanın tərkib hissəsi olan mürəkkəb coğrafi regionda ayaqda qalmaq, müstəqil dövlət mövcudiyyətini qorumaq naminə mübarizə mütləqdir. Tam əminliklə deyək ki, Prezident İlham Əliyevin Xocalı Soyqırımı Memorialının açılışı zamanı Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə açıqladığı məqamlar həmin mübarizə əzmini yüksək tutmaq naminə qətiyyətli çağırış mahiyyəti daşıdı.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Güclü və ayıq olmalıyıq, gələcəyə inamla baxmalıyıq

## *Yeni faciələr yaşamamağın yolu budur*



**Azərbaycan Prezidentinin fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşündə səsləndirdiyi fikirlər postmüharibə mərhələsinin siyasi-strateji doktrinasının konseptual ifadəsidir: “Əsas odur ki, insanlar artıq burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək. Bunun üçün də hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq”.**

44 günlük Vətən müharibəsində hərbi əməliyyatların uğurla başa çatması regionun geosiyasi arxitekturasında struktur dəyişikliklər yaratdı. Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə Cənubi Qafqazda uzun illər formalaşmış status-kvo dağıldı və yeni güc konfiqurasiyası meydana çıxdı. Lakin müasir beynəlxalq münasibətlər sistemində hərbi qələbə davamlı siyasi mexanizmlərlə və institusional dayaqlarla möhkəmləndirilməzsə, zamanla təsir gücünü itirə bilər. Azərbaycan məhz bu reallığı nəzərə alaraq hərbi üstünlüyü siyasi dayanıqlılığa transformasiya etməyə yönəlmiş davranış modeli formalaşdırır.



Postmüharibə mərhələsində hərbi-strateji konsolidasiya ordunun keyfiyyət mərhələsinə keçididir. Müharibə dövründə tətbiq olunan innovativ taktiki yanaşmalar, yüksək texnologiyalı sistemlərin effektiv istifadəsi və komanda-idarəetmə modelinin çevikliyi artıq institusional səviyyədə möhkəmləndirilir.

Təhlükəsizlik yalnız sərhəd xəttində qurulmur. Onun sosial ölçüsü daha uzunömürlü və strateji xarakter daşıyır. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və məskunlaşma siyasəti, əslində, siyasi dayanıqlılığın sosial təməlini formalaşdırır. İnfrastrukturun qurulması, iqtisadi fəaliyyətin bərpası, müasir yaşayış modellərinin tətbiqi təhlükəsizlik layihəsidir. İnsan öz torpağında təhlükəsiz və perspektivli həyat qurduqda, həmin məkanın sabitliyi institusional xarakter alır. Digər tərəfdən, postmüharibə reallığında diplomatik müstəvi xüsusi əhəmiyyət kəsb edir. Müharibədən sonra yaranmış yeni status-kvo beynəlxalq səviyyədə qəbul və legitimləşmə mərhələsindən keçməlidir.

*

Xocavənddə səsləndirilən fikirlərin mahiyyəti məhz bu çoxqatlı strategiyanın insana yönəlmiş aspektini ortaya qoyur. Müharibədən sonrakı mərhələdə psixoloji təhlükəsizlik ən azı fiziki təhlükəsizlik qədər əhəmiyyətlidir. İnsan öz gələcəyinə əmin olduqda dövlətin yaratdığı siyasi reallıq sosial legitimlik qazanır. “Güclü olmalıyıq” tezisi klassik hərbi üstünlük anlayışından daha geniş semantik məna daşıyır. Müasir beynəlxalq münasibətlər sistemində güc artıq yalnız tank, artilleriya və canlı qüvvə ilə ölçülmür. Güc – siyasi iradənin institusional dayanıqlılığı, informasiya mühitinə nəzarət bacarığı, iqtisadi müqavimət qabiliyyəti və diplomatik manevr imkanlarının sintezidir. İnformasiya müharibəsi, iqtisadi sanksiya alətləri, ideoloji təsir mexanizmləri və diplomatik təzyiq formaları artıq hərbi risklərlə eyni çəkidə strateji faktor kimi çıxış edir.

Azərbaycanın postmüharibə mərhələsində fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, 44 günlük müharibə dövründə formalaşmış çoxsahəli koordinasiya indi institusional modelə çevrilir. Hərbi əməliyyatlar zamanı diplomatik fəallıq, informasiya siyasəti və cəbhə xəttindəki proseslər vahid strateji mərkəzdən idarə olunurdu. Preventiv təhlükəsizlik fəlsəfəsi risklərin formalaşma mərhələsində neytrallaşdırılması prinsipinə söykənir. Silahlı Qüvvələrin innovativ silah sistemləri ilə təchiz edilməsi potensial təhdid mənbələrinə psixoloji və strateji siqnaldır. Yüksək texnologiyalı müdafiə sistemləri və dəqiq zərbə imkanları deterrensiya effektini gücləndirərək münaqişə ehtimalını minimuma endirir.

*

Cənubi Qafqaz tarixən böyük güclərin maraqlarının toqquşduğu məkan olub, lakin hazırkı mərhələdə bu rəqabət daha mürəkkəb və çoxqatlı xarakter alıb. Qlobal sistemdə artan fraqmentasiya, Qərb–Rusiya qarşıdurmasının dərinləşməsi, Çin faktorunun yüksəlişi və Yaxın Şərqdə qeyri-sabitliyin davam etməsi regionu geosiyasi təsir meydanına çevirir. Belə bir mühitdə “ayıq olmalıyıq” çağırışı rasional realizmin ifadəsidir. Realizm nəzəriyyəsinin əsas tezisi ondan ibarətdir ki, beynəlxalq sistem anarxikdir və hər dövlət öz təhlükəsizliyini, ilk növbədə, özü təmin etməlidir. Azərbaycan postmüharibə mərhələsində məhz bu prinsipə əsaslanır. Qələbədən sonra maksimalist ritorikaya və ya emosional üstünlük nümayişinə meyil göstərməmək, əksinə, ölçülmüş və hesablanmış siyasət yürütmək regional sabitliyin qorunması baxımından strateji seçimdir.

Ayıqlıq, ilk növbədə, diplomatik manevr imkanlarının geniş saxlanılması deməkdir. Çoxvektorlu diplomatiya strateji zərurətdir. Qərb institutları ilə əməkdaşlığın davam etdirilməsi, Türkiyə ilə müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi, Rusiya ilə praqmatik dialoqun qorunması və Mərkəzi Asiya ilə inteqrasiyanın genişləndirilməsi paralel şəkildə həyata keçirilir.

*

Tarixi yaddaş hər bir xalq üçün təhlükəsizlik siyasətinin dərin psixoloji dayağıdır. Dövlətlər kollektiv xatirə üzərində formalaşır. Keçmişdə yaşanan faciələr, işğal təcrübəsi, məcburi köçkünlük və itkilər milli şüurun formalaşmasında həlledici rol oynayır. Keçmiş faciələri xatırlamaq kollektiv immunitet mexanizmidir. Necə ki, bioloji immunitet orqanizmi potensial təhlükələrə qarşı tanıma və reaksiya qabiliyyəti ilə təmin edir, tarixi yaddaş da cəmiyyətin təhlükə siqnallarını vaxtında dərk etməsinə şərait yaradır. Tarixdən çıxarılan dərslər dövlət davranışında refleksiv mexanizm formalaşdırır – hansı risklərin real olduğunu, hansı geosiyasi proseslərin potensial təhdid yarada biləcəyini ayırd etməyə imkan verir.

Xocavənddə səsləndirilən mesajın məğzi məhz bu balansın qorunmasındadır. Keçmişi unutmaq təhlükəsizlik boşluğu yaradar, çünki unutqanlıq strateji sadəlövhlük doğura bilər. Tarixi təcrübə nəzərə alınmadıqda, eyni səhvlərin təkrarlanma ehtimalı artır. Digər tərəfdən, keçmişə qapanmaq və onu siyasi davranışın yeganə motivinə çevirmək də inkişafı ləngidər. Dövlət yalnız travmatik xatirə üzərində siyasət qurduqda gələcək perspektivlər daralır və rasional qərarvermə emosional reaksiyalarla əvəzlənə bilər.

Azərbaycanın seçdiyi model isə tarixi şüurun gələcək strategiyaya inteqrasiyasıdır. Tarixi təcrübə təhlükəsizlik konsepsiyasının formalaşmasında, müdafiə strategiyasının qurulmasında və diplomatik davranışın kalibrlənməsində nəzərə alınır. Keçmişdə yaşananlar dövlətin qərarvermə instinktini daha rasional və ehtiyatlı edir.

Tarixi yaddaşın institusionallaşdırılması da mühüm amildir. Təhsil siyasəti, ictimai diskurs, memorial mədəniyyət və beynəlxalq müstəvidə həqiqətlərin ardıcıl şəkildə çatdırılması milli mövqenin möhkəmlənməsinə xidmət edir. Çünki tarixi həqiqətlərin sistemli təqdimatı informasiya mühitində yanlış narrativlərin qarşısını alır.

*

Postmüharibə mərhələsində ən mürəkkəb məsələ psixoloji mühitin bərpasıdır. Müharibədən çıxmış cəmiyyət üçün inam faktoru siyasi sabitliyin əsas dayağına çevrilir. Strateji optimizm yalnız real resurslara, planlaşdırılmış siyasətə və icra olunan layihələrə söykəndikdə davamlı olur. Əks halda, inam tez bir zamanda gözləntilərin böhranına çevrilə bilər.

Azərbaycanın postmüharibə strategiyasında gələcəyə inam konkret fəaliyyətlərlə əsaslandırılır. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri dövlət iradəsinin nümayişidir. İnfrastrukturun – yolların, enerji xətlərinin, sosial obyektlərin – sürətli bərpası göstərir ki, qələbə simvolik deyil, funksional xarakter daşıyır. Torpaq üzərində suverenliyin təsdiqi onun iqtisadi və sosial həyatla doldurulması ilə tamamlanır.

“Ağıllı şəhər” və “ağıllı kənd” modellərinin tətbiqi isə daha dərin strateji mesaj verir. Rəqəmsal idarəetmə, dayanıqlı enerji həlləri və innovativ kənd təsərrüfatı modelləri göstərir ki, azad edilmiş ərazilər keçmişin travmatik məkanı kimi deyil, gələcəyin modern platforması kimi düşünülür.

Yeni iqtisadi zonaların formalaşdırılması və investisiya mühitinin təşviqi gələcəyə inamın iqtisadi sütunudur. İş yerlərinin yaradılması, sahibkarlıq təşəbbüslərinin stimullaşdırılması və regional istehsal zəncirlərinin qurulması sosial sabitliyi möhkəmləndirir. Çünki iqtisadi rifah və sosial təminat təhlükəsizliyin ayrılmaz tərkib hissəsidir. İnsan öz gələcəyini konkret iqtisadi imkanlar üzərində qurduqda dövlətlə vətəndaş arasında etimad güclənir.

Regional kommunikasiyaların açılması perspektivi isə bu inamı milli çərçivədən geoiqtisadi müstəviyə daşıyır. Nəqliyyat dəhlizlərinin genişlənməsi, tranzit imkanlarının artması və regionun inteqrasiya məkanına çevrilməsi Azərbaycanın uzunmüddətli inkişaf modelini möhkəmləndirir.

Son olaraq qeyd edək ki, postmüharibə mərhələsində dövlətlərin ən böyük sınaqlarından biri qələbənin psixologiyasını düzgün idarə etməkdir. Tarix göstərir ki, hərbi üstünlük qazanan tərəf bəzən “qalib sindromu”nun təsiri altına düşərək emosional və maksimalist siyasət yürütməyə meyil göstərir. Azərbaycanın seçdiyi xətt isə fərqlidir: biz məsuliyyətli güc konsepsiyasına əsaslanırıq. Dövlət davranışında revanşist ritorikadan uzaq durulması, beynəlxalq hüququn prinsiplərinə istinadın davam etdirilməsi və regional əməkdaşlıq platformalarına açıq mövqe sərgilənməsi göstərir ki, məqsədimiz davamlı sabitlikdir.

***Şəbnəm ZEYNALOVA ,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qazaxıstanın yeni idarəçilik modeli

*(əvvəli 1-ci səhifədə)*



Mərkəzi Seçki Komissiyasının həyata keçirəcəyi hazırlıq prosesləri operativliklə, dünyanın ən qabaqcıl texnoloji tələblərinə cavab verən mexanizmlərlə icra olunur. İstər iri şəhərlərdə, istərsə ucqar kəndlərdə yaradılmış məntəqələr vətəndaşın prosesdə rahat iştirakını təmin edəcək quruluşa malikdir. Beynəlxalq müşahidə missiyalarının, eləcə də yerli QHT-lərin prosesi nəzarətdə saxlaması legitimliyin ali dərəcəsini yaradır. Məhz yüksək hüquqi etibarlılıq xarici siyasət masasında rəsmi Astananın əlini son dərəcə qüvvətləndirəcək əsas faktordur. Cəmiyyət rəhbərliyin təklif etdiyi mütərəqqi normaları müzakirəyə qoyur, sosial-iqtisadi ədalətin bərqərar olunmasına doğru addımlayır.

Məlum qlobal gedişatlar fonunda Qazaxıstanın yaxın tərəfdaşları ilə yaratdığı münasibətlər fərqli strateji əhəmiyyət kəsb etməyə başlayır. Mövcud vəziyyət bilavasitə Azərbaycanın geosiyasi maraqları ilə uyğunluq təşkil edir. İki güclü dövlətin ittifaqı Xəzər hövzəsinin, eləcə də Avrasiya materikinin əsas təhlükəsizlik təməlinə çevrilib. Rəsmi Bakı uzaqgörən xarici siyasəti ilə daim Astananın inkişafına dəstək verib. Qardaş ölkədə atılan mütərəqqi addımlar Xəzərin qərb sahilində coşqu ilə qarşılanır. Bakı ilə Astana, sadəcə, iqtisadi tərəfdaş deyil, onlar ortaq etnik, tarixi, mədəni köklərə sahib qan qardaşlarıdırlar. Müasir reallıqlar iki dövlətin ticarət dövriyyəsini dəfələrlə artırmağa tam şərait yaradır. Hüquqi sistemlərin, gömrük qanunvericiliklərinin sinxronlaşdırılması məqsədilə təqdim olunan təşəbbüslər praktik nəticələrlə müşayiət olunur. Liman infrastrukturunun yenilənməsi, trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun fəaliyyətinin maksimallaşdırılması qlobal ticarətin mərkəzini məhz qeyd olunan istiqamətə yönəldib. Azərbaycan Dövlət Neft Şirkəti Qazaxıstanın tranzit neftinin dünya bazarlarına çıxarılmasında olduqca mühüm funksiya icra edir. Eyni zamanda, iki dövlət "yaşıl enerji" keçidi məsələlərində mütəşəkkil proqramlar həyata keçirirlər. Güclənmiş, demokratik idarəetməyə tam sahib Astananın varlığı rəsmi Bakı üçün xüsusi qüvvətdir.

Güclü dövlət güclü beynəlxalq koalisiyalar yaradır. Bu məqamda məsələni Türk Dövlətləri Təşkilatının (TDT) perspektivləri kontekstində dərindən bilmək labüddür. TDT sürətlə inkişaf edərək, dünyada hökm sürən siyasi qütbləşmə şəraitində alternativ güc mərkəzi kimi parlamaqdadır. Astananın keçirəcəyi tarixi səsvermə məhz təşkilatın daxili strukturunun təkamülünə müsbət təsir göstərəcək. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, eləcə də Qırğızıstan arasında qurulmuş qardaşlıq telləri institusional müstəviyə köçürülüb. TDT çərçivəsində tətbiq olunacaq ortaq standartlar, iqtisadi asanlaşdırma prinsipləri, vahid rəqəmsal məkan ideyası qısa zamanda gerçəkləşəcək. Qazaxıstanda mülkiyyət toxunulmazlığının, qanun qarşısında bərabərliyin tam təminatı digər türk qardaşlarının ölkəyə edəcəyi çoxmilyardlıq investisiyaların həcmini xeyli böyüdəcək. Vahid türk kəməri Şimaldan Cənuba, Şərqdən Qərbə hərəkət edən nəqliyyat logistikasının qan-damar sistemini formalaşdırır. Təşkilat artıq, sadəcə, mədəni layihələr ətrafında toplanan forum xarakterindən uzaqlaşıb. Müasir türk inteqrasiyası hərbi, kəşfiyyat, kiber-təhlükəsizlik sferalarını mükəmməl şəkildə ehtiva edən fövqəldövlət statusuna namizəd bloka çevrilir.

Sözügedən beynəlxalq, o cümlədən regional əlaqələrin möhtəşəm inkişaf tablosu fonunda Ermənistan məsələsini fərqli bucaq altından qeyd etməliyik. Mərkəzi Asiyanın, eyni zamanda, Cənubi Qafqazın nəhəng tranzit qovşağına çevrildiyi epoxada rəsmi İrəvan hələ də tarixi illüziyalarla yaşayır. Qonşularına qarşı bitmək bilməyən ərazi iddiaları irəli sürərək dövlətçilik fəlsəfəsini şovinizm üzərində quran rəhbərlik əhalisini mütləq uçuruma aparır. Xarici dairələrin, xüsusən Fransanın yalançı təbliğatına aldanaraq regionda vəziyyəti süni şəkildə gərginləşdirən erməni elitası bu reallıqları dərk etməkdə acizdir. Azərbaycanın hər cəbhədə əldə etdiyi uğurlar qarşısında baş əyməyə məcbur qalan tərəf mütləq reallıqla barışmalıdır. Qazaxıstan kimi iqtisadi, həmçinin siyasi qüdrətə malik ölkələrin qətiyyətli yüksəlişi Azərbaycanın mövqeyini də möhkəmləndirir. TDT çərçivəsində birləşən müttəfiqlərin heç vaxt İrəvanın şıltaqlıqlarına dözmək niyyətləri yoxdur.

TDT çərçivəsində möhkəmlənən mədəni, eyni zamanda, təhsil sahəsindəki layihələrə toxunmadan mənzərəni tamamlamaq olmaz. Konstitusiya dəyişiklikləri yaradıcı intellektual mühitin formalaşmasını özündə ehtiva edir. Türk Akademiyasının, eləcə də Türk Mədəniyyəti Təşkilatının inkişaf strategiyaları üçün qüvvətli zəmin yaranır. Tələbə mübadilə proqramları vasitəsilə minlərlə qazax gənci Azərbaycan universitetlərində, minlərlə azərbaycanlı gənc Qazaxıstanın texnoloji mərkəzlərində elmi–tədqiqatlar aparacaqlar. Təhsil ocaqlarında ortaq tarix, ortaq dilin qorunması məqsədilə keçirilən fənlər cəmiyyətlərin mənəvi bağlarını artırır.

Məsələni qlobal hərbi-siyasi reallıqlarla müqayisəli şəkildə dəyərləndirərkən yenidən Cənubi Qafqazın spesifikasını, sülh quruculuğunun qarşısında duran maneələri unutmamalıyıq. Əvvəldə vurğuladığımız kimi, İrəvan hökuməti tarixi səhvlər girdabından çıxa bilmir. Revanşist qüvvələrin daxili siyasətdəki təxribatları bütövlükdə cəmiyyətin həyatını rəzil vəziyyətə salıb. Silahlanma yarışına girərək bəzi Qərb mərkəzlərindən hərbi texnika alan İrəvanla yanaşı, regional sabitliyi pozmağa cəhd edən dairələr unudurlar ki, qarşılarında müasir, mütəşəkkil orduya malik dövlət dayanır. Arxasında türk qardaşlığının möhtəşəm iradəsi duran Bakı hər cür təxribata dərhal cavab verməyə qadirdir. Astananın referendum vasitəsilə TDT-ni daha da cəmləməsi İrəvanın son ümidlərini də məhv edir. Azərbaycan dövləti tam ədalətli, beynəlxalq prinsiplərə arxalanan sülh şərtlərini təqdim edib. Son şərti Ermənistan konstitusiyasındakı ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən bəyannaməyə istinadın aradan qaldırılmasıdır. Martın 15-də Qazaxıstanın keçəcəyi yenilənmiş dövlət modeli Ermənistan üçün nümunə və dərs olmalıdır.

Tarix sübut edir ki, böyük xalqlar çətin sınaqlardan daim qələbə ilə ayrılırlar. Qazaxıstan cəmiyyəti qarşıdan gələn səsvermə ilə keçmişin səhvlərinə həmişəlik nöqtə qoyacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Avropa İttifaqı Gürcüstandan əl çəkmir



*(əvvəli 1-ci səhifədə)*

Bu gərginlik fonunda Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsində Gürcüstanla bağlı hesabatın müzakirəyə çıxarılması vəziyyəti daha da mürəkkəbləşdirib. Sənəd faktiki olaraq Gürcüstan hakimiyyətinin atdığı addımlara qarşı ittihamnamə xarakteri daşıyır. Hesabatda diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimin ləğvini bir nailiyyət və Aİ-nin prinsipial mövqeyinin nümayişi kimi qiymətləndirilib. Gürcüstanın Baş naziri İrakli Kobaxidze sənədin obyektivliyini kəskin şübhə altına alaraq bildirib ki, bu cür hesabatlar milli maraqlara təzyiq göstərmək məqsədi daşıyır və heç bir xarici təzyiq ölkənin daxili sabitliyini və milli kimliyi qorumaq əzmini qıra bilməyəcək.

Qərblə Gürcüstan iqtidarı arasında yaranmış dərin fikir ayrılıqlarının kökündə bir neçə fundamental məsələ dayanır. Bunlardan birincisi, "Xarici təsirin şəffaflığı haqqında" qanundur. Rəsmi Tbilisi bu qanunu ölkənin daxili siyasi mühitini xarici maliyyə axınlarının şəffaflaşdırılması vasitəsilə qorumaq üçün zəruri hesab edir. Lakin Brüssel və Vaşinqton bunu vətəndaş cəmiyyətinin sıxışdırılması kimi qələmə verir. İkinci mühüm məqam isə "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanunvericilik paketidir. Gürcüstan tərəfi bu sənədin cəmiyyətin ənənəvi əxlaq sütunlarını qoruduğunu vurğulayır. Aİ isə hesab edir ki, sözügedən qanunlar vətəndaş cəmiyyətinin fəaliyyət mühitini məhdudlaşdırır və insan hüquqları ilə bağlı öhdəliklərlə ziddiyyət təşkil edir.

Avroparlament, həmçinin Tbilisinin Rusiya, Belarus və İrana qarşı sanksiyaların böyük əksəriyyətinə qoşulmadığına görə vizasız rejimin dayandırılması kimi sərt tədbirlərə əl atır. Şübhəsiz ki, Gürcüstan üçün qərarın birbaşa təsiri diplomatik fəaliyyətin operativliyinə yönəlib. Qərar Aİ institutları ilə gündəlik iş tempinə təsir göstərə və Gürcüstanın Avropa paytaxtlarında fəallığını məhdudlaşdıra bilər. Daha önəmlisi Aİ-nin bu addımı ölkənin beynəlxalq imicinə təsir edir.

Bununla belə, hazırkı şəraitdə Gürcüstan hakimiyyəti üçün prioritet viza imtiyazları və ya diplomatik rahatlıq deyil, ölkədə sülhün, milli təhlükəsizliyin və daxili sabitliyin qorunmasıdır. Baş nazir İrakli Kobaxidze də vurğulayıb ki, vizasız rejimin məhdudlaşdırılması Gürcüstan üçün təhlükə deyil. Onun fikrincə, bir dövlətin suverenliyi hər hansı texniki prosedurlardan, viza sərbəstliyindən qat-qat üstündür. Hakimiyyət nümayəndələri, o cümlədən "Gürcü arzusu" partiyasının deputatları qeyd edirlər ki, diplomatların viza növbəsinə dayanması dövlət idarəçiliyinə və beynəlxalq əlaqələrə heç bir real maneə törətməyəcək. Çünki rəsmi şəxslər artıq bir müddətdir ki, Avropa paytaxtlarına səfərlərini adi viza qaydaları ilə həyata keçirirlər. Bu baxımdan, Aİ-nin qərarı daha çox simvolik xarakter daşıyır və Gürcüstanın dövlət maşınını dayandırmaq gücündə deyil.

Aİ-nin bu addımı ilk baxışda yalnız siyasi elitanı hədəf alsa da, məsələnin sosial-iqtisadi tərəfləri də diqqətdən qaçmamalıdır. Hazırda tətbiq olunan məhdudiyyətlər yalnız diplomatik pasport sahiblərinə şamil edilir, sıravi vətəndaşlar isə hələ də vizasız səyahət imkanından yararlanırlar. Lakin Brüsselin mesajı ondan ibarətdir ki, əgər Gürcüstan rəhbərliyi öz siyasi kursunda dəyişiklik etməsə, gələcəkdə bütün vətəndaşları əhatə edən daha geniş məhdudiyyətlər gündəmə gələcək. Bu isə iqtisadi baxımdan riskli ssenaridir. Aİ Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir və ölkənin infrastruktur layihələrinə, institusional islahatlarına ciddi maliyyə dəstəyi verir. Münasibətlərin tamamilə qırılması Gürcüstanın uzunmüddətli iqtisadi inkişaf templərinə təsir göstərə bilər. Buna baxmayaraq, rəsmi Tbilisi hesab edir ki, milli maraqlar naminə bu cür riskləri idarə etmək və alternativ iqtisadi tərəfdaşlıqları inkişaf etdirmək mümkündür.

Aydındır ki, diplomatik pasportlara vizasız rejimin dayandırılması Gürcüstanın xarici siyasətində müəyyən inzibati yük yaradacaq. Xarici siyasət çox zaman çeviklik və sürətli reaksiya tələb edir. Viza prosedurları bu çevikliyi müəyyən qədər azalda bilsə də, Gürcüstan diplomatları beynəlxalq platformalarda ölkənin maraqlarını müdafiə etməyə davam edəcəklər. Rəsmi Tbilisi bəyan edib ki, ölkə Aİ qarşısında vizasız rejimlə bağlı bütün texniki və hüquqi öhdəliklərini tam yerinə yetirib. Buna görə də viza rejiminin dayandırılması üçün heç bir obyektiv hüquqi əsas yoxdur. Bu addım yalnız Gürcüstanın öz müstəqil yolunu seçməsinə qarşı bir cəza tədbiri kimi görünür. Daha önəmlisi odur ki, bu cür qərarlar beynəlxalq imic məsələsində siyasi geriləmə təəssüratı yaratsa da, hakimiyyət bunu daxili auditoriya qarşısında milli qürur və müstəqillik dərsi kimi təqdim edir.

İki gün sonra qüvvəyə minəcək bu qərar Gürcüstan üçün həm beynəlxalq nüfuz, həm də strateji istiqamət baxımından ciddi sınaqdır. Rəsmi Tbilisi Avropa ilə körpüləri tamamilə yandırmaq niyyətində deyil, lakin bu tərəfdaşlığın yalnız qarşılıqlı hörmət və daxili işlərinə müdaxilə edilməməsi şərti ilə davam edə biləcəyini vurğulayır. Gürcüstan cəmiyyətinin Avropa inteqrasiyası ilə bağlı gözləntiləri yüksək olsa da, hökumət bu inteqrasiyanın milli maraqların və ənənəvi dəyərlərin qurban verilməsi hesabına baş verməyəcəyini qətiyyətlə bildirir.

O ki qaldı vizasız rejimin ləğvinin vətəndaşlara tətbiqinə – hakimiyyət



bunda da təhlükə görmür. Bu barədə **gürcüstanlı siyasi icmalçı Vüqar İsayev** bildirdi ki, əgər ölkə daxilində dayanıqlı iqtisadi artım, yeni iş yerlərinin yaradılması və sosial rifahın yüksəldilməsi davamlı xarakter alarsa, vətəndaşların xaricdə, xüsusilə də qeyri-leqal əsaslarla işləməyə marağı təbii şəkildə azalacaq: "On illərdə ölkənin iqtisadi göstəricilərində müşahidə olunan artım tendensiyası vəziyyəti tədricən dəyişir. Gürcüstanın iqtisadi inkişaf tempi bir sıra hallarda Avropa ölkələrinin orta göstəricilərini üstələyib, əməkhaqları artırılıb və işsizlik səviyyəsinin azaldılması istiqamətində ciddi addımlar atılıb. Bu isə xaricə əmək miqrasiyasına marağı müəyyən qədər zəifl ədəcək".

Ekspertin fikrincə, əgər ölkə daxilində dayanıqlı iqtisadi artım, yeni iş yerlərinin yaradılması və sosial rifahın yüksəldilməsi davamlı xarakter alarsa, vətəndaşların xaricdə, xüsusilə də qeyri-leqal əsaslarla işləməyə marağı təbii şəkildə azalacaq. Bu isə vizasız rejimlə bağlı risklərin də minimuma enməsinə gətirib çıxaracaq.

Ümumiyyətlə, Gürcüstan və Aİ arasındakı vizasız rejimin dayandırılması qərarı Tbilisini öz strateji prioritetlərini yenidən nəzərdən keçirməyə məcbur etmir, əksinə, ölkə rəhbərliyinin suverenlik doktrinasını daha da möhkəmləndirir. Qarşıdakı dövr Brüssellə Tbilisinin bir-birinə hansı şərtlərlə yaxınlaşacağını və ya bu siyasi təcridin nə qədər davam edəcəyini göstərəcək. Gürcüstan üçün bu mərhələ, xarici şantaj və təzyiqlər qarşısında milli iradənin sınandığı bir dövrdür. Ölkənin gələcəyi isə bu iradənin nə dərəcədə sarsılmaz qalacağından və xarici tərəfdaşlarla bərabərhüquqlu dialoqun hansı səviyyədə bərpa ediləcəyindən asılı olacaq. Çünki strateji maraqlar hər zaman ani siyasi konyunkturadan daha mühüm və qalıcıdır.

***P.ƏFƏNDİ***
***XQ***

# Praqmatik siyasət və strateji maraqlar

*(əvvəli 1-ci səhifədə)*

Görüşlərdə enerji təhlükəsizliyi, regional proseslər, Avropa strukturları ilə inteqrasiya və iqtisadi əməkdaşlıq məsələləri əsas müzakirə mövzularıdır. Almaniya tərəfdən də mütəmadi səfərlər həyata keçirilir. Bu xüsusda Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ötən ilin aprelində Azərbaycana rəsmi səfərini xatırlatmaq yerinə düşər. Həmin səfər iki ölkə arasında siyasi dialoqun yeni mərhələyə keçdiyini nümayiş etdirməklə yanaşı, regional təhlükəsizlik, postmünaqişə dövründə sülh prosesi və enerji əməkdaşlığı əsas müzakirə istiqamətlərini müəyyənləşdirdi. Ştaynmayerin səfəri, eyni zamanda, rəsmi Berlinin Cənubi Qafqazda sabitliyə verdiyi əhəmiyyəti və Azərbaycanla münasibətləri strateji çərçivədə qiymətləndirdiyini göstərdi.

Müasir dövrdə enerji sahəsi münasibətlərin strateji sütununu təşkil edir. Azərbaycan Xəzər hövzəsinin mühüm enerji istehsalçısı kimi Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır. "Qoca qitə"də enerji mənbələrinin şaxələndirilməsi siyasəti fo-





nunda Azərbaycan qazının Avropa bazarına çıxışı xüsusi aktuallıq qazanıb. Almaniya birbaşa əsas nəqliyyat marşrutunun son nöqtəsində yerləşməsə də, Avropa enerji sisteminin inteqrasiya olunmuş strukturu səbəbindən alternativ mənbələrin artması Berlin üçün də strateji əhəmiyyət daşıyır. Son illərdə əməkdaşlıq çərçivəsində "yaşıl enerji" və hidrogen texnologiyaları istiqamətində müzakirələr aparılır. Xəzər dənizində külək enerjisi potensialının Avropa bazarlarına inteqrasiyası perspektivi Almaniya üçün maraq doğuran istiqamətlərdəndir.

Azərbaycan–Almaniya münasibətləri Avropa İttifaqı çərçivəsində də mühüm siyasi kontekstə malikdir. Aİ daxilində aparıcı mövqedə olan Berlin bu əməkdaşlığın formalaşmasında təsirli rol oynayır. Yeni tərəfdaşlıq sazişi üzrə danışıqlar, enerji memorandumu və regional təhlükəsizlik məsələləri Almaniyanın siyasi yanaşmasının mühüm elementləridir. Rəsmi Berlin praqmatik iqtisadi maraqlarla normativ gündəmi balanslaşdırmağa çalışır. İnsan hüquqları və idarəetmə məsələləri zaman-zaman gündəmə gətirilsə də, enerji və regional sabitlik faktorları münasibətlərin əsas strateji xəttini müəyyənləşdirir.

İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbədən sonra Cənubi Qafqazda yaranmış yeni reallıq Almaniyanın regiona baxışında da dəyişiklik yaradıb. Berlin postmünaqişə mərhələsində sülh danışıqlarını və kommunikasiyaların açılmasını dəstəklədiyini bəyan edir. Berlin üçün regionda sabitlik Avropa təhlükəsizlik arxitekturasının möhkəmlənməsi baxımından vacibdir. Azərbaycan isə öz növbəsində, nəqliyyat və logistika marşrutlarının inkişafını strateji prioritet kimi müəyyənləşdirərək Avropa ilə Asiya arasında alternativ ticarət xətləri formalaşdırmağa çalışır. Proses Almaniyanın ixracyönümlü iqtisadiyyatı üçün də yeni imkanlar yaradır.

İqtisadi münasibətlər də siyasi əməkdaşlığın praktik dayağını təşkil edir. Almaniya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olaraq qalır. Alman şirkətləri sənaye, infrastruktur, maşınqayırma və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərir. Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı Almaniya ilə texnologiya transferi və innovasiya əməkdaşlığı üçün geniş imkanlar açır. Rəqəmsal transformasiya, sənaye modernləşməsi və peşə təhsili sahəsində əməkdaşlıq siyasi əlaqələrin institusional əsaslarını gücləndirir.

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov fevralın 25-də Almaniya Federativ Respublikasına səfər edib. Səfər çərçivəsində, o, Bundestaqda və Almaniyanın Xarici İşlər Nazirliyində bir sıra görüşlər keçirib. Müzakirələr zamanı Bakı–Berlin münasibətlərinin mövcud vəziyyəti təhlil olunub, siyasi dialoqun intensivləşdirilməsi və əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi imkanları nəzərdən keçirilib. Görüşlərdə Cənubi Qafqazda davamlı sülhün təminatı, sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın irəli sürdüyü təşəbbüslər ətraflı şəkildə təqdim olunub. Eyni zamanda, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesi və postmünaqişə mərhələsində aparılan diplomatik səylər barədə fikir mübadiləsi aparılıb.

Belə bir sual yaranır ki, Almaniya Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına nə kimi töhfələr verə bilər?



**Politoloq Züriyyə Qarayeva** hesab edir ki, Almaniya Azərbaycan–Ermənistan normallaşma prosesində birbaşa vasitəçi rolunda çıxış etməsə də, Avropa diplomatiyasının aparıcı aktoru kimi texniki ekspertiza, hüquqi çərçivələrin hazırlanması və etimad quruculuğu mexanizmləri sahəsində töhfə verə bilər: "Xüsusilə sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və postmünaqişə reinteqrasiyası kimi həssas məsələlərdə Almaniyanın federal idarəetmə və münaqişədən sonrakı Avropa modelinə dair tarixi təcrübəsi praktik dəyər daşıyır. Berlin üçün əsas prioritet Cənubi Qafqazda sabitliyin təmin olunmasıdır, çünki bu, həm enerji təhlükəsizliyi, həm də Orta Dəhliz kimi alternativ nəqliyyat marşrutlarının davamlılığı baxımından strateji əhəmiyyət kəsb edir".

Politoloq, həmçinin qeyd edir ki, Almaniya Avropa Birliyi daxilində aparıcı iqtisadi və siyasi mərkəzlərdən biri kimi Azərbaycanın Birliklə münasibətlərində balanslaşdırıcı rol oynayır: "Enerji sahəsində əməkdaşlıq, xüsusilə qaz təchizatı və "yaşıl enerji" keçidi istiqamətində tərəfdaşlıq, Bakının Aİ üçün etibarlı tərəfdaş imicini gücləndirir. Berlinin praqmatik xarici siyasət xətti insan hüquqları və normativ gündəmlə yanaşı, real sektor əməkdaşlığını da ön plana çəkir və bu yanaşma Azərbaycan üçün Brüssellə dialoqda daha rasional mühit formalaşdırır. Belə olan halda, Almaniya həm normallaşma prosesinə dolayı sabitləşdirici təsir göstərir, həm də Azərbaycanın Aİ məkanında funksional və enerji baxımından əhəmiyyətini artıran əsas paytaxtlardan biri kimi çıxış edir".

Sonda qeyd edək ki, Azərbaycan–Almaniya münasibətlərinin gələcəyi qarşılıqlı maraqların uzlaşdırılması, regional sabitliyin qorunması və Avropa ilə əməkdaşlığın dərinləşdirilməsi fonunda müsbət qiymətləndirilir. Mövcud potensial münasibətlərin daha strateji və sistemli xarakter almasına real zəmin yaradır. Yaxın perspektivdə siyasi dialoqun daha da intensivləşməsi və Aİ–Azərbaycan tərəfdaşlıq mexanizmlərinin güclənməsi gözlənilir.

***Nəzrin ELDARQIZI***
***XQ***

I Türkoloji Qurultay – 100

# Bakı Türkoloji Qurultayının tarixi dərsləri və gələcəyə yönəlik ideyaları

## *Müsahibimiz AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir*



**I Türkoloji Qurultay 100 il əvvəl Türk dünyasının elmi və mədəni birliyinin formalaşmasında mühüm rol oynamışdır. Bu tarixi hadisə yalnız o dövrün akademik dairələri üçün deyil, gələcək nəsillər üçün də strateji dərslər vermişdir. Qurultay ortaq dil, əlifba, ədəbi-mədəni əməkdaşlıq və elmi həmrəylik prinsiplərini irəli sürərək türk xalqlarının birliyini möhkəmləndirəcək zəmin yaratmışdır. 100 ildən sonra I Türkoloji Qurultayın ideyaları yeni məzmun və perspektiv qazanmışdır.**

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli ilə söhbətimiz bu barədədir. Onunla Qurultayın dərsləri, müasir dövrdə aktuallığı və Türk dünyasının gələcəyinə verdiyi töhfələri müzakirə etdik. Bu müsahibə həm də Türkoloji irsin qorunması və gənc nəsillərə çatdırılması istiqamətində yeni bir yol xəritəsi təqdim edir.**

***– İsa müəllim, elmi-mədəni ictimaiyyət Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini 1 əsrdən sonra necə dəyərləndirir?***

– Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyəti 100 il sonra daha aydın və daha dərindən görünür. Çünki zaman keçdikcə bu mötəbər elmi toplantının yalnız öz dövrü üçün deyil, bütövlükdə Türk dünyasının gələcək inkişafı üçün strateji əhəmiyyət daşıdığı təsdiqlənmişdir.

Əvvəla, Qurultay türk xalqlarının elmi düşüncə tarixində ilk böyük miqyaslı beynəlxalq platforma idi. Burada dil, əlifba, ədəbiyyat, folklor, tarix və etnoqrafiya məsələləri sistemli şəkildə müzakirə olunmuş, türkologiya müstəqil elmi istiqamət kimi formalaşmışdır. Bu baxımdan Qurultay elmi koordinasiyanın və ortaq intellektual məkanın başlanğıcı olmuşdur.

İkincisi, Qurultay milli özünüdərk prosesini gücləndirmişdir. XX əsrin əvvəllərində mürəkkəb ictimai-siyasi şəraitdə keçirilən toplantı türk xalqlarının ortaq köklərə, dil ailəsinə və mədəni dəyərlərə malik olduğunu elmi əsaslarla ortaya qoymuşdur. Bu, milli kimliyin möhkəmlənməsi baxımından mühüm mərhələ idi.

Üçüncüsü, latın qrafikalı əlifbaya keçid məsələsinin müzakirəsi və bu istiqamətdə qəbul edilən qərarlar sonrakı onilliklərdə türk xalqlarının maarifçilik və mədəni inkişafına böyük təkan verdi. Bu gün 100 ildən sonra ortaq türk əlifbasının yenidən qəbul edilməsi ilə həmin ideyaların yeni mərhələdə reallaşdığını görürük. Bu, tarixi ardıcıllığın və ideya davamlılığının göstəricisidir.

Dördüncüsü, Qurultay türk xalqları arasında elmi və mədəni həmrəyliyin əsasını qoydu. Bu gün Türk dünyasında keçirilən ortaq konfranslar, elmi layihələr, ədəbi nəşrlər və mədəni proqramlar həmin ənənənin davamıdır. 100 il əvvəl atılmış addımlar bu gün yeni əməkdaşlıq formasında öz bəhrəsini verir.

Nəhayət, Birinci Türkoloji Qurultay bizə bir mühüm dərs verdi: birlik və elmi əməkdaşlıq inkişafın əsas şərtidir. Bu gün qloballaşma şəraitində mədəni kimliyin qorunması və inkişaf etdirilməsi üçün ortaq elmi platformaların yaradılması daha böyük əhəmiyyət daşıyır. Qurultayın ideyaları göstərir ki, ortaq dil və mədəniyyət ətrafında birləşmək yalnız tarixi zərurət deyil, həm də gələcəyə hesablanmış strateji seçimdir.

Birinci Türkoloji Qurultay təkcə elmi hadisə deyil, Türk dünyasının intellektual birliyinin simvolu, ortaq gələcəyimizin ideoloji və elmi təməlidir. 100 il sonra onun əhəmiyyəti daha da artmış, yeni məzmun və perspektiv qazanmışdır.

***– Türkoloji Qurultayın bu gün üçün böyük tarixi və ideoloji əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması barədə sərəncam imzalanması deyilənlərin təsdiqidir. Bu barədə nə deyərdiniz?***

– Bu sərəncamı həm siyasi və həm də elmi baxımdan strateji əhəmiyyətə malik mühüm qərar kimi qiymətləndirirəm. Prezident İlham Əliyev tərəfindən Birinci Türkoloji Qurultayın 100 illiyinin dövlət səviyyəsində qeyd olunması haqqında sənədin imzalanması, hər şeydən əvvəl, türkoloji irsə və ümumilikdə türk dünyasının ortaq elmi-mədəni dəyərlərinə verilən böyük önəmin ifadəsidir.

Bu qərar göstərir ki, Birinci Türkoloji Qurultay təkcə tarixi hadisə deyil, müasir dövr üçün aktual ideyalar mənbəyi kimi də qəbul olunur. Dövlət səviyyəsində yubileyin keçirilməsi həm də türk xalqlarının ortaq elmi-mədəni platformada birliyi və həmrəyliyi istiqamətində atılan addımların davamıdır.

Sərəncamın tarixi əhəmiyyəti ondadır ki, o, elmi ictimaiyyət üçün yeni imkanlar açdı – beynəlxalq konfranslar, nəşr layihələri, ortaq əlifba təşəbbüsləri və fundamental tədqiqatlar geniş vüsət aldı. Bu, tarixə ehtiramla yanaşmaqla yanaşı, gələcəyə hesablanmış mədəni və elmi strategiyanın tərkib hissəsidir.

Eyni zamanda, möhtərəm Prezidentimizin imzaladığı Sərəncam Azərbaycan dövlətinin Türk dünyasında inteqrasiya proseslərinə verdiyi töhfənin bariz nümunəsidir. Qurultayın 100 illiyinin qeyd olunması milli yaddaşın möhkəmləndirilməsi, ortaq köklərin və ortaq dəyərlərin təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Bu Sərəncam həm tarixi ədalətin bərpası, həm də gələcəyə yönəlmiş elmi-mədəni siyasətin ifadəsidir.

Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın keçirilməsi haqqında sərəncamı 100 il əvvəl Türk dünyasının elmi-mədəni inteqrasiyası üçün böyük təməllər yaratmış, ortaq türk əlifbasına keçmək üçün qərar qəbul etmiş və faciəli tale yaşamış görkəmli türkoloq alimlərə, şair və yazıçılara verilmiş siyasi bəraət nümunəsidir.

***– Sizcə, Qurultayın ideyaları bu gün üçün nə dərəcədə aktualdır?***

– Birinci Türkoloji Qurultayın ideyaları strateji əhəmiyyət daşıyır. 100 il əvvəl irəli sürülmüş fikirlər müasir dövrdə yeni məzmun qazanaraq Türk dünyasının inteqrasiyası, elmi əməkdaşlığı və mədəni həmrəyliyi baxımından mühüm istiqamətverici rol oynayır.

Qurultayın əsas ideyalarından biri ortaq elmi platformanın yaradılması idi. Bu gün qloballaşma və rəqəmsallaşma şəraitində türk xalqları arasında elmi əlaqələrin genişlənməsi, ortaq layihələrin həyata keçirilməsi və akademik mübadilənin gücləndirilməsi həmin ideyanın müasir təzahürüdür. Türkoloji araşdırmalar artıq ayrı-ayrı ölkələrin daxilində deyil, beynəlxalq miqyasda koordinasiya olunur.

Ortaq əlifba və dil birliyi məsələsi Qurultayın mərkəzi mövzularından biri olmuşdur. Bu gün latın qrafikalı ortaq türk əlifbasının qəbul edilməsi, terminoloji uyğunlaşdırma və dil sahəsində əməkdaşlıq bu ideyaların davamıdır. Ortaq əlifba qarşılıqlı anlaşmanı asanlaşdırır, ədəbi və elmi mətnlərin paylaşımını sürətləndirir və ortaq informasiya məkanının formalaşmasına xidmət edir.

Qurultay milli kimlik və mədəni özünüdərk məsələsini elmi əsaslarla gündəmə gətirmişdi. Müasir dövrdə mədəni müxtəlifliyin qorunması və milli dəyərlərin yaşadılması daha da əhəmiyyətlidir. Türk xalqlarının ortaq tarixi köklərinin, folklorunun, ədəbiyyatının və mənəvi irsinin sistemli şəkildə araşdırılması və təbliği bu ideyanın davamıdır.

Qurultay həmrəylik və inteqrasiya çağırışı idi. Bu gün Türk dünyasında siyasi, iqtisadi və mədəni əməkdaşlıq platformalarının genişlənməsi həmin ideyaların praktik nəticəsidir. Elmi və humanitar əməkdaşlıq bu inteqrasiyanın əsas dayaqlarından biridir.

Nəhayət, Qurultayın ən böyük dərsi ondan ibarətdir ki, ortaq məqsədlər ətrafında birləşmək inkişafın əsas şərtidir. Müasir dünyada informasiya müharibələri, mədəni təsirlər və qloballaşma prosesləri fonunda ortaq elmi mövqe və mədəni həmrəylik daha vacibdir. Birinci Türkoloji Qurultayın ideyaları bu gün yalnız tarixi irs kimi deyil, həm də gələcəyə istiqamət verən konseptual baza kimi çıxış edir. Onlar Türk dünyasının intellektual birliyini möhkəmləndirən və davamlı inkişafını təmin edən əsas ideoloji sütunlardandır.

***– Qurultayın 100 illik yubileyinin keçirilməsi nə üçün vacib idi?***

– Yubileylər sadəcə tarixi hadisəni xatırlamaq məqsədi daşımır, həm də milli yaddaşın yenilənməsi, elmi irsin dəyərləndirilməsi və gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi üçün mühüm platformadır. Birinci Türkoloji Qurultayın 100 illiyinin dövlət səviyyəsində və yüksək təşkilatçılıqla qeyd olunması bir çox səbəbdən xüsusi əhəmiyyət kəsb edir. Əvvəla, bu, Qurultayın tarixi roluna verilən rəsmi və siyasi qiymətin ifadəsi idi.

100 illik yubileyin Dövlət səviyyəsində qeyd olunması göstərdi ki, bu hadisə yalnız elmi ictimaiyyət üçün deyil, bütövlükdə milli-mədəni inkişaf tariximiz üçün fundamental mərhələdir. Bu, tarixi irsə sahib çıxmaq və onu gələcək nəsillərə sistemli şəkildə ötürmək baxımından mühüm addımdır.

Yubiley tədbirləri elmi ictimaiyyəti yenidən bir araya gətirdi. Beynəlxalq konfranslar, nəşr layihələri, ortaq əlifba təşəbbüsləri və tədqiqat proqramları 100 il əvvəl qoyulmuş ideyaların müasir mərhələdə davam etdirildiyini göstərdi. Bu baxımdan yubiley yalnız xatirə xarakteri daşımadı, həm də real elmi nəticələr verdi.

Bu, həm də Türk dünyasına ünvanlanan mühüm bir mesaj idi. O mesaj ondan ibarətdir ki, ortaq köklərimiz, ortaq dil ailəmiz və ortaq mədəniyyətimiz bizi birləşdirən əsas amillərdir. Qloballaşan dünyada mədəni kimliyin qorunması və gücləndirilməsi üçün belə ideoloji dayaqlar son dərəcə vacibdir.

100 illik yubiley nəsillərarası körpü rolunu oynadı. Gənc tədqiqatçılar və tələbələr üçün Birinci Türkoloji Qurultayın irsi yenidən təqdim olundu, onun qərarları və ideyaları müasir elmi kontekstdə şərh edildi. Bu isə elmi ənənənin davamlılığını təmin edən əsas amillərdəndir.



İndiki yubiley gələcəyə baxış üçün strateji fürsət yaratdı. 100 il əvvəl müəyyənləşdirilmiş istiqamətlər – ortaq əlifba, terminoloji birlik, elmi əməkdaşlıq və mədəni inteqrasiya – bu gün daha geniş miqyasda həyata keçirilir. Beləliklə, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi keçmişə ehtiram, bu günə məsuliyyət və gələcəyə inamın ifadəsidir. Bu, həm tarixi yaddaşın möhkəmləndirilməsi, həm də Türk dünyasının elmi-mədəni birliyinin daha da gücləndirilməsi baxımından mühüm mərhələ oldu.

***– AMEA yubiley çərçivəsində hansı işləri həyata keçirmişdir?***

– Azərbaycan Milli Elmlər Akademiyası Birinci Türkoloji Qurultayın 100 illiyi münasibətilə geniş və çoxşaxəli fəaliyyət proqramı hazırlanmışdır. Bu tədbirlər həm elmi-tədqiqat, həm nəşriyyat, həm də maarifləndirici istiqamətləri əhatə etmişdir.

Akademiyada və onun elmi müəssisələrində beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar və dəyirmi masalar təşkil olunmuşdur. Bu tədbirlərdə Birinci Türkoloji Qurultayın tarixi rolu, qəbul edilmiş qərarların sonrakı yüzillikdə türkologiyanın inkişafına təsiri, müasir mərhələdə Türk dünyasının inteqrasiya prosesləri və ortaq əlifba məsələləri geniş şəkildə müzakirə edilmişdir. Xarici ölkələrdən alimlərin iştirakı bu yubileyə beynəlxalq elmi xarakter qazandırmışdır.

Fundamental və elmi-populyar nəşrlər hazırlanaraq çap edilmişdir. AMEA-nın “Elm” nəşriyyatında akademik Nizami Cəfərovun “Türklər Birinci Türkoloji Qurultayda” monoqrafiyası nəşr olunmuş, Qurultayın ideyaları və tarixi əhəmiyyəti elmi əsaslarla təhlil edilmişdir. Bu nəşr yubileyin elmi salnaməsi kimi xüsusi əhəmiyyət daşıyır.

Ən mühüm hadisələrdən biri – ortaq türk əlifbası ilə nəşr olunan “Azərbaycan və Türk dünyası: ortaq əlifbada poeziya” antologiyasının işıq üzü görməsidir. Bu kitab yeni qəbul olunmuş 34 hərfli latın qrafikalı ortaq türk əlifbasının praktik tətbiqinin ilk nümunəsidir. Antologiyada Azərbaycan və müxtəlif türk xalqlarının poeziya nümunələri həm orijinal dildə, həm də ortaq əlifba ilə təqdim olunaraq ədəbi və mədəni birliyin real modelini ortaya qoymuşdur.

Hesab edirəm ki, Fəlsəfə və Sosiologiya İnstitutunda yaratdığımız “Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi”, Tarix və Etnologiya İnstitutundakı “Türk xalqlarının tarixi və etnoqrafiyası”, Memarlıq və İncəsənət İnstitutunda təsis etdiyimiz “Türk sənət tarixi və mədəni irsi” şöbəsinin fəaliyyətə başlaması Birinci Türkoloji Qurultayın idealları ilə səsləşir və gələcəyə baxışı diqqətə çatdırır.

Bundan əlavə, Akademiyanın elmi müəssisələrində arxiv materiallarının araşdırılması, Qurultayla bağlı sənədlərin və mənbələrin yenidən nəşri istiqamətində işlər görülmüşdür. Tədqiqatçılar tərəfindən Qurultayın qərarlarının müasir kontekstdə şərhi və elmi təhlili aparılmışdır.

AMEA-nın həyata keçirdiyi tədbirlər yubileyin formal xarakter daşımadığını, real elmi nəticələrə və praktik addımlara çevrildiyini göstərir. Bu işlər Birinci Türkoloji Qurultayın ideyalarının müasir mərhələdə davam etdirilməsinə və Türk dünyasının elmi-mədəni inteqrasiyasının gücləndirilməsinə mühüm töhfədir.

***– Ortaq əlifba məsələsinin əhəmiyyətini necə qiymətləndirirsiniz?***

– Ortaq əlifba məsələsi sadəcə texniki və ya yazı qaydaları ilə bağlı məsələ kimi qiymətləndirilməməlidir; bu, eyni zamanda, Türk dünyasında mədəni, elmi və ədəbi inteqrasiyanın simvolu və strateji vasitəsidir. Latın qrafikalı ortaq əlifbanın qəbul edilməsi Türk xalqlarının tarixən ortaq dil köklərinə malik olduğunu təsdiqləyir və bu köklərin müasir dövrdə praktik şəkildə qorunmasına xidmət edir.

Ortaq əlifba qarşılıqlı anlaşmanı xeyli asanlaşdırır. Türk dünyasının müxtəlif ölkələrində yaşayan insanlar və alimlər mətni oxuyub anlaya biləcək, informasiya və bilik mübadiləsi sürətlənəcək. Bu, təkcə elmi sahədə deyil, ədəbiyyat, media, təhsil və mədəniyyət sahələrində də geniş imkanlar yaradır. Məsələn, ortaq əlifba sayəsində müxtəlif türk ölkələrinin şair və yazıçılarının əsərləri daha geniş oxucu auditoriyasına çatdırıla, tərcümə və adaptasiya prosesləri sadələşdirilə bilər.

Ortaq əlifba bir növ mədəni inteqrasiyanın təməl daşıdır. Türk dünyasının müxtəlif bölgələrində fərqli dialektlər və yazı sistemləri mövcuddur, lakin ortaq əlifba bu mədəni müxtəlifliyi bir araya gətirən vasitədir. Latın qrafikalı əlifba bütün türk ölkələrində elmi standartları və ədəbi dil vahidliyini təmin etmək üçün universal platforma yaradır. Bu, eyni zamanda, gənc nəsillərin milli və ümumtürk dəyərlərinə bağlılığını gücləndirir, mədəniyyətlərarası körpü rolunu oynayır.

Ortaq əlifbanın qəbulu Birinci Türkoloji Qurultayın ideyalarının müasir dövrdə reallaşmasının ən bariz nümunəsidir. 100 il əvvəl Qurultayda müzakirə olunan əlifba və dil məsələləri bu gün konkret praktiki nəticələrə çevrilmişdir. Bu, həm tarixi ardıcıllığın, həm də ideya davamlılığının göstəricisidir. Eyni zamanda, bu addım Türk dünyasında birgə elmi layihələr, ortaq terminologiya, tədris proqramları və ədəbi antologiyalar kimi layihələrin gerçəkləşməsini də təmin edir.

Nəticədə, ortaq əlifba yalnız yazı sistemi deyil, həm də birliyimizin, ortaq mədəniyyətimizin və elmi əməkdaşlığımızın simvoludur. Bu qərar Türk dünyasında əlaqələri möhkəmləndirir, milli kimliklər arasında qarşılıqlı anlaşmanı gücləndirir və həm tarixi, həm də müasir baxımdan mühüm əhəmiyyət daşıyır.

***– Sonda Türkoloji Qurultayın dərsləri haqqında nə demək istərdiniz?***

– Birinci Türkoloji Qurultayın ən mühüm dərsi təkcə tarixi hadisələrin öyrənilməsi deyil, həm də birlik, elmi həmrəylik və mədəni inteqrasiyanın əhəmiyyətini göstərməsidir. Qurultay 100 il əvvəl Türk dünyasının müxtəlif bölgələrindən gələn alimləri, yazıçılar və ziyalıları bir araya gətirərək ortaq problemləri müzakirə, ortaq qərarlar qəbul etməyə və gələcəyə yönəlmiş strateji addımlar atmağa imkan yaratmışdır. Bu, göstərdi ki, ortaq məqsədlər ətrafında birləşən xalqlar yalnız elmi və mədəni sahədə deyil, həm də siyasi və sosial sahələrdə daha güclü olur.

Tarix sübut edir ki, türk xalqları arasındakı elmi və mədəni əməkdaşlıq inkişafın əsas amillərindən biridir. Qurultayın dərsləri bu gün də aktualdır: ortaq dil, ortaq əlifba, ədəbi və mədəni əlaqələr, elmi əməkdaşlıq və ortaq irsin qorunması prinsipləri Türk dünyasının gələcək inkişafını təmin edən baza rolunu oynayır. Bu, həm də milli kimliklərin qorunması və eyni zamanda, ümumtürk mədəniyyətinin möhkəmləndirilməsi üçün strateji platformadır.

Bu gün bizim vəzifəmiz Qurultayın ideyalarını yeni mərhələdə davam etdirməkdir. Ortaq əlifba təşəbbüsləri, ədəbi antologiyalar, beynəlxalq konfranslar, elmi layihələr və gənc nəsillərin türkoloji araşdırmalara cəlb olunması bu dərslərin praktik reallaşmasıdır. Yəni Qurultayın elmi və mədəni prinsipləri yalnız tarixi yaddaşda qalmayıb, müasir dövrdə konkret fəaliyyətlər və nəticələrlə yaşayır.

Qısaca desək, Qurultayın dərsləri birlik, elmi əməkdaşlıq, mədəni həmrəylik və ortaq gələcəyi formalaşdırmaq bacarığıdır. Bu ideyaların davam etdirilməsi, Türk dünyasının intellektual, mədəni və elmi birliyinin möhkəmləndirilməsi istiqamətində bizim üçün əsas strateji vəzifədir. AMEA bu istiqamətdə fəaliyyətini qətiyyətlə davam etdirir və Qurultayın ideyalarını müasir dövrün tələblərinə uyğun şəkildə həyata keçirir.

***– Yubileyin yüksək səviyyədə qeyd edilməsində AMEA-nın kollektivinə uğur diləyirik.***

***Müsahibəni apardı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Bölgələrdə Xocalı qurbanlarının anım mərasimləri

**Dünən XX əsrin kütləvi soyqırımları sırasında yer almış Xocalı qətliamı ölkənin bütün bölgələrində dərin hüznlə anılıb. Kütləvi mərasimlərdə bildirilib ki, Xocalı faciəsi təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş ağır cinayətdir. Bu qanlı tarix xalqımızın yaddaşında sağalmaz yaradır və heç zaman unudulmayacaq.**

**Hüzn tədbirlərində qeyd edilib ki, xalqımız soyqırımı qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, artıq düşmən üzərində qazandığımız tarixi Zəfərin, günahsız soydaşlarımızın intiqamının alınmasının qürurunu da yaşayır.**

## Naxçıvan

**AMEA Naxçıvan Bölməsində "XX əsrin faciəsi: Xocalı Soyqırımı" mövzusunda elmi konfrans keçirilib. Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**



Konfransı giriş sözü ilə Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev açaraq Xocalı faciəsi haqqında ətraflı məlumat verib. Bildirib ki, Xocalı soyqırımı nəticəsində yüzlərlə günahsız insan – qadınlar, uşaqlar, qocalar xüsusi amansızlıqla qətlə yetirilib. Şəhər yerlə-yeksan edilib, sakinlər ağır işgəncələrə məruz qalıb. Bu hadisə Azərbaycan tarixinin ən qanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq baxımından da insanlığa qarşı törədilmiş ağır cinayətdir.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov "Xocalı: soyqırımdan inkişafa doğru", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent Ramiz Qasımov "Xocalı faciəsi bədii ədəbiyyatımızda" mövzularında məruzə ediblər.

Məclisdə bildirilib ki, Xocalı soyqırımının elmi-tarixi aspektdə araşdırılması, ədəbi və publisistik müstəvidə təbliği mühüm vəzifələrdəndir.

## Gəncə

**Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Gəncə Memorial Kompleksində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.**



Əvvəlcə kompleks ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə ziyarət olunub. Abidə önünə gül dəstələri düzülüb, şəhidlərin əziz xatirəsi sükutla yad edilib. Sonra iştirakçılar Xocalı faciəsinə həsr olunmuş sərgi ilə tanış olublar. Kompleksdə fəaliyyət göstərən muzeyə baxış zamanı da faciənin miqyası və insan talelərində buraxdığı izlər bir daha xatırlanıb.

Çıxış edənlər vurğulayıblar ki, Xocalı soyqırımı xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Bu həqiqətləri yaşatmaq, gələcək nəsillərə çatdırmaq və şəhidlərimizin xatirəsini daim uca tutmaq hər birimizin mənəvi borcudur.

Mərasim vətənpərvərlik ruhunda təqdim olunan ədəbi-bədii kompozisiyalarla başa çatıb. Səslənən şeirlər və musiqilər anım mərasiminə xüsusi duyğu qatıb, Xocalı şəhidlərinin xatirəsinə ehtiramın ifadəsinə çevrilib.

## Sumqayıt

**Sumqayıt şəhərində Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.**



Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, millət vəkilləri, hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, şəhid ailələri və qazilər, Sumqayıtda məskunlaşan Xocalı sakinləri, eləcə də şəhər ictimaiyyətinin nümayəndələri Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə gül dəstələri düzüb, faciə zamanı həlak olan soydaşlarımızın xatirəsini ehtiramla yad ediblər. Daha sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə məskunlaşan Xocalı sakinləri ilə görüşərək 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş Xocalı faciəsinin təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən ağır soyqırımı cinayətlərindən biri olduğunu vurğulayıb.

44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayının 19–20-də həyata keçirilmiş lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi və konstitusiya quruluşunun tam bərpa olunduğu, Xocalı qurbanlarının qisasının alındığı və onların qanının yerdə qalmadığı vurğulanıb.

Qeyd olunub ki, dövlətimiz şəhid ailələrinə, müharibə iştirakçılarına və Xocalı sakinlərinə daim diqqət və qayğı ilə yanaşır. Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində işlər davam etdirilir.

## Mingəçevir

**Fevralın 26-da şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş ümumşəhər anım mərasimi keçirilib. Şəhərin rəhbərliyi, ictimaiyyət nümayəndələri və ərazidə məskunlaşmış Xocalı köçkünləri səhər saatlarında Şəhidlər Xiyabanına gələrək Soyqırımı abidə kompleksinin qarşısına gül dəstələri qoyublar. Faciə qurbanlarının xatirəsi ehtiramla yad edilib, şəhidlərin ruhuna dualar oxunub.**



Mərasimin davamında şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, xalqımızın qan yaddaşına ağır faciə kimi yazılan Xocalı soyqırımından 34 il keçir. 1992-ci il fevral ayının 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələrinin törətdiyi kütləvi soyqırımı xalqımıza qarşı barışmaz düşmənçiliyin və milli nifrətin aşkar göstəricisi olmaqla bəşəri cinayət kimi tarixə yazılıb. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir".

Xocalı Rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Zahir Usubov, Xocalı sakini Şahmalı Quliyev, YAP Şəhər Təşkilatının sədri Bəxtiyar Mustafayev, "Şəhid Ailələrini Müdafiə Cəmiyyəti"nin Mingəçevir şəhər şöbəsinin sədri İranə Həsənova, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İB-in şəhər filialının sədri Əlağa Bəndəliyev faciənin başvermə səbəblərindən və ibrət dərslərindən danışıblar. Qeyd ediblər ki, Qarabağ zəfəri, torpaqlarımızın işğaldan azad edilməsi uzun sürən münaqişə və 2 müharibənin yaralarına məlhəm olub, şəhidlərin qanı yerdə qalmayıb.

## Lənkəran

**Dünən Lənkəran şəhərinin mərkəzində salınmış soyqırımı qurbanlarının xatirə parkındakı "Ana heykəli" qarşısında anım mərasimi keçirilib.**



Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ağsaqqallar, ziyalılar, gənclər və ictimaiyyət nümayəndələri abidə önünə gül dəstələri düzərək soyqırımı qurbanlarının xatirəsini böyük ehtiramla yad ediblər.

Sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xocalıya qayıtdıq" adlı kompozisiya nümayiş olunub. Gün ərzində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət olunub, şəhidlərin ruhlarına dualar səslənib.

## Beyləqan

**Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi Beyləqan rayonunda da ehtiramla anılıb. Mərasimdə rayon rəhbərləri, idarə və təşkilat nümayəndələri, ictimaiyyət təmsilçiləri, şəhid ailələri və qazilər iştirak ediblər.**



İştirakçılar şəhərin girişində yerləşən "Soyqırımı" abidəsini ziyarət edərək faciə qurbanlarının xatirəsini ehtiramla anıb, abidə önünə gül dəstələri düzüblər. Bildirilib ki, 1992-ci il fevralın 26-da baş vermiş Xocalı soyqırımı Azərbaycan tarixinin ən ağrılı və unudulmaz səhifələrindən biri kimi hər il ölkənin bütün bölgələrində dərin hüznlə yad olunur. Günahsız insanların qətlə yetirildiyi həmin dəhşətli gecə xalqımızın yaddaşında silinməz iz buraxıb.

Mərasimdə Xocalı şəhidlərinin əziz xatirəsinin daim qəlblərdə yaşayacağı vurğulanıb.

## Goranboy

**Xocalı soyqırımı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Goranboy şəhərində şəhidlərin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası təşkil olunub.**

Anım mərasimində rayonun digər rəhbər şəxsləri, idarə, müəssisə və xidmət sahələrinin rəhbərləri, eləcə də bir qrup ictimai fəal iştirak ediblər. Əvvəlcə Xocalı soyqırımı qurbanlarının və Vətən uğrunda canından keçmiş bütün şəhidlərin xatirəsi ehtiramla yad olunub.



Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev qeyd edib ki, Xocalı qurbanlarının xatirəsi hər zaman ehtiramla anılır və onların əziz xatirəsi xalqımızın qəlbində yaşayır. Bu gün əkilən hər bir ağac həm şəhidlərin ruhuna ehtiramın, həm də torpaqlarımızda həyatın davam etməsinin rəmzidir. Çıxış edənlər bildiriblər ki, 1992-ci ilin fevralında baş verən Xocalı soyqırımı xalqımızın yaddaşına silinməz faciə kimi həkk olunub.

Həmin gün şəhərdə yüzlərlə ağac əkilib, onlara qulluq göstərilib. İştirakçılar bu təşəbbüsün gələcək nəsillər üçün həm ekoloji, həm də mənəvi əhəmiyyət daşıdığını bildiriblər.

## Salyan

**Xocalı şəhidlərinin xatirəsi Salyan rayonunda da ehtiramla yad edilib. Rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri "Şəhidlər" xatirə kompleksini ziyarət edərək önünə gül-çiçək dəstələri düzüb, Azərbaycanın ərazi bütövlüyü uğrunda, o cümlədən Xocalıda şəhid olan həmvətənlərimizin unudulmaz xatirəsi qarşısında baş əyiblər.**



Anım mərasimində faciə qurbanları bir dəqiqəlik sükutla yad olunub, şəhidlərin ruhuna dualar oxunub. Hər il minlərlə insan "Ana harayı" abidəsi kompleksini ziyarət edərək Xocalı qurbanlarının xatirəsinə ehtiramını ifadə edir.

## Balakən

**Balakən rayonunda Xocalı soyqırımı faciəsinin 34-cü ildönümü ilə bağlı silsilə tədbirlər çərçivəsində rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev ərazidə məskunlaşmış Xocalı sakinləri ilə görüşüb.**



Rayon rəhbəri bildirib ki, Xocalı soyqırımı insanlıq tarixinin qanlı səhifəsidir. Bu faciə təkcə Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri dəyərlərə, insan hüquqlarına və beynəlxalq hüquq normalarına qarşı törədilmiş cinayətdir.

Qeyd edilib ki, Vətən müharibəsi və antiterror tədbirlərində qazanılan Zəfər sayəsində torpaqlarımız işğaldan azad olunaraq suverenliyimiz təmin edilib. 2023-cü il oktyabrın 15-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Xocalıda Azərbaycanın şanlı Dövlət Bayrağının ucaldılması tarixi ədalətin təntənəsi idi.

Saat 17:00-da Azərbaycanın bütün ərazisində olduğu kimi, Balakən rayonunda da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Həmin gün Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyası da keçirilib.

## Ağstafa

**Xocalı faciəsinin 34-cü ildönümü ilə bağlı Ağstafada anım mərasimi keçirildi.**



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Hər kəsin simasında kədər və ehtiram duyulurdu.

Memorial kompleksin əbədi məşəli önünə əklil qoyuldu. Müqəddəs üçrəngli bayrağımızın üzərindəki ayparanı simvolizə edən abidənin üstünə qızılgüllər və tər qərənfillər düzüldü. Güllərin rəngi sanki o qanlı fevral gecəsinin ağrısını xatırladırdı. İnsanlar abidə önündə baş əyərək, Xocalı qurbanlarının xatirəsini yad etdilər.

Çıxışlarda bildirildi ki, Xocalı soyqırımı xalqımızın tarixində sağalmaz yaradır. Bu faciə təkcə bir şəhərin deyil, bütöv bir millətin ağrısıdır. İllər keçsə də, o gecə yaddaşlardan silinmir. Bu ağrı zamanla səngiməsə də, xalqımızın birliyini və ədalətə inamını daha da möhkəmləndirir.

## Gədəbəy

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Gədəbəy rayonunda da anım məclisi keçirilib, faciənin günahsız qurbanlarının əziz xatirəsi ehtiramla yad edilib.**

İştirakçılar əvvəlcə məktəblilərin Xocalı faciəsinə



həsr etdikləri rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Natiq Nağıyev geniş məruzə ilə çıxış edərək Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyindən danışıb. O vurğulayıb ki, dövlətimizin apardığı məqsədyönlü siyasət nəticəsində Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, faciənin beynəlxalq aləmdə tanıdılması istiqamətində ardıcıl iş aparılır.

Çıxış edənlər də Xocalı şəhidlərinin xatirəsinin hər zaman uca tutulacağını, gənc nəslin bu həqiqətləri bilməsinin və unutmamasının vacibliyini qeyd ediblər.

## Samux

**Samuxda da Xocalı soyqırımının 34-cü ildönümü dərin hüzn və ehtiramla anılıb. Anım mərasiminin iştirakçıları Şəhidlər kompleksini ziyarət ediblər.**



Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər sadəcə bir şəhərin faciəsi deyildi, bu, bütöv bir xalqın yaddaşına yazılmış qanlı tarixdir. Günahsız insanlar, qadınlar, uşaqlar, qocalar amansızlıqla qətlə yetirildi. O gecə insanlıq böyük bir sınaq qarşısında qaldı və bu ağrı heç vaxt unudulmayacaq. Bu ağrı bizi sarsıtsa da, eyni zamanda, birliyimizi və tariximizə bağlılığımızı daha da gücləndirir.

Saat 17:00-da rayon ərazisində nəqliyyatın hərəkəti dayandırıb, insanlar bir dəqiqəlik sükutla Xocalı soyqırımı qurbanlarını yad ediblər.

## Hacıqabul

**Hacıqabul rayonunda keçirilən anım mərasimində rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, icra hakimiyyəti aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri iştirak ediblər.**

Mərasim iştirakçıları Şəhidlər xiyabanında Xo-



calı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksi önünə gül dəstələri düzərək faciə qurbanlarını ehtiramla anıblar.

Daha sonra rayon Mədəniyyət Mərkəzində "Xocalı nişanəsi" adlı ədəbi-bədii kompozisiya nümayiş olunub. Kompozisiyada 1992-ci il fevralın 26-da törədilmiş qanlı hadisələrin Azərbaycan tarixində ən dəhşətli faciələrdən biri olduğu vurğulanıb, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinin əhəmiyyəti diqqətə çatdırılıb.

## Göygöl

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Göygöl rayonunda da faciə qurbanlarının əziz xatirəsi dərin hüzn və ehtiramla yad edilib.**



Rayon rəhbərləri və ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanını ziyarət edərək şəhid məzarları önünə gül dəstələri düzüblər. Şəhidlərin ruhuna dualar oxunub.Bildirilib ki, Xocalı qurbanlarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Bu ağrı zaman keçdikcə azalmasa da, bizi daha da birləşdirən, tariximizə daha möhkəm bağlayan yaddaşa çevrilib.

*Səhifənin materiallarını hazırladılar:*
***Tahir AYDINOĞLU,***
***İlqar HƏSƏNOV,***
***Hamlet QASIMOV,***
***Səbuhi HƏSƏNOV,***
***Əlisəfa HƏSƏNOV,***
***Mikayıl NƏRİMANOĞLU***
***XQ***

# Azərbaycan–Türkiyə–Gürcüstan əməkdaşlığı

## *Bu üçbucaqda qarşılıqlı faydaya əsaslanan uğurlu regional model formalaşıb*

**Fevralın 26-da Gürcüstanın Kaxeti bölgəsinin Telavi şəhərində Gürcüstan-Azərbaycan-Türkiyə biznes forumu işə başlayıb. Builki görüş VII Azərbaycan-Gürcüstan-Türkiyə biznes forumu kimi təşkil edilib. Məclisdə hər 3 ölkənin iqtisadiyyat nazirləri, təxminən, 300-ə yaxın iri şirkətin təmsilçisi iştirak edib. Forumu Gürcüstanın Ticarət və Sənaye Palatası, Türkiyənin Xarici İqtisadi Əlaqələr Komitəsi (DEİK) və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) birgə təşkil edib. Azərbaycanı bu tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.**




### *Ekspert rəyi*



**Elman SADIQOV,**
**iqtisadçı-ekspert**

Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli iqtisadi əməkdaşlıq, biznes forumlarının keçirilməsi, şübhəsiz ki, mühüm və aktual məsələlərdir. Lakin burada əsas diqqət yetirilməli məqamlardan biri investisiyaların hansı sahələrə yönəldilməsi, həmin investisiyaların məşğulluğa təsir səviyyəsi, yeni texnologiyaların tətbiqi, səmərəlilik göstəriciləri, xərclərin optimallaşdırılması və kapitalın repatriasiyası kimi amillərdir. Bu məsələlərin hər biri strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Düzgün və düşünülmüş yanaşma tətbiq olunarsa, bu proses ölkə iqtisadiyyatına ciddi töhfə verə bilər.

Nəzərə almaq lazımdır ki, hər hansı ölkə yalnız xaricə investisiya yatırmaqla kifayətlənib, daxili investisiya mühitinin cəlbediciliyini təmin etməzsə, bu, uzunmüddətli perspektivdə iqtisadi fəsadlara yol aça bilər. Məsələn, BƏƏ xarici ölkələrə irihəcmli investisiyalar yatırsa da, eyni zamanda, öz iqtisadiyyatının davamlı böyüməsi üçün xarici sərmayəyə ehtiyac duyur. Bu, balanslı investisiya siyasətinin vacibliyini göstərir.

Bu baxımdan investisiyaların rolunu dərindən dərk etmək zəruridir. Sərmayələrin hansı mexanizmlərlə, hansı şərtlərlə və hansı prioritet istiqamətlər üzrə cəlb olunacağı strateji planlaşdırmanın əsas tərkib hissəsi olmalıdır. Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı sərmayələrin həcmi 3,1 milyard ABŞ dollarını ötüb və bu, Gürcüstanın iqtisadi inkişafında ölkəmizin mühüm paya malik olduğunu göstərir.

Eyni yanaşma Türkiyə ilə iqtisadi münasibətlərdə də müşahidə olunur. Qardaş ölkəyə, xüsusilə enerji və qeyri-enerji sektorlarına yatırılan investisiyalar qarşılıqlı iqtisadi inteqrasiyanı gücləndirib.

Bu gün qarşılıqlı investisiyaların daha da genişləndirilməsi, tərəfdaş ölkələrin təcrübəsinin öyrənilməsi və həmin təcrübənin milli iqtisadiyyatımıza inteqrasiyası ölkəmiz üçün mühüm iqtisadi əhəmiyyət kəsb edir. Balanslı, qarşılıqlı faydaya əsaslanan investisiya siyasəti regional əməkdaşlığın möhkəmlənməsinə və dayanıqlı iqtisadi inkişafa xidmət edəcək.

Xatırladaq ki, VI Azərbaycan-Gürcüstan-Türkiyə biznes forumu 2021-ci ildə Bakıda keçirilmişdi. Builki isə yeddinci belə forumdur ki, tərəflər arasında iqtisadi əməkdaşlığın möhkəmlənməsinə töhfə vermək məqsədi daşıyır.

Forumun əsas məqsədi Azərbaycan, Türkiyə və Gürcüstan arasındakı iqtisadi əlaqələrin dərinləşdirilməsi, investisiya təşviqinin gücləndirilməsi, ticarət dövriyyəsinin genişləndirilməsi və regional əməkdaşlığın artırılmasıdır. İşgüzar görüşlər, sənaye və investisiya layihələrinin müzakirəsi, həmçinin qarşılıqlı biznes şəbəkələrinin formalaşdırılması da tədbirin gündəliyindədir.

Üçtərəfli biznes forumlar regional əlaqələrin vacib platforması kimi qəbul edilir və qonşu dövlətlər arasında iqtisadi inteqrasiyanı irəli aparmaq üçün mühüm rol oynayır. Azərbaycan, Türkiyə və Gürcüstan arasında uzunmüddətli iqtisadi və nəqliyyat əməkdaşlığı mövcuddur və bu tip tədbirlər həmin əməkdaşlığı daha da genişləndirmək məqsədi daşıyır.

Rəsmi Bakı, Ankara və Tbilisi illər ərzində çoxtərəfli əməkdaşlıq formatında regionun iqtisadi xəritəsini dəyişdirən nəhəng infrastruktur layihələrinə imza atıblar. Bu strateji tərəfdaşlığın nəticəsi olaraq Cənubi Qafqaz və Anadolu coğrafiyası qlobal enerji və nəqliyyat marşrutlarının əsas qovşaqlarından birinə çevrilib.

Bu çərçivədə reallaşdırılan Bakı–Tbilisi–Ceyhan neft kəməri Xəzər neftini Aralıq dənizinə çıxararaq regionun enerji təhlükəsizliyinə mühüm töhfə verib. Bakı–Tbilisi–Qars dəmir yolu isə Avropa ilə Asiyanı birləşdirən yeni logistika xəttini formalaşdırıb. Enerji sahəsində Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Xəzər qazının Türkiyə və Avropa bazarlarına nəqlini təmin edərək strateji əhəmiyyət qazanıb.

Reallaşmış bu layihələr onu deməyə əsas verir ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında qurulan üçtərəfli əməkdaşlıq modeli regionda sabitliyə və müsbət mənada qarşılıqlı asılılığın möhkəmlənməsinə xidmət edir.

Azərbaycan, Türkiyə və Gürcüstan Avrasiyanın nəqliyyat xəritəsində böyük potensiala malik Orta Dəhlizin də əsas iştirakçılarıdır. Bu dəhliz regionu Avropa və Asiya arasında mühüm tranzit mərkəzinə çevirir. Eyni zamanda, Azərbaycan və Gürcüstan "Xəzər-Qara dəniz-Avropa" enerji dəhlizi layihəsində də iştirak edir.

Yeri gəlmişkən, Azərbaycan Türkiyə və Gürcüstanla ticarət əlaqələrinin inkişafına xüsusi önəm verir. Hər iki ölkə ilə müxtəlif istiqamətlər üzrə intensiv ticarət dövriyyəsi həyata keçirilir. Bununla belə, Gürcüstanla müqayisədə Azərbaycanın Türkiyə ilə ticarət əlaqələri daha yüksək həcmdədir və struktur baxımından daha genişdir.

2025-ci ilin yanvar–dekabr aylarında Azərbaycan ilə Türkiyə arasında ümumi ticarət dövriyyəsi 5 milyard 200 milyon 811 min ABŞ dolları təşkil edib. Bunun 3 milyard 75 milyon 840 min ABŞ dolları ixracın, 2 milyard 124 milyon 970 min ABŞ dolları isə idxalın payına düşüb. Hesabat dövründə Türkiyə Azərbaycanın ümumi ticarət dövriyyəsində 2-ci yerdə qərarlaşıb.

Eyni zamanda, Türkiyə Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının əsas tərəfdaşları sırasında da 2-ci mövqedə yer alıb və ümumi ixracda 16,46 faiz paya sahib olub. Gürcüstan isə bu göstərici üzrə 4-cü yerdə qərarlaşıb və onun payı 9,23 faiz təşkil edib. Hesabat dövründə Gürcüstana 621 milyon 355 min ABŞ dolları dəyərində məhsul ixrac olunub.

Türkiyə istiqamətində Azərbaycan investisiyalarının həcmi xüsusilə diqqətçəkəndir. Rəsmi açıqlamalara görə, Azərbaycan indiyədək Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə yatırıb. Bu göstərici iki ölkə arasında formalaşmış strateji iqtisadi tərəfdaşlığın miqyasını əyani şəkildə nümayiş etdirir.

Yatırımların əsas hissəsi energetika və sənaye sektoruna yönəlib. Xüsusilə, Azərbaycan Dövlət Neft Şirkətinin – SOCAR-ın Türkiyədə reallaşdırdığı iri layihələr bu kontekstdə ön plana çıxır. SOCAR-ın Türkiyədə fəaliyyət göstərən strukturu "SOCAR Türkiyə"nin investisiyaları təxminən 18,5 milyard ABŞ dollarına çatıb. Bu çərçivədə STAR Neft Emalı Zavodu, TANAP qaz kəməri layihəsi və digər sənaye obyektləri mühüm yer tutur.

İki ölkə arasında qarşılıqlı investisiya axını da yüksək səviyyədədir. Azərbaycanın Türkiyəyə yatırdığı sərmayələr 20–21 milyard ABŞ dolları təşkil etdiyi halda, Türkiyənin Azərbaycana yönəltdiyi investisiyalar təxminən 18–19 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

Azərbaycan və Türkiyə arasında investisiya əməkdaşlığı təkcə makroiqtisadi göstəricilərlərdən ibarət deyil. Real sektorda şirkətlərin fəallığı ilə də müşayiət olunur. Sahibkarlıq subyektlərinin qarşılıqlı fəaliyyəti iqtisadi inteqrasiyanın praktik müstəvidə dərinləşdiyini göstərir. Hazırda Türkiyədə təxminən 3000 Azərbaycan şirkəti fəaliyyət göstərir. Azərbaycanda isə Türkiyə kapitalı əsasında yaradılmış 4 min 600-dən artıq kommersiya qurumu qeydiyyatdan keçib və müxtəlif sahələrdə fəaliyyətini davam etdirir.

Eyni zamanda, Azərbaycan və Türkiyə şirkətləri işğaldan azad edilmiş ərazilərdə icra olunan layihələrdə birgə təmsil olunurlar. Türkiyə işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuqda iştirak edən ölkələr sırasında 1-ci yerdədir. Məlumatlara görə, təxminən 20 türk şirkəti həmin ərazilərdə ümumi dəyəri 5 milyard dollara yaxın olan 50-yə qədər layihənin həyata keçirilməsində iştirak edir. Bu layihələr avtomobil və dəmir yollarının inşası, energetika, kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, eləcə də layihələndirmə və digər istiqamətləri əhatə edir.

Gürcüstan istiqamətində isə investisiya həcmləri Türkiyə ilə müqayisədə daha aşağı olsa da, sabit artım dinamikası müşahidə olunur. 2025-ci ilin ilk 9 ayı ərzində Azərbaycan Gürcüstan iqtisadiyyatına 105,2 milyon ABŞ dolları həcmində birbaşa investisiya qoyub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 1,9 dəfə çoxdur.

Ümumilikdə Azərbaycan indiyədək Gürcüstana təxminən 3,6 milyard ABŞ dolları həcmində sərmayə yatırıb. Bu investisiyalar əsasən enerji, nəqliyyat və əlaqəli infrastruktur sahələrini əhatə edir. Məlumatlara görə, təkcə SOCAR-ın Gürcüstandakı investisiyaları 2 milyard ABŞ dollarını keçib. Azərbaycan uzun illərdir Gürcüstan iqtisadiyyatında əsas xarici investorlar sırasında yer alır.

***Musa BAĞIRLI***
***XQ***

---

*Araşdırma*

# Mənzil dələduzluğunun miqyası genişlənir

## *Bu ictimai bəlanın qurbanları nicat gözləyir*

**Artıq xeyli vaxtdır ki, paytaxtda tikilən hürdürmərtəbəli binalarda eyni mənzilin bir neçə nəfərə satılması mediada əsas müzakirə mövzularından birinə çevrilib. Bununla bağlı araşdırma aparan ekspertlərin məlumatına görə, təkcə son 3 ildə Bakıda 1000-dən çox şəxs mənzil dələduzluğunun qurbanı olub. Təəccüblüdür ki, hətta bəzən eyni mənzil 70-dən çox vətəndaşa satılıb. Uzun müddət çəkən məhkəmə çəkişmələrində isə bir çox hallarda problemin həllinə laqeyd yanaşılıb, nə pullar, nə də mənzillər geri qaytarılıb.**



Aparılan müşahidələrə əsasən, bu hallar daha çox qanunsuz müqavilələrin bağlanılması, yəni mənzillərin sadəcə Mənzil-Tikinti Kooperativləri (MTK) səviyyəsində tikilməsi, heç bir hüquqi qüvvə daşımayan sənədlərlə satılması və vətəndaşın bundan xəbərsiz olması, alqı-satqı müqavilələrinin notariatda təsdiqlənməməsi və Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınmaması səbəbindən baş verir.

Eyni zamanda, burada vətəndaşın çox zaman sənədin hüquqi qüvvəyə malik olub-olmamasını bilməməsi, sadəcə, tikinti şirkətinə güvənərək alqı-satqı prosesinə qoşulması vəziyyəti çətinləşdirir. Bəzi tikinti şirkətlərinin qeydiyyatsız fəaliyyət göstərmələri və bir neçə mənzili bir neçə alıcıya satmaları ilə qazanc əldə etmək istəklərindən irəli gələn məlum problemin həllini ağırlaşdırır.

### Hüquqi tənzimləmə zərurəti

Daşınmaz əmlak bazarında müşahidə edilən problemlər göstərir ki, bu sahədə perspektivdə yaranma ehtimalı olan çətinliklərin tez bir zamanda aradan qaldırılması fərdi ehtiyat tədbirləri ilə yanaşı, həm də mövcud qanunvericiliyin və normativ mexanizmlərin gücləndirilməsi ilə mümkündür. **Daşınmaz əmlak eksperti İsmayıl Əhmədovun** sözlərinə görə, bu baxımdan hazırda bir sıra qanunvericilik təşəbbüslərinin gerçəkləşdirilməsi zəruridir. İlk növbədə, məcburi texniki audit qurumunun yaradılmasına ciddi ehtiyac var. Çünki hazırda tikinti obyektlərinin istifadəyə verilməsi zamanı dövlət nəzarəti mövcud olsa da, alıcı maraqlarını birbaşa qoruyan müstəqil texniki audit mexanizmi geniş tətbiq edilmir.

İ.Əhmədovun fikrincə, qanunvericilikdə mənzil və fərdi yaşayış evlərinin ilkin satışından əvvəl müstəqil akkreditə olunmuş qurum tərəfindən texniki audit rəyi alınmasının məcburiləşdirilməsi, audit rəyinin alqı-satqı müqaviləsinin ayrılmaz hissəsi kimi tanınması, texniki qüsurların gizlədilməsi halında tikinti şirkəti üçün hüquqi məsuliyyətin sərtləşdirilməsi kimi məsələlərin öz ifadəsini tapmasına çalışılmalıdır. Bu mexanizm alıcıların qərar qəbuletmə prosesində müqavilə tərəfləri arasında məlumatın qeyri-bərabər paylanılmasının qarşısını müəyyən dərəcədə alır.

Ekspert bildirir ki, ölkədə tikinti şirkətləri üçün zəmanət öhdəliyinin hüquqi baxımdan doğruluğunun sübut edilməsinə də zəruri ehtiyac var. Çünki beynəlxalq təcrübədə tikinti şirkətləri obyekti təhvil verdikdən sonra müəyyən müddət ərzində konstruktiv və mühəndis qüsurlarına görə zəmanət məsuliyyəti daşıyır.

Bu yanaşmanın normativ şəkildə tətbiqi üçün, ilk növbədə, konstruktiv elementlər (bina, qurğu və ya hər hansı bir mexanizmin möhkəmliyini, dayanıqlılığını və bütövlüyünü gerçəkləşdirən əsas struktur hissələri) üzrə minimum 5-10 illik zəmanət müddətinin qanunvericilikdə müəyyənləşdirilməsi, zəmanət öhdəliyinin maliyyə təminatı kimi bank zəmanəti və ya sığorta mexanizminin tətbiqi, zəmanət öhdəliklərinin icra olunmadığı təqdirdə, kompensasiya mexanizmlərinin sadələşdirilməsi vacibdir. Ümumiyyətlə, bu addım tikinti keyfiyyətinin yüksəldilməsinə maraq yaradır.

**Daşınmaz əmlak eksperti Vüsal Hüseynov** isə bu gün mənzil satışında məlumat açıqlığı standartları tətbiqinin vacibliyini diqqətə çatdırır. Bildirir ki, illərdir mənzil satışı zamanı obyekt barədə məlumatın natamam təqdim olunması bazarda risklərin əsas mənbələrindən biridir. Bu səbəbdən tikinti şirkətləri və satıcılar üçün standartlaşdırılmış "əmlak məlumat pasportu"nun tətbiqi, pasportda layihə göstəriciləri, istifadə olunan materiallar, enerji səmərəliyi, geoloji xüsusiyyətlər və kommunikasiyalar barədə məlumatın məcburi göstərilməsi, yanlış məlumat təqdim edilməsinə görə inzibati məsuliyyətin müəyyənləşdirilməsi kimi məsələlərin qanunvericilikdə öz əksini tapmasına zəruri ehtiyac duyulur. Bu modelin tətbiqi istehlakçı hüquqlarının qorunması ilə yanaşı, bazar şəffaflığını da gücləndirə bilər.

Daşınmaz əmlak bazarında müştərilərə əmlakın alqı-satqısı və ya icarəsində kömək edən rieltorların fəaliyyətinin lisenziyalaşdırılması da bu sahənin beynəlxalq standartlar əsasında sürətlə inkişafına müsbət təsir göstərər. Çünki daşınmaz əmlak bazarında vasitəçilik fəaliyyəti mühüm rol oynasa da, bu sahədə peşə standartlarının vahid sistemi hələ tam formalaşmayıb. Buna görə də rieltor fəaliyyətinin lisenziyalaşdırılması, eləcə də peşə sertifikatlaşdırılması, peşə etikası kodeksinin qəbul edilməsi, müştəri maraqlarının pozulmasına görə intizam və maliyyə məsuliyyəti mexanizmlərinin yaradılması gerçəkləşdirilməlidir. Belə bir yanaşma isə, şübhəsiz ki, xidmət keyfiyyətinin və alıcı etimadının artmasına səbəb ola bilər.

Bu gün mülkiyyət hüququnun sığortalanması mexanizminin tətbiqinə də ciddi ehtiyac duyulur. Çünki bir sıra hallarda daşınmaz əmlak üzrə hüquqi mübahisələr alıcı üçün ciddi maliyyə itkiləri yaradır. Bunun qarşısını almaq üçün, ilk növbədə, mülkiyyət hüququnun sığortalanması ilə bağlı qurumun qanunvericiliyə daxil edilməsi, ilkin bazarda ipoteka və böyük həcmli əməliyyatlar zamanı bu sığortanın məcburi tətbiq olunması, hüquqi risklər üzrə sığorta hadisələri siyahısının müəyyənləşdirilməsi zəruridir.

V.Hüseynov yuxarıda sadalananlarla bərabər, tikinti prosesində rəqəmsal nəzarət sisteminin yaradılmasının əhəmiyyətini də önə çəkərək bildirir ki, bu məsələnin həlli tikinti keyfiyyətinə nəzarətin səmərəliyini artıran mühüm vasitələrdəndir. Bu istiqamətdə tikinti mərhələlərinin rəqəmsal reyestrdə qeydiyyatının aparılması, istifadə olunan materiallar və texniki nəzarət aktlarının elektron platformada saxlanılması, eləcə də alıcıların həmin məlumatlara çıxış imkanının reallaşdırılması ilə inşaat sektorunda hesabatlığı və şəffaflığı gücləndirmək mümkündür.

### Xarici təcrübə

Beynəlxalq təcrübədə daşınmaz əmlak alışı kompleks ekspertiza prosesi kimi həyata keçirilir. Bir çox ölkələrdə texniki audit, enerji səmərəliyi sertifikatı, geoloji rəy, hüquqi prosedurun dərindən yoxlanılması və sığorta paketi vahid proses kimi təqdim olunur. Məsələn, Avropa ölkələrində xüsusi müstəqil texniki yoxlama alıcının qərar qəbul etməsi üçün əsas sənədlərdən biri sayılır. ABŞ və Kanadada isə bu məsələni tənzimləyən mexanizmi mülkiyyət hüququ ilə bağlı təhlükə ehtimallarını sığorta vasitəsilə aradan qaldırır. Bu yanaşmalar daşınmaz əmlak bazarında şəffaflığı artırmaqla yanaşı, investisiya risklərini də minimuma endirir.

Aparılan təhlil göstərir ki, daşınmaz əmlak alışı mexanizmi maliyyə qərarı olmaqla yanaşı, həm də hüquqi və texniki məsələlərin idarə olunması prosesidir. Eyni zamanda, bu sahədə yaranma ehtimalı olan təhlükələrin azaldılmasına xidmət edir, müstəqil qiymətləndirməni, eləcə də texniki audit mexanizmlərinin genişləndirilməsini, müqavilə və zəmanət öhdəliklərinin gücləndirilməsini şərtləndirir. Bütün bunlarla bərabər, tikinti sektorunda nəzarət və şəffaflığın artırılması, real sığorta mexanizmlərinin tətbiqi, istehlakçıların maliyyə və hüquqi savadlığının yüksəldilməsi kimi məsələlərin həllini gerçəkləşdirir. Ümumiyyətlə, bu tədbirlərin həyata keçirilməsi daşınmaz əmlak bazarında istehlakçı etimadını artırmaqla yanaşı, sektorda dayanıqlı inkişaf və investisiya təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar ORUC,**
**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri**

Bəzən daşınmaz əmlak, xüsusilə də həyət evi və ya mənzil alan vətəndaşlar sonradan müxtəlif problemlərlə qarşılaşırlar. Belə ki, evin altından kanalizasiya kollektoru keçməsi, mənzildə texniki qüsurların üzə çıxması, yaxud keyfiyyətsiz tikinti materiallarının zamanla aşınaraq qopub tökülməsi halları müşahidə olunur. Hətta bir mənzilin bir neçə şəxsə satılması kimi hüquqi problemlər də real təcrübədə rast gəlinən faktlar sırasında yer alır. Belə bir şəraitdə isə daşınmaz əmlak bazarında istehlakçı hüquqlarının qorunması və risklərin idarə olunması məsələsi aktuallaşır.

Bəs vətəndaşlar daşınmaz əmlak alarkən onun təhlükəsizliyinə necə əmin ola bilərlər? Bunun üçün hansı mexanizmlər mövcuddur və hansı addımlar atılmalıdır? Mənzilin sığortalanması hansı risklərin qarşısını ala bilər? Bu suallara cavab olaraq deyə bilərəm ki, daşınmaz əmlak alışı zamanı mütəxəssis məsləhəti əsas şərtlərdən biri sayılır. Ev, mənzil və ya obyekt almaq insan həyatında nadir qəbul olunan taleyüklü qərarlardan biridir. Eyni zamanda, bu qərarın peşəkar qiymətləndirmə əsasında verilməsi zəruridir.

Qiymətləndirmə şirkətləri, rieltorlar və konsaltinq qurumları vasitəsilə aparılan ilkin təhlil potensial risklərin müəyyən hissəsini əvvəlcədən üzə çıxarmağa imkan verir. Bu qurumların hər biri tikinti şirkətinin reputasiyası, istifadə olunan materialların keyfiyyəti, binanın yerləşdiyi ərazinin geoloji xüsusiyyətləri, sosial infrastruktur, nəqliyyat əlçatanlığı və gələcək urbanizasiya perspektivləri barədə geniş məlumat bazasına malikdir. Bütün bu göstəricilər daşınmaz əmlakın bazar dəyərinin formalaşmasına və investisiya risklərinin səviyyəsinə birbaşa təsir edir.

Daşınmaz əmlak bazarında müşahidə olunan problemlərin mühüm hissəsi fərdi qərarların üstünlük təşkil etməsi ilə bağlıdır. Mütəxəssis dəstəyi olmadan müəyyənləşdirilən seçimlər nəticəsində vətəndaş MTK-ların əvvəlki fəaliyyəti barədə kifayət qədər məlumat əldə edə bilmir, sənədləşmə prosesində çətinliklərlə üzləşir, binanın konstruktiv vəziyyəti və texniki dayanıqlılığı barədə obyektiv qiymətləndirmə aparılmır.

Bu vəziyyət, xüsusilə də ilkin bazarda, yəni tikilməkdə olan və ya yeni istifadəyə verilmiş binaların satışında daha çox risk yaradır. Tikinti prosesinin keyfiyyəti, layihəyə uyğunluq və təhlükəsizlik standartlarına əməl olunması barədə məlumatın məhdudluğu sonradan ciddi problemlərin meydana çıxması ilə nəticələnir.

Müqavilə və hüquqi mexanizmlərin rolundan danışarkən, bir məqamı vurğulamaq yerinə düşər. Daşınmaz əmlak alışı zamanı müqavilə bağlanılması əsas məsələlərdən biridir. Belə ki, müqavilədə obyektin texniki parametrləri, istifadə olunan materialların standartlara uyğunluğu, təhvil müddəti, gecikmə hallarında məsuliyyət və zəmanət öhdəlikləri konkret şəkildə göstərilməlidir. Rieltor və ya konsaltinq şirkətinin iştirakı isə təkcə vasitəçilik funksiyası daşımamalı, həm də hüquqi və texniki vəziyyətlərin qiymətləndirilməsini əhatə etməlidir. Bu, daşınmaz əmlak bazarında xidmət modelinin sadə satışdan kompleks risk idarəetməsinə transformasiyası kimi qiymətləndiriməlidir.

Onu da qeyd edim ki, sürüşmə zonaları istisna olmaqla ərazi amili bəzən ikinci dərəcəli görünə bilər, lakin tikinti sahəsinin geoloji xüsusiyyətləri və bünövrənin möhkəmləndirilməsi məsələləri xüsusi diqqət tələb edir. Məsələn, əvvəllər su hövzəsi olmuş ərazilərin doldurularaq tikintiyə başlanılması, zəif torpaq qatları üzərində inşaat əməliyyatlarının aparılması, keyfiyyətsiz beton və armaturdan istifadə kimi hallar uzunmüddətli dayanıqlılığa ciddi təhlükə yaradır. Bundan əlavə, bir sıra hallarda tikinti prosesində texniki nəzarətin zəifliyi, təhlükəsizlik qaydalarına əməl olunmaması və layihədənkənar dəyişikliklər də gələcəkdə qüsurların yaranmasına gətirib çıxarır.

Daşınmaz əmlakın sığortalanması bu məsələdə mühüm önəm daşımasına baxmayaraq, bu mexanizmin tətbiqi hələ tam səmərəli deyil. Çünki bir çox hallarda sığorta formal xarakter daşıyır və vətəndaşlarda ona inamın aşağı səviyyədə olması narahatlıq doğurur. Sığorta sistemində, ilk növbədə, sistemin dayanıqlılığını artırmaq məqsədilə diferensial yanaşma tətbiq edilməlidir. Əmlakın bazar dəyəri, texniki vəziyyəti və yerləşmə riskləri nəzərə alınaraq fərqli sığorta tarifləri müəyyənləşdirilməlidir. Bu yanaşma həm sığorta şirkətlərinin maliyyə dayanıqlılığını gücləndirə, həm də sığorta hadisəsi zamanı kompensasiya mexanizminin real işləməsini təmin edə bilər.

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

## № 3-27/3-7-2/2026

**Bakı şəhəri** **5 fevral 2026-cı il**

**"Xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə xidmət haqqı məbləğləri"nin təsdiq edilməsi haqqında**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 8.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə xidmət haqqı məbləğləri" təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində elektron variantda dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2026-cı il 5 fevral tarixli 3-27/3-7-2/2026 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

### Xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə xidmət haqqı məbləğləri

| Sıra nömrəsi | Xidmətin adı | Ölçü vahidi | Xidmət haqqının məbləği |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | qeyri-müntəzəm (çarter) uçuş marşrutuna icazənin verilməsi üzrə müraciətin "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa və mülki aviasiya sahəsində beynəlxalq hava daşımalarını tənzimləyən beynəlxalq müqavilələrə uyğunluğunun yoxlanılması | | |
| 1.1. | birdəfəlik uçuşun yerinə yetirilməsinə dair | hər uçuş üçün | 100,0 avro |
| 1.2. | uçuşun uçuş proqramı əsasında 3 ay müddətinədək yerinə yetirilməsinə dair | hər uçuş proqramı üçün | 1000,0 avro |
| 1.3. | uçuşun uçuş proqramı əsasında 3 aydan 6 ay müddətinədək yerinə yetirilməsinə dair | hər uçuş proqramı üçün | 1500,0 avro |
| 2. | Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda uçuş marşrutunun təsdiq edilməsi üzrə müraciətin mülki aviasiya sahəsində beynəlxalq hava daşımalarını tənzimləyən beynəlxalq müqavilələrə uyğunluğunun yoxlanılması | hər uçuş marşrutu üçün | 100,0 manat |
| 3. | mülki hava gəmisi ilə təhlükəli yüklərin daşınmasına təsdiqetmə icazəsinin verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər icazə üçün | 200,0 manat |
| 4. | mülki hava gəmisi ilə təhlükəli yüklərin daşınmasına azadetmə icazəsinin verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər icazə üçün | 500,0 manat |
| 5. | aviasiya subyektlərinin aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi | hər subyekt üçün | 5000,0 manat |
| 6. | aviasiya təhlükəsizliyi üçün istifadə olunan avadanlığa xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sertifikatın etibarlılığının təsdiq edilməsi | ümumi dəyəri 1000 manatdan aşağı olan avadanlıq istisna olmaqla hər avadanlığın növü üzrə | 1000,0 manat |
| 7. | aviasiya təhlükəsizliyinə dair baxış üzrə operatorun bilik və bacarığının qiymətləndirilməsi | hər namizəd şəxs üçün | 40,0 manat |
| 8. | aviasiya təhlükəsizliyi üzrə instruktorun bilik və bacarığının qiymətləndirilməsi | hər namizəd şəxs üçün | 150,0 manat |
| 9. | aviasiya tədris mərkəzinin aviasiya təhlükəsizliyinin təmini sahəsi üzrə normativ hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi | hər tədris mərkəzi üçün | 2000,0 manat |
| 10. | aviasiya təhlükəsizliyi proqramının təsdiq edilməsi | hər proqram üçün | 500,0 manat |
| 11. | aviasiya təhlükəsizliyi proqramına edilən dəyişikliklərə razılığın verilməsi | hər proqram üçün | 100,0 manat |
| 12. | təhlükəli yüklərin daşınmasına dair prosedurun (hava gəmisi istismarçısının istismar təlimatında (OM) qeyd edilmədiyi halda) təsdiq edilməsi | hər prosedur üçün | 500,0 manat |
| 13. | təhlükəli yüklərin daşınmasına dair prosedura edilmiş dəyişikliklərin (hava gəmisi istismarçısının istismar təlimatında (OM) qeyd edilmədiyi halda) təsdiq edilməsi | hər prosedur üçün | 100,0 manat |
| 14. | Azərbaycan Respublikasında fəaliyyət göstərən hava gəmisinin istismarçılarının uçuş heyətinə uçuş heyəti üzvünün vəsiqəsinin verilməsi üçün müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər uçuş heyəti üzvü üçün | 70,0 manat |
| 15. | Azərbaycan Respublikasında fəaliyyət göstərən digər dövlətdə qeydiyyatda olan hava gəmisinin istismarçılarının nümayəndəliklərinin əməkdaşlarına hava limanının nəzarət edilən zonalarına buraxılış vərəqələrinin verilməsi üçün müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər əməkdaş üçün | 140,0 manat |
| 16. | təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınması üçün xarici dövlətdə alınmış istismarçı sertifikatında müvafiq icazəsi olan xarici dövlətin istismarçısının icazəsinin tanınması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər tanınma üçün | 1000,0 manat |
| 17. | Azərbaycan Respublikasında təhlükəli yüklərin poçt vasitəsilə göndərilməsi ilə məşğul olan poçt operatorunun təhlükəli yüklərin daşınması üzrə prosedurunun və ya təlim proqramının təsdiq edilməsi | hər prosedur və ya təlim proqramı üçün | 500,0 manat |
| 18. | Azərbaycan Respublikasında təhlükəli yüklərin poçt vasitəsilə göndərilməsi ilə məşğul olan poçt operatorunun təhlükəli yüklərin daşınması üzrə proseduruna və ya təlim proqramına dəyişikliklərin təsdiq edilməsi | hər prosedur və ya təlim proqramı üçün | 250,0 manat |
| 19. | imtahanların, praktiki bacarıq testinin, bacarıq yoxlamasının və səriştə qiymətləndirilməsinin həyata keçirilməsi | | |
| 19.1. | xarici dil biliyi təsdiqinin və ya sertifikatının alınması üçün imtahanın həyata keçirilməsi | hər iştirak üçün | 200,0 manat |
| 19.2. | nəzəri bilik imtahanının həyata keçirilməsi | hər iştirak üçün | 50,0 manat |
| 19.3. | praktiki bacarıq testinin, bacarıq yoxlamasının və ya səriştə qiymətləndirilməsinin həyata keçirilməsi | hər praktiki bacarıq testi, bacarıq yoxlaması və ya səriştə qiymətləndirilməsində iştirak üçün | 500,0 manat |
| 20. | şəhadətnamənin verilməsi, şəhadətnamənin müddətinin uzadılması, şəhadətnaməyə dəyişiklik edilməsi və ya konvertasiya olunması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 20.1. | şəhadətnamənin verilməsi, şəhadətnamənin müddətinin uzadılması və ya konvertasiya olunması üzrə müraciətin normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 20.1.1. | nəqliyyat pilotu və çoxheyətli pilot | hər şəhadətnamə üçün | 500,0 manat |
| 20.1.2. | kommersiya pilotu | hər şəhadətnamə üçün | 400,0 manat |
| 20.1.3. | həvəskar pilot | hər şəhadətnamə üçün | 300,0 manat |
| 20.1.4. | hava şarı pilotu | hər şəhadətnamə üçün | 250,0 manat |
| 20.1.5. | məsafədən idarə edən pilot (operator) | hər şəhadətnamə üçün | 250,0 manat |
| 20.1.6. | kabinə heyəti | hər şəhadətnamə üçün | 200,0 manat |
| 20.1.7. | naviqator, bort mühəndisi, bort radiooperatoru (bort radist) | hər şəhadətnamə üçün | 400,0 manat |
| 20.1.8. | havada hərəkəti idarəetmə dispetçeri | hər şəhadətnamə üçün | 350,0 manat |
| 20.1.9. | uçuş dispetçeri | hər şəhadətnamə üçün | 200,0 manat |
| 20.1.10. | hava gəmisi texniki | hər şəhadətnamə üçün | 300,0 manat |
| 20.2. | şəhadətnaməyə dəyişiklik edilməsi | hər dəyişiklik üçün | 100,0 manat |
| 21. | sertifikatın verilməsi, sertifikatın müddətinin uzadılması və ya sertifikata dəyişiklik edilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 21.1. | uçuş heyətinə təlim keçən təlimçilər | hər sertifikat üçün | 500,0 manat |
| 21.2. | digər aviasiya personalına təlim keçən təlimçilər | hər sertifikat üçün | 400,0 manat |
| 21.3. | uçuş heyətinin bilik və bacarıqlarını yoxlayan və qiymətləndirən imtahançılar | hər sertifikat üçün | 700,0 manat |
| 21.4. | digər aviasiya personalının bilik və bacarıqlarını yoxlayan və qiymətləndirən imtahançılar | hər sertifikat üçün | 500,0 manat |
| 22. | ixtisas qeydlərinin verilməsi, yenidən təsdiq edilməsi, müddətinin uzadılması və ixtisas qeydinə dəyişiklik edilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 22.1. | uçuş heyəti | hər qeyd üçün | 200,0 manat |
| 22.2. | havada hərəkəti idarəetmə dispetçeri | hər qeyd üçün | 200,0 manat |
| 22.3. | hava gəmisi texniki | hər qeyd üçün | 200,0 manat |
| 22.4. | digər aviasiya personalı | hər qeyd üçün | 150,0 manat |
| 23. | şəhadətnamələrə əlavə qeydlərin daxil edilməsi | hər qeyd üçün | 100,0 manat |
| 24. | şəhadətnamə, ixtisas qeydi, sertifikat və digər əlaqəli sənədlər üzrə üzv dövlətdə verilmiş analoji sənədin etibarlılığının təsdiq edilməsi | hər sənəd üçün | 700,0 manat |
| 25. | üzv dövlət tərəfindən verilmiş şəhadətnamə imtiyazlarının doğrulanması | hər imtiyazın doğrulanması üçün | 50,0 manat |
| 26. | şəhadətnamə, vəsiqə və ya sertifikatlara tətbiq edilən məhdudiyyətlərin ləğvi | hər məhdudiyyət üçün | 100,0 manat |
| 27. | şəhadətnamə, vəsiqə və ya sertifikatın dublikatının verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər dublikat üçün | 100,0 manat |
| 28. | aviasiya tibb eksperti tərəfindən aparılan aviasiya-tibbi müayinə və qiymətləndirilmələrin nəticələrini əks etdirən hesabatın və ekvivalent sənədin qiymətləndirilməsi | hər nəfər üçün | 150,0 manat |
| 29. | hava gəmisinin növ sertifikatının tanınması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər hava gəmisi üçün | 10000,0 manat |
| 30. | xüsusi uçuş icazəsinin verilməsi və ya yenidən rəsmiləşdirilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər icazə istənilən uçuş üçün | 2000,0 manat |
| 31. | hava gəmisinə uçuşa yararlılıq sertifikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, habelə sertifikatın müddətinin uzadılması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması, müffətiş yoxlamalarının keçirilməsi | | |
| 31.1. | çəkisi 5700 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 5000,0 manat |
| 31.2. | çəkisi 5700 kq-dan 30.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 7500,0 manat |
| 31.3. | çəkisi 30.000 kq-dan 100.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 10000,0 manat |
| 31.4. | çəkisi 100.000 kq-dan 200.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 15000,0 manat |
| 31.5. | çəkisi 200.000 kq-dan 300.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 20000,0 manat |
| 31.6. | çəkisi 300.000 kq-dan çox olan hava gəmiləri üçün | hər sertifikat üçün | 25000,0 manat |
| 32. | ixrac üçün uçuşa yararlılıq sertifikatının verilməsi üzrə müffətiş yoxlamasının keçirilməsi | | |
| 32.1. | çəkisi 5700 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 2500,0 manat |
| 32.2. | çəkisi 5700 kq-dan 30.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 5000,0 manat |
| 32.3. | çəkisi 30.000 kq-dan 100.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 7500,0 manat |
| 32.4. | çəkisi 100.000 kq-dan 200.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 10000,0 manat |
| 32.5. | çəkisi 200.000 kq-dan 300.000 kq-dək olan hava gəmiləri üçün | hər sertifikat üçün | 12500,0 manat |
| 32.6. | çəkisi 300.000 kq-dan çox olan hava gəmiləri üçün | hər sertifikat üçün | 15000,0 manat |
| 33. | hava gəmisində modifikasiyalar və ya təmirlərin yerinə yetirilməsinə dair məlumatların təsdiq edilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər modifikasiya və ya təmir üçün | 1000,0 manat |
| 34. | səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikatın verilməsi və ya yenidən rəsmiləşdirilməsi ilə bağlı müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər sertifikat və ya yenidən rəsmiləşdirmə üçün | 2000,0 manat |
| 35. | radioavadanlıq sertifikatının verilməsi və ya yenidən rəsmiləşdirilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər sertifikat və ya yenidən rəsmiləşdirmə üçün | 1000,0 manat |
| 36. | mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilata təsdiq və tanınma sertifikatlarının verilməsi, sertifikata dəyişikliklərin edilməsi və sertifikatın müddətinin uzadılması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 36.1. | sertifikatın verilməsi üzrə | hər təşkilat üçün | 10000,0 manat |
| 36.2. | sertifikata dəyişikliklərin edilməsi üzrə | hər dəyişiklik üçün | 3000,0 manat |
| 36.3. | sertifikatın müddətinin uzadılması üzrə | hər təşkilat üçün | 5000,0 manat |
| 37. | texniki xidmət proqramının və ya proqrama edilmiş dəyişikliklərin təsdiq edilməsi | hər proqram üçün<br>hər dəyişiklik üçün | 1000,0 manat |
| 38. | mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığın saxlanılmasını idarə edən təşkilata təsdiq sertifikatının verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | | |
| 38.1. | sertifikatın verilməsi üzrə | hər təşkilat üçün | 5000,0 manat |
| 38.2. | sertifikata dəyişikliklərin edilməsi üzrə | hər dəyişiklik üçün | 2000,0 manat |
| 38.3. | sertifikatın müddətinin uzadılması üzrə | hər təşkilat üçün | 3000,0 manat |
| 39. | təşkilatın təlimatının və ya təlimata edilən dəyişikliklərin təsdiq edilməsi | hər dəyişiklik üçün | 1500,0 manat |
| 40. | mülki hava gəmisinin dövlət qeydiyyatına alınması üçün daxil olmuş müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər hava gəmisi üçün | 1000,0 manat |
| 41. | mülki hava gəmisinin dövlət uçotuna alınması | hər hava gəmisi üçün | 500,0 manat |
| 42. | mülki hava gəmisinin dövlət reyestrindən çıxarılması | hər hava gəmisi üçün | 2000,0 manat |
| 43. | mülki hava gəmisinin uçuşa yararlılığı və uçuş əməliyyatlarının həyata keçirilməsi ilə bağlı beynəlxalq standarta riayət etməkdən istisnanın verilməsi ilə bağlı müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər istina üçün | 1500,0 manat |
| 44. | hava limanının və (və ya) aerodromun istismarçısının beynəlxalq standarta riayət etməkdən azadolma halı barədə qərarın qəbul edilməsi | hər qərar üçün | 1500,0 manat |
| 45. | pilotsuz uçuş aparatına qeydiyyat sertifikatının verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər mülki pilotsuz uçuş aparatı üçün | 500,0 manat |
| 46. | pilotsuz uçuş aparatı istismarçısına istismarçı sertifikatının verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər mülki pilotsuz uçuş aparatı üçün | 1000,0 manat |
| 47. | pilotsuz uçuş aparatı istismarçısına əməliyyat icazəsinin verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər mülki pilotsuz uçuş aparatı üçün | 1000,0 manat |

*(ardı 15-ci səhifədə)*

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

**№ 3-27/3-7-2/2026**

**Bakı şəhəri** **5 fevral 2026-cı il**

*(əvvəli 14-cü səhifədə)*

### Xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə xidmət haqqı məbləğləri

| Sıra nömrəsi | Xidmətin adı | Ölçü vahidi | Xidmət haqqının məbləği |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 48. | hava gəmisinin minimum avadanlıq siyahısının (MEL) təsdiq edilməsi | hər MEL üçün | 2000,0 manat |
| 49. | hava gəmisinin minimum avadanlıq siyahısına (MEL) dəyişikliklərin təsdiq edilməsi | hər dəyişiklik üçün | 100,0 manat |
| 50. | xüsusi şəraitlərdə uçuş əməliyyatının yerinə yetirilməsinə icazənin verilməsinə dair istismarçı sertifikatında qeydlərin aparılması | hər qeyd üçün | 2000,0 manat |
| 51. | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin daimi nəzarət funksiyası çərçivəsində hava gəmisinin istismarçısının istismarçı sertifikatının tələblərinə uyğunluğunun təmin edilməsi | | |
| 51.1. | sərnişin daşıma fəaliyyəti ilə məşğul olan yerli hava gəmisinin istismarçısına münasibətdə | Azərbaycan Respublikasının hava limanlarından (aeroportlarından) beynəlxalq daşımalar üzrə uçub gedən hər bir sərnişindən alınan yığım üzrə | 2 avro |
| 51.2. | yük daşıma fəaliyyəti ilə məşğul olan yerli hava gəmisinin istismarçısına münasibətdə | Azərbaycan Respublikasının hava limanlarından (aeroportlarından) beynəlxalq daşımalar üzrə uçub gedən hava gəmilərinin maksimal çəkisinin hər tonu üçün alınan yığım üzrə | 0.60 avro |
| 52. | hava gəmisinin istismarçısına istismarçı sertifikatın verilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | | |
| 52.1. | hava şarına münasibətdə | hər sertifikat üçün | 2000,0 manat |
| 52.2. | pilotsuz uçuş aparatları istisna olmaqla, digər hava gəmilərinə münasibətdə | hər sertifikat üçün | 10000,0 manat |
| 53. | təlim təşkilatlarına, uçuşu və ya hava hərəkətini imitasiya edən təlim qurğusuna sertifikatların verilməsi, müddətinin uzadılması, eləcə də sertifikata dəyişiklik edilməsi üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | | |
| 53.1. | sertifikatın verilməsi üzrə | | |
| 53.1.1. | hava şarı və pilotsuz uçuş aparatlarına münasibətdə | hər sertifikat üçün | 2000,0 manat |
| 53.1.2. | digər hava gəmilərinə münasibətdə | hər sertifikat üçün | 10000,0 manat |
| 53.2. | sertifikata dəyişikliklərin edilməsi üzrə | hər dəyişiklik üçün | 2000,0 manat |
| 53.3. | sertifikatın müddətinin uzadılması üzrə | | |
| 53.3.1. | hava şarı və pilotsuz uçuş aparatlarına münasibətdə | hər sertifikat üçün | 2000,0 manat |
| 53.3.2. | digər hava gəmilərinə münasibətdə | hər sertifikat üçün | 5000,0 manat |
| 54. | model pilotsuz uçuş aparatı klubuna və ya assosiasiyasına icazənin verilməsi və ya müddətinin uzadılması üzrə müraciətin aviasiya sahəsində normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması | hər təşkilat üçün | 2000,0 manat |
| 55. | hava gəmisi istismarçısının istismar təlimatının (OM), habelə hava gəmisinin uçuş təlimatının (AFM) yoxlanılması və təsdiq edilməsi | hər təlimat üçün | 1000 səhifəyədək – 500,0 manat 1000 səhifədən yuxarı – 1000,0 manat |
| 56. | uçuş heyətinin istismar təlimatının (FCOM, QRH) (hava gəmisi istismarçısının istismar təlimatında (OM) qeyd edilmədiyi halda) yoxlanılması və təsdiq edilməsi | hər təlimat üçün | 1000 səhifəyədək – 250,0 manat 1000 səhifədən yuxarı – 500,0 manat |
| 57. | təlim proqramının və ya təlim kursunun təsdiq edilməsi | hər təlim proqramı və təlim kursu üçün | 2000,0 manat |
| 58. | aviasiya tibb mərkəzi sertifikatının verilməsi ilə bağlı qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər mərkəz üçün | 10000,0 manat |
| 59. | aviasiya tibb mərkəzi sertifikatının yenilənməsi və ya hüquqi qüvvəsinin uzadılması ilə bağlı qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər mərkəz üçün | 5000,0 manat |
| 60. | aviasiya tibb eksperti sertifikatının verilməsi və ya müddətinin uzadılması ilə bağlı qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər namizəd şəxs üçün | 300,0 manat |
| 61. | mülki hava limanına və (və ya) aerodroma uyğunluq sertifikatının verilməsi üzrə qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər hava limanı və aerodrom üçün | 10000,0 manat |
| 62. | mülki hava limanına və (və ya) aerodroma uyğunluq sertifikatının yenidən rəsmiləşdirilməsi üzrə qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər hava limanı və aerodrom üçün | 10000,0 manat |
| 63. | helikopter meydançalarına (helideklərə) sertifikatın verilməsi üzrə qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər helikopter meydançası (helidek) üçün | 5000,0 manat |
| 64. | helikopter meydançalarına (helideklərə) sertifikatın yenidən rəsmiləşdirilməsi üzrə qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | hər helikopter meydançası (helidek) üçün | 5000,0 manat |
| 65. | mülki hava limanına və (və ya) aerodroma, habelə helikopter meydançasına (helidekə) dair istismar təlimatının (OM) yoxlanılması və təsdiq edilməsi | hər təlimat üçün | 1500,0 manat |
| 66. | mülki hava limanına və (və ya) aerodroma, habelə helikopter meydançasına (helidekə) dair istismar təlimatına (OM) edilmiş dəyişikliklərin yoxlanılması və təsdiq edilməsi | hər dəyişiklik üçün | 1500,0 manat |
| 67. | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin daimi nəzarət funksiyası çərçivəsində yerüstü xidmət təminatçılarının sertifikat tələblərinə uyğunluğunun təmin edilməsi | | |
| 67.1. | sərnişin daşıma fəaliyyəti ilə məşğul olan xarici hava gəmisinin istismarçılarına münasibətdə | Azərbaycan Respublikasının hava limanlarından (aeroportlarından) beynəlxalq daşımalar üzrə uçub gedən hər bir sərnişindən alınan yığım üçün | 2 avro |
| 67.2. | yük daşıma fəaliyyəti ilə məşğul olan xarici hava gəmisinin istismarçılarına münasibətdə | Azərbaycan Respublikasının hava limanlarından (aeroportlarından) beynəlxalq daşımalar üzrə uçub gedən hava gəmilərinin maksimal çəkisinin hər tonu üçün alınan yığım üçün | 0.60 avro |
| 68. | hava hərəkəti xidmətlərini təmin edən təchizatçıya uyğunluq sertifikatının verilməsi üzrə qiymətləndirmənin aparılması və müfəttiş yoxlamasının həyata keçirilməsi | | |
| 68.1. | sertifikatın verilməsi və ya müddətinin uzadılması üzrə | sertifikatlaşdırılması tələb olunan xidmətlərin sayına görə | 3000,0 manat |
| 68.2. | sertifikata dəyişikliklərin edilməsi üzrə | sertifikatda dəyişiklik edilməsi tələb olunan xidmətlərin sayına görə | 1500,0 manat |
| 69. | aeronaviqasiya üzrə təlim proqramının yoxlanılması və təsdiq edilməsi | hər təlim proqramı üzrə | 1500,0 manat |
| 70. | aeronaviqasiya sahəsi üzrə daxili prosedurun yoxlanılması və təsdiq edilməsi | hər prosedur üçün | 1500,0 manat |
| 71. | aeronaviqasiya sahəsi üzrə daxili prosedura dəyişikliklərin təsdiq edilməsi | hər prosedur üçün | 1000,0 manat |

**Qeydlər:**

1. Xidmət haqqı ilə bağlı aparılan bütün hesablaşmalar “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir. Xarici valyutada nəzərdə tutulan xidmət haqları Azərbaycan Respublikasının ərazisində ödəniş tarixinə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsinə uyğun olaraq manatla ödənilir.

2. Bu Cədvəl üzrə müəyyən olunmuş xidmətlər Azərbaycan Respublikasının hüdudlarından kənarda həyata keçirildikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin həmin xidmətlərin göstərilməsinə cəlb edilmiş işçilərinə “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin normaları üzrə hesablanmış məbləğ xidmət haqlarına əlavə olaraq xidmət göstərilən istifadəçilər tərəfindən ödənilir.

3. Bu Cədvəl üzrə müəyyən olunmuş xidmət haqqı məbləğlərinə Azərbaycan Respublikasında tətbiq edilən əlavə dəyər vergisi daxil deyil.

4. Bu Cədvəlin 1-ci hissəsində müəyyən olunmuş xidmət haqları Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin müraciəti əsasında Azərbaycan Respublikasına rəsmi, hökumət və sülhməramlı səfərlər məqsədilə həyata keçirilən uçuşlara, axtarış və xilasetmə uçuşlarına, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və ya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciəti əsasında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) hərbi uçuşlarına, hərbi və humanitar uçuşlara (Azərbaycan Respublikası üçün hərbi, təhlükəli və humanitar yüklərin mülki hava gəmiləri ilə daşınması), başqa ölkələrdən deportasiya edilmiş Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasından deportasiya edilmiş əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxsləri daşınması üzrə həyata keçirilən uçuşlara, hava gəmisinin geri qayıtması (yükü dəyişmədən) ilə əlaqədar uçuşlara, mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktı ilə bağlı fövqəladə vəziyyət nəticəsində təhlükəli vəziyyətdə olan hava gəmilərinin uçuşlarına (təcili eniş), təcili tibbi yardım uçuşlarına (“Air Ambulance”) və Azərbaycan Respublikasının hava limanından alternativ kimi istifadə edilməsi hallarında həyata keçirilən uçuşlara şamil olunmur.

5. Bu Cədvəlin 24-cü və 25-ci hissələrində üzv dövlət dedikdə, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyaya üzv dövlətlər nəzərdə tutulur.

6. Bu Cədvəlin 39-cu hissəsində aşağıdakı təşkilatlar nəzərdə tutulur:

6.1. mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatlar;

6.2. mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığın saxlanılmasını idarə edən təşkilatlar;

6.3. texniki xidmət üzrə təlim təşkilatları.

7. Bu Cədvəlin 51-ci və 67-ci hissələrində müəyyən olunmuş xidmət haqları sərnişinlərə münasibətdə - yer alınmamış 2 (iki) yaşadək uşaqlara, eyni hava gəmisində uçuşu davam etdirən tranzit sərnişinlərə, daxili hava daşımalarına, qeyri-kommersiya uçuşlarının (hökumət, axtarış-xilasetmə, sınaq, boş uçuşlar və deportasiya halları), habelə yükə münasibətdə - Azərbaycan Respublikasına humanitar uçuşlar həyata keçirən, Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə reyslər yerinə yetirən, axtarış və xilasetmə əməliyyatlarına cəlb olunan, təhlükəli vəziyyətdə olan (yardıma ehtiyac yaranan hallar) və aralıq eniş edən, eləcə də kommersiya yükündə dəyişiklik etmədən geriyə uçuşlar həyata keçirən hava gəmilərinə şamil olunmur.

8. Bu Cədvəlin 53-cü hissəsində aşağıdakı təlim təşkilatları nəzərdə tutulur:

8.1. uçuş heyətinə təlim keçən təlim təşkilatları;

8.2. aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerlərinə təlim keçən təlim təşkilatları;

8.3. texniki xidmət üzrə təlim təşkilatları.


**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**

## Azərbaycan Texnologiya Universiteti

*Aşağıda adı göstərilən vakant vəzifəni tutmaq üçün*

## Müsabiqə Elan Edir

- “Turizm” fakültəsi - dekan.

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 fevral 2018-ci il tarixli “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları” haqqında, F-100 nömrəli əmrə uyğun elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

**Əlaqə telefonu: 022-268-66-22.**

**Ünvan: AZ 2011, Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 103.**

***REKTORLUQ.***


## İslam İnkişaf Bankının ölkəmizə aqrar dəstəyi

**İslam İnkişaf Bankı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə uyğun olaraq, suvarma suyunun itkilərinin əhəmiyyətli dərəcədə azaldılması və kənd ərazilərinin dayanıqlı inkişafına dəstək vasitəsilə kənd təsərrüfatı məhsuldarlığının artırılması məqsədilə ölkəmizə 436,67 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti ayırıb.**




Bankdan bildiriblər ki, layihə, həmçinin “yaşıl” iqtisadi artımın təşviqinə, iqlim dayanıqlılığının gücləndirilməsinə və uzunmüddətli ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verəcək. “Təsdiqlənmiş layihələr İslam İnkişaf Bankının üzv ölkələrdə dayanıqlı və inklüziv iqtisadi artımın təşviqinə yönəlmiş strateji yanaşmasını əks etdirir. İnfrastruktur, energetika, su ehtiyatları, nəqliyyat və sənaye inkişafı sahələrində əsas problemlərin həlli bu təşəbbüslərin uzunmüddətli təsirini təmin edəcək və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına mühüm töhfə verəcək”, – deyə məlumatda bildirilib.

Qeyd olunub ki, İcraçı Direktorlar Şurasının bankın prezidenti Məhəmməd Əl-Cəssirin sədrliyi ilə keçirilmiş 364-cü iclasında bir sıra transformasiya xarakterli layihələr üçün, ümumilikdə, 2,41 milyard ABŞ dolları məbləğində maliyyələşmənin təsdiq olunduğu elan edilib. Məlumata əsasən, bu qərar bankın regional əməkdaşlığın gücləndirilməsinə, iqtisadi inkişafın təşviqinə, o cümlədən iqlimyönümlü və ətraf mühitin qorunmasına yönəlmiş investisiyaların artırılmasına, eləcə də üzv ölkələrdə Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqinə sadiqliyini əks etdirir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 38 (31007) 27 fevral 2026-cı il, cümə

*Əli Vəliyev–125*

# Həyat məktəbinin görkəmli yetirməsi

**Azərbaycan ədəbiyyatı XX əsrdə əsərləri zamanın sərt ideoloji çərçivələrini aşaraq günümüzə yetişmiş yazıçılar nəsli yetişdirib. Onlar yaşadıqları dövrün təzyiqlərinə baxmayaraq, qələmlərini insanın taleyinə, cəmiyyətin ağrılarına və vicdanın səsinə tabe etdiriblər. Belə yetkin simalardan biri də Xalq yazıçısı Əli Vəliyevdir. Yazıçı əsərlərində insanı ziddiyyətləri, qorxuları, ümidləri və daxili mübarizələri ilə göstərib, oxucunu inandırmağa yox, düşündürməyə üstünlük verib.**



Əli Qara oğlu Vəliyev 1901-ci il fevralın 27-də Zəngəzur qəzasının Ağudi kəndində dünyaya göz açıb. İlk təhsilini kənddəki üçsinifli rus məktəbində alıb. Ermənilərin Zəngəzurda törətdiyi soyqırımından xilas olub Ağdamda məskunlaşmış ailə məşəqqətli həyat keçirib. Zəkası və diribaşlığı ilə seçilən Əli Şuşa, ardınca isə Bakı firqə məktəbində oxuyub. Bu məktəblərdə aldığı təhsil onun dünyagörüşünün formalaşmasında da mühüm rol oynayıb. 1931-ci ildə Azərbaycan Universitetinin pedaqoji fakültəsini bitirib.

Əli Vəliyevin fəaliyyəti bədii yaradıcılıqla məhdudlaşmayıb. Kütləvi savadlanma və mədəni inqilab tədbirlərinə fəal qoşulan yazıçı 1933–1934-cü illərdə “Şərq qapısı” qəzetinin redaktoru, 1942–1945-ci illərdə Azərbaycanın ədəbi-mədəni həyatında mühüm rol oynayan “Kommunist” qəzetinin redaktor müavini, 1945–1950-ci illərdə məsul redaktoru vəzifələrində çalışıb. 1950–1954-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, 1954–1959-cu illərdə “Azərbaycan” jurnalının məsul redaktoru olub.

Yazıçı ədəbi fəaliyyətə 1920-ci illərdə başlayıb. İlk vaxtlar yaradıcılığında kənd həyatını, sadə insanların məişətini və daxili dünyasını realist boyalarla təqdim edən Əli Vəliyev 1930-cu ildə “Allahın səyahəti” və “Nənəmin cəhrəsi” əsərləri ilə oxucuların diqqətini cəlb edib. “Qarlı dağlar”, “Qəhrəman”, “Ordenli çoban”, “Sübut” kitabları isə artıq yazıçını ədəbi mühitdə tanıdıb.

Əli Vəliyevin yaradıcılığında İkinci Dünya müharibəsi illəri xüsusi mərhələ təşkil edir. O, müharibə başlayanda könüllü olaraq cəbhəyə yollanıb. Döyüş səhnələri, əsgərlərin qəhrəmanlığı onun publisistik və bədii yaradıcılığında silinməz izlər qoyub. “Cəbhə hekayələri”, “Ərköyün”, “Sovqat” kitablarında müharibənin mənəvi-psixoloji tərəfləri əks olunur.

Müharibədən sonrakı illərdə yazıçı “Gülşən” povesti və “Hekayələr” kitabını yazıb. “Gülşən” povesti və “Çiçəkli” romanı 1958-ci ildə M.F.Axundov adına Respublika Dövlət mükafatına layiq görülüb.

1950–1970-ci illər yazıçının yaradıcılığının ən məhsuldar dövrü sayılır. Bu illərdə “Madarın dastanı”, “Ürək dostları”, “Seçilmiş əsərləri”nin I–VI cildləri geniş tirajla çap olunub.

Əli Vəliyev məşhur “Budağın xatirələri”, “Yeni həyat”, “Zamanın ulduzları”, “İstedad”, “Qarabağda qalan izlər”, “Narahat adam”, “Turaclıya gedən yol” romanlarının da müəllifidir. Əsərləri bir neçə xarici dilə tərcümə olunub.

Xalq yazıçısının 1950-ci ildə qələmə aldığı “Gülşən” povestinin ideya-bədii motivləri əsasında görkəmli bəstəkar Soltan Hacıbəyovun yazdığı eyniadlı balet Azərbaycan mədəniyyətinin nadir nümunələrindəndir. Balet əvvəlcə Azərbaycan Opera və Balet Teatrının səhnəsində, 1953-cü ildə isə Əlişir Nəvai adına Daşkənd Böyük Teatrında tamaşaya qoyulub. Əsərin 1952-ci ildə SSRİ Dövlət mükafatına layiq görülməsi Əli Vəliyevin yaradıcılığının ittifaq miqyasında yüksək qiymətləndirildiyini bir daha sübut edir.

Əli Vəliyev Xalq yazıçısı fəxri adına, dövrün nüfuzlu orden-medallarına və mükafatlarına layiq görülüb. Onun həyat və yaradıcılığına həsr olunmuş sənədli filmlər çəkilib, monoqrafiyalar, elmi və publisistik məqalələr yazılıb. Azərbaycan ədəbiyyatının bir çox görkəmli simaları - Süleyman Rəhimov, Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rüstəm, Məmməd Rahim, Qasım Qasımzadə Əli Vəliyevi Azərbaycan sovet nəsrinin görkəmli nümayəndələrindən biri, publisistika və jurnalistikamızın nüfuzlu təmsilçisi kimi xarakterizə ediblər.

Əli Vəliyevin ictimai mövqeyini əks etdirən maraqlı məqamlardan biri də ulu öndər Heydər Əliyevlə bağlı xatirədir. Yazıçının 80 illik yubileyində Heydər Əliyev ona zəng edərək təbrik edir və ehtiyacının olub-olmadığını soruşur. Əli Vəliyev Qubadlı rayonunun bərbad vəziyyətdə olan yollarından, Kəlbəcərin İstisu ərazisinin problemlərindən danışır və bu məsələlərə kömək göstərilməsini xahiş edir.

Əli Vəliyev yaradıcılığı və şəxsiyyəti ilə bütöv bir xalqın yaddaşına yazılmış söz adamıdır. O, sözə vicdan, sənətə məsuliyyət, həyata isə insan sevgisi ilə yanaşaraq ədəbiyyatı zamanın fövqünə qaldıra bilib.

Xalq yazıçısı 2 fevral 1983-cü ildə vəfat edib, Birinci Fəxri xiyabanda dəfn olunub.

***L.TƏHMƏZ***
***XQ***

*27 Fevral Beynəlxalq QHT-lər Günüdür*

# Vətəndaş cəmiyyəti milli maraqların keşiyində

**Hər il fevralın 27-də qeyd olunan Beynəlxalq Qeyri-Hökumət Təşkilatları Günü vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan qeyri-hökumət təşkilatlarının (QHT) fəaliyyətinə diqqəti artırmaq, onların sosial, humanitar və hüquqi təşəbbüslərini təşviq etmək məqsədi daşıyır.**




QHT-lər dövlətlə cəmiyyət arasında körpü rolunu oynayaraq sosial ədalətin, insan hüquqlarının, inklüziv inkişafın və ictimai iştirakçılığın təmin olunmasında mühüm funksiyalar yerinə yetirirlər. Onların fəaliyyəti yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, gender bərabərliyi, səhiyyə, təhsil və humanitar yardım kimi geniş sahələri əhatə edir. Bu baxımdan QHT-lər BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşmasına da real töhfələr verirlər.

Azərbaycanda da vətəndaş cəmiyyəti institutlarının formalaşması müstəqillik dövründə yeni mərhələyə qədəm qoymuşdur. 1995-ci ildə qəbul edilmiş Konstitusiya birləşmək azadlığını təsbit edərək QHT-lərin hüquqi əsaslarını müəyyənləşdirmişdir. Sonrakı illərdə qanunvericilik bazası təkmilləşdirilmiş, dövlət–QHT münasibətlərində institusional mexanizmlər formalaşdırılmışdır.

Bu sahədə mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması olmuşdur. Hazırda həmin qurum Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi kimi fəaliyyət göstərərək QHT-lərin layihələrinin maliyyələşdirilməsi, institusional inkişafı və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə dəstək verir.

Azərbaycan QHT-ləri xüsusilə postmünaqişə dövründə humanitar təşəbbüslər, mina təhlükəsinə qarşı maarifləndirmə, sosial reabilitasiya proqramları həyata keçirirlər. Eyni zamanda, milli maraqların beynəlxalq platformalarda müdafiəsində və ictimai diplomatiyanın gücləndirilməsində onların rolu artmaqdadır.

Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının inkişafı qanunvericilik və Dövlət proqramları ilə məhdudlaşmır; bu sahədə ictimai təşəbbüslər və xeyriyyəçilik ənənələri də mühüm rol oynayır. Xüsusilə sosial və humanitar layihələrin miqyası göstərir ki, ölkədə QHT mühiti çoxşaxəli tərəfdaşlıq modeli əsasında formalaşır və inkişaf edir. İctimai nüfuzu və geniş fəaliyyət coğrafiyası ilə seçilən Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi diqqətəlayiqdir. Fondun reallaşdırdığı layihələr və əməkdaşlıq münasibətləri vətəndaş cəmiyyətinin institusional potensialının möhkəmlənməsinə və sosial həmrəyliyin güclənməsinə xidmət edən mühüm amillərdən biri kimi qiymətləndirilə bilər.

Müasir dövrdə qlobal çağırışların miqyası genişləndikcə, vətəndaş cəmiyyətinin rolu daha da aktuallaşır. Sosial ədalət, ictimai nəzarət, humanitar həmrəylik və inklüziv inkişaf prinsipləri yalnız dövlət siyasəti ilə deyil, eyni zamanda, fəal ictimai təşəbbüslər vasitəsilə möhkəmlənir. Qeyri-hökumət təşkilatları bu baxımdan cəmiyyətin təşəbbüs enerjisini təşkilatlanmış gücə çevirən mühüm platformadır.

Azərbaycanda formalaşan dövlət–QHT tərəfdaşlığı modeli göstərir ki, vətəndaş cəmiyyəti institutlarının institusional inkişafı ölkənin ümumi inkişaf strategiyasının tərkib hissəsidir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## İDMAN

### UEFA Çempionlar Liqasının 1/8 finalçıları

**UEFA Çempionlar Liqasında pley-off mərhələsinə yekun vurulub.**



Son oyun günündə İtaliyanın “Atalanta”, İspaniyanın “Real Madrid”, Türkiyənin “Qalatasaray” və Fransanın PSJ klubları növbəti mərhələyə adlayıblar. Bununla da 1/8 finalın bütün iştirakçıları bəlli olub.

İlk oyunda doğma meydanda İtaliyanın “Yuventus” klubuna 5:2 hesabı ilə qalib gələn “Qalatasaray” səfərdə məğlub olsa da (2:3), iki görüşün nəticəsinə (7:5) əsasən, 1/8 finala vəsiqə qazanıb.

Digər qarşılaşmalar belə yekunlaşıb: “Atalanta” (İtaliya) – “Borussiya Dortmund” (Almaniya) – 4:1 (0:2), PSJ (Fransa) – “Monako” (Fransa) – 2:2 (3:2), “Real Madrid” (İspaniya) – “Benfika” (Portuqaliya) – 2:1 (1:0)

Xəbər verdiyimiz kimi, pley-off mərhələsinin ilk oyun günüdə “Atletiko Madrid” (İspaniya), “Bayer” (Almaniya), “Budyo Qlimt” (Norveç) və “Nyukasl” (İngiltərə) komandaları 1/8 finala yüksəlib.

### Tiranada 3 medal

**Albaniyanın paytaxtı Tiranada “Muhamet Malo” turnirinə start verilib.**



Reytinq turnirinin ilk günündə sərbəst güləş üzrə millinin 5 üzvü mübarizə aparıb və onların 3-ü fəxri kürsüyə qalxıb.

İslam Bazarqanov (57 kq) yarımfinalda rusiyalı Ramiz Qamzatova 1:3 hesabıyla məğlub olsa da, hindistanlı Akşay Tanaci Dheredən güclü (9:2) olaraq bürünc medalı boynundan asıb.

Rəşid Babazadə (65 kq) yarımfinalda Azərbaycan əsilli amerikalı dünya çempionu Vitali Orucovla qarşılaşıb. Əzmkarlıq nümayiş etdirən Rəşid son saniyədə 4 xallıq fəndi icra edərək yekunda 18:15 hesablı qələbəylə finala vəsiqə qazanıb. Babazadə finalda hindistanlı Sucet Sucetlə qarşılaşıb. U23 dünya çempionatının son qalibiylə bacarmayan (0:10) Rəşid turniri gümüş medalla başa vurub.

Kənan Heybətov (74 kq) 1/8 finalda qırğız Orozbek Toktomambetova (1:3), onunla eyni çəkidə çıxış edən Turan Bayramov isə eyni mərhələdə amerikalı Kuinsi Mayls Mondeyə (1:5) məğlub olub.

Arseniy Djioyev (86 kq) yarımfinalda İbragim Kadiyevə 2:3 hesabıyla məğlub olub. Arseniy amerikalı 2 qat Olimpiya mükafatçısı və 4 qat dünya çempionu Kayl Deykə (4:1) qalib gələrək bürünc medala sahib çıxıb.

### 1 boksçumuz da 1/4 finalda

**Azərbaycan boksçusu Məhəmmədəli Aşırəliyev Bolqarıstanın paytaxtı Sofiyada “Strandja” beynəlxalq turnirində növbəti qələbəsini qazanıb. 60 kiloqramda mübarizə aparan milli üzvü 1/8 finalda Yazal Hussam Seyfeli (Misir) mübarizədən kənarlaşdırıb.**




O, rəqibini 5:0 (29:28, 30:27, 29:28, 30:27, 30:27) hesabı ilə məğlub edib. Azərbaycan çempionu 1/4 finalda Ayder Abduraimovla (Ukrayna) döyüşəcək. Görüş fevralın 27-də olacaq.

Qeyd edək ki, Aşırəliyevdən öncə Bilalhəbaşi Nəzərovla (50 kq) Zidan Hünbətov (55 kq) 1/4, Malik Həsənov (65 kq) isə 1/8 finala vəsiqə qazanıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

## HAVA

# Bakıda yağış, rayonlarda həm də qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır.**



Səhər bəzi yerlərdə az çiskinli, axşam isə yağıntılı olacağı, gecəyə doğru intensivləşəcəyi ehtimalı var. Şimal-şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-5, gündüz 6-8 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-6, gündüz 6-10 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın üzvləri Nəcəf Talıbova və Vidadi Talıbova bacıları
**SOLMAZ KAZIMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***✓ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Qarabağ Müharibəsi Veteranı Qasım-zadə Həsən Hüseyn oğlunun adına verilmiş 1013172 A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2927**
**SİFARİŞ 263**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mehparə ƏLİYEVA**
**Çapa imzalanmışdır 00:00**